# Üç ada, "Zəngəzur dəhlizi" və Naxçıvan yolunda özəl şirkət

*Yaxud Şoyqu–Əhmədian təmasında müəmma*

**Rusiya Təhlükəsizlik Şurasının katibi Sergey Şoyqu BRIKS və BRIKS+ ölkələrinin təhlükəsizlik məsələlərinə cavabdeh yüksək nümayəndələrinin iclası çərçivəsində İranın Ali Milli Təhlükəsizlik Şurasının katibi Əli Əkbər Əhmədian ilə ikitərəfli görüş keçirib. Bu barədə məlumatı İslam Respublikasının "Mehr" Agentliyi yayıb. Belə görünür ki, görüşün başlıca mövzusu "Zəngəzur dəhlizi" olub.**




Əslində, yayılmış məlumatda dolğunluq yox, müəmma var. Fikrimizi əsaslandıracağıq. Ancaq əvvəlcə onu bildirək ki, "Zəngəzur dəhlizi" məsələsində İranda aktivləşmə hiss olunmaqdadır. Ötən saylarımızda bununla bağlı məqamları diqqətə çatdırmışıq. Ümumiləşdirmə apararaq, onu da deyə bilərik ki, istər rəsmi Tehran, istərsə də İran ictimai fikri "Zəngəzur dəhlizi" layihəsinin reallaşmasına qarşıdır və bu müstəvidə İranla Rusiya arasında ciddi fikir ayrılıqları var.

Nəzərə alaq ki, Tehranda anti-Rusiya bəyanatları da səslənməkdədir. Məsələn, İran parlamentinin Milli təhlükəsizlik komissiyasının üzvü Fədəhhüseyn Maliki ultimativ tonda bildirmişdi ki, Moskva "Zəngəzur dəhlizi" məsələsində paradoksal addımlardan çəkinməlidir. Komissiya sədrinin sözlərinə görə, İran diplomatiyası Rusiyanın addımlarına qarşı qəti cavaba hazırdır. "Rusiyanın "Zəngəzur dəhlizi"nə dəstəyi kürəyimizdən zərbədir", – deyən deputat, həmçinin bildirmişdi ki, Kreml İran körfəzində üç ada məsələsinə görə Tehrandan sərt cavab alıb və eyni səhvi indi Zəngəzurda təkrarlayır.

Lakin, mövzu ətrafında konkret olaraq, nəzərə çarpan bir məqam – bu, Zəngəzur xüsusunda Rusiyanın hansısa özəl beynəlxalq şirkətin həyata keçirməsindən gedir ki, mövzu erməni siyasi dairələrində isterik durum formalaşdırıb.

Xatırladaq ki, bir neçə gün əvvəl Ermənistanın xarici işlər nazirinin müavini Mnatsakan Səfəryan Sünik (Zəngəzur – red.) vasitəsilə Azərbaycanı Naxçıvanla birləşdirən yola nəzarətin özəl mühafizə şirkətinə veriləbiləcəyini vurğulayıb. İsterik durum formalaşdıran erməni siyasilər bu gedişatı ölkənin ərazi bütövlüyünə və suverenliyinə zidd təmayül sayırlar. Məsələn, politoloq Sergey Melkonyan "alpha news"a müsahibəsində deyib: "Dəhliz üzərində nəzarətin müəyyən özəl beynəlxalq təşkilata verilməsinin mümkünlüyü müzakirə olunur.

Bu, o deməkdir ki, bizim üçün ən vacib olan təhlükəsizlik sektoru Ermənistanın nəzarətindən kənarda qalacaq və ona görə də bu komponentin köməyi ilə rabitəni dəhliz adlandıra bilərik. Dövlətlərarası sərhədin təhlükəsizliyini hansısa beynəlxalq özəl təşkilatın öz üzərinə götürməsi hallarına hələ rast gəlməmişəm. Belə hallar ola bilər, amma düşdüyümüz çətin vəziyyətdə, Azərbaycanın təkcə Sünikin cənubunu deyil, həm də bütün Ermənistanın ərazisini hissə-hissə işğal etmək qərarına gəldiyi vaxtda məsələ yolverilməzdir. Bu mənada bilmədiyin başqa bir qüvvəyə təhlükəsizliyini həvalə etmək və onun üzərinə düşən vəzifəni yerinə yetirməməsi nə ilə nəticələnə bilər?"




Bununla yanaşı, İranın media orqanları, o cümlədən İslam İnqilabı Keşikçiləri Korpusuna (SEPAH) yaxın olan "Tasnim" agentliyi bildirib ki, Tehran Rusiyanın "Zəngəzur dəhlizi"nin yaradılmasını fəal dəstəkləməsindən narazıdır. Agentlik daha əvvəl layihəyə qarşı çıxan İranın "Rusiya tərəfinə müvafiq mesajı çatdırmaq üçün diplomatik addımlar atdığını" da açıqlamışdı.

F.Malikinin barəsində danışdığı üç adadan söz düşmüşkən, mətləbə keçməzdən öncə deyək ki, S.Şoyqu Ə.Ə.Əhmədian ilə görüşü əsnasında bildirib ki, Moskva İran İslam Respublikasının üç körfəz adası üzərindəki suverenliyini və ərazi bütövlüyünü dəstəkləyir. Ancaq rusiyalı ali rəsmi bunu da deyib: "Rusiya Tehranla Zəngəzurla bağlı əvvəlki razılaşmalara sadiqdir və Moskvanın bununla əlaqədar siyasəti dəyişməyib".

Əslində, üç ada məsələsi ilə "Zəngəzur dəhlizi" məsələsinin eyni prizmada götürülməsi maraqlı məqamdır. Ən maraqlı məqam isə Zəngəzur xüsusundakı İran – Rusiya razılaşmasının nədən ibarət olmasıdır. Haqqında söz açdığımız müəmma da elə budur. Şoyqunun tonundan belə qənaətə gəlmək mümkündür ki, Moskva adalar məsələsində Tehrana güzəştə gedir və İrandan "Zəngəzur dəhlizi" ilə bağlı kompromis gözləyir.

Əlbəttə, mövzu ətrafında konkret nə isə bildirmək çətindir. Ancaq bu birmənalıdır ki, Azərbaycan Naxçıvana yol məsələsində prinsiplərinə sadiqdir. Yəni, yolun maneəsizliyində – hansısa gömrük və sərhəd nəzarəti olmadan reallaşması məntiqində israrlıdır. Ermənistan isə Naxçıvana yolun Azərbaycan təsəvvürünə qarşı özünün ərazi bütövlüyünün və suverenliyinin toxunulmazlığını irəli sürür. Mövcud dolaşıq labirintdə bir məsələ də var. Söhbət sözügedən istiqamətdə təhlükəsizliyi özəl beynəlxalq şirkətin həyata keçirməsindən gedir ki, mövzu erməni siyasi dairələrində isterik durum formalaşdırıb.

Başqa bir erməni politoloq Stepan Danielyan isə bildirib ki, Ermənistan hakimiyyətinin ölkə ərazisindən keçən yolların təhlükəsizliyinə nəzarətin özəl quruma verilməsinin mümkünlüyünü qəbul etməsi suverenliyin azalması deməkdir. "Ermənistan belə bir sənədi imzalamaqla, öz ərazisində təhlükəsizliyi təmin edə bilməməsi faktını rəsmən tanıyır və bu məsuliyyəti ölkənin təhlükəsizlik orqanlarından daha etibarlı olan özəl təşkilata verir. Bu, səhmləri birjalarda mənşəyi naməlum şəxslər tərəfindən alına bilən Ermənistan ərazisi üzərində nəzarətin yaradılması üçün digər özəl şirkətlərin müraciət etməsinə əsas yaradacaq. Bu, yalnız başlanğıcdır, "xarici oyunçular", müxtəlif geosiyasi mərkəzlər arasında düşmənçiliyə səbəb ola biləcək ciddi mübarizə gözlənilir".

Sonda onu da bildirək ki, hazırda Ermənistanın İran və Türkiyə ilə sərhədlərini rus hərbçiləri qoruyurlar. Daha doğrusu, mövcud status-kvo 30 ilə yaxındır davam edir. Deməli, hər bir halda ölkənin suverenlik səviyyəsi yüksək həddə deyil və bu, vəlvələdən, yaxud zəlzələdən yaranmış müasir erməni dövlətçiliyinin alın yazısıdır. Əslində, onun üçün bu tale də böyük şeydir. Naxçıvana maneəsiz yola gəldikdə isə məsələ mütləq reallaşacaq. Rusiyada olduğu kimi, İranda da ideyanı qəbul edən sağlam qüvvələrin mövcud istiqamətdə razılığa gəlmələri mümkündür. Bir halda ki, Şoyqu "Zəngəzur dəhlizi" məsələsini iranlı həmkarı ilə müzakirə edir, deməli, Ermənistanın rəyini soruşan yoxdur və belə də olmalıdır.

***XQ-nin analitik qrupu***

# Kahramanmaraşda Heydər Əliyev adına məktəb açıldı




**2023-cü ilin dağıdıcı zəlzələlərindən zərər çəkmiş Türkiyənin Kahramanmaraş şəhərində sentyabrın 11-də Heydər Əliyev adına ibtidai məktəbin açılış mərasimi olub.**

Tikintisi davam edən "Azərbaycan" məhəlləsində yerləşən bu təhsil müəssisənin açılışında Azərbaycanın elm və təhsil naziri Emin Əmrullayev və Türkiyənin milli təhsil naziri Yusuf Tekin iştirak ediblər.

Məktəb binasında iki qardaş ölkənin Dövlət bayraqları, həmçinin dövlət başçıları İlham Əliyev və Rəcəb Tayyib Ərdoğanın, ümummilli lider Heydər Əliyev və Türkiyə Cümhuriyyətinin banisi Mustafa Kamal Atatürkün rəsmləri olan plakatlar asılıb.

*(ardı 2-ci səhifədə)*

Xalqın qəzeti!

# Xalq qəzeti

№ 198 (30602) 12 sentyabr 2024-cü il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti

# Qarabağda sahibkarlığın inkişafına üstün şərait yaradılır



Səhifə ⇨ 7

# Macarıstanın təklifi yüksək dəyərləndirilməlidir, amma…

**Hazırda Avropa İttifaqı Şurasına sədrlik edən Macarıstanın xarici işlər və ticarət naziri Peter Siyarto Azərbaycan və Ermənistan arasında sülh müqaviləsinin Budapeştdə imzalanması təklifini verib.**




Nazir bu ideyanı sentyabrın 10-da "İrəvan dialoqu" beynəlxalq forumunun "Qarşılıqlı əlaqənin geosiyasəti: rəqabətdən əməkdaşlığa" mövzusunda panel müzakirəsində çıxışı zamanı səsləndirib. P.Siyarto bunu ölkəsinin tərəflərə göstərə biləcəyi mühüm kömək kimi dəyərləndirib. Qeyd edib ki, müharibə heç vaxt döyüş meydanında bitmir, danışıqlar masası arxasında həllini tapır. Macarıstan münaqişənin hər iki tərəfi ilə qarşılıqlı hörmət əsasında danışmaq niyyətindədir.

Onun sözlərinə görə, Budapeşt bu yaxınlarda Ermənistanla diplomatik münasibətləri bərpa edib. Bundan sonra ikitərəfli ticarətdə rekord göstəriciyə nail olunub və paytaxtlar arasında uçuşlar başlanıb. Bundan əlavə, tərəflər əməkdaşlıq qurur, o cümlədən paytaxtlarda səfirliklər açılır.

*(ardı 3-cü səhifədə)*

# Ermənistanın anti-Rusiya siyasətinin təhsil xətti



Səhifə ⇨ 4

## Paşinyanın "yarımçıq sülh" məntiqi



Səhifə ⇨ 4

## Su təkcə həyatı göyərtmir, həm də bolluq yaradır



Səhifə ⇨ 8

## ABŞ-nin Ermənistanda revanşizmi körükləyən layihələri



Səhifə ⇨ 5

# Cəzaçəkmə müəssisələrində peşə təhsilinin keyfiyyətinin yüksəldilməsi ilə bağlı tədbirlər haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Cəzaçəkmə müəssisələrində keyfiyyətli peşə təhsilinin həyata keçirilməsi cəzaçəkmə müəssisələrindən azadlığa buraxılmış şəxslərin sosial adaptasiyasının asanlaşdırılması, əmək bazarının ixtisaslı işçi qüvvəsinə tələbatının davamlı təmin olunması baxımından böyük önəm kəsb edir.

Bu baxımdan, cəzaçəkmə müəssisələrində peşə təhsilinin müasir standartlara, əmək bazarında mövcud və gələcəkdə təklif ediləcək iş yerlərinə uyğun qurulması cəza çəkməkdən azad edilmiş şəxslərin sosial mühitə uyğunlaşdırılmasında, hüquq və azadlıqlarının, qanuni mənafelərinin qorunmasında, bu şəxslər tərəfindən törədilə biləcək yeni cinayətlərin və onlara təsir göstərə bilən kriminogen amillərin qarşısının alınmasında vacib rol oynayacaqdır.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, cəzaçəkmə müəssisələrində peşə təhsilinin keyfiyyətinin yüksəldilməsi, habelə cəza çəkməkdən azad edilmiş şəxslərin sosial adaptasiyasının təmin edilməsi məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin, Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin, Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin və Azərbaycan Respublikası Maliyyə Nazirliyinin təklifləri nəzərə alınmaqla, cəzaçəkmə müəssisələrində peşə təhsilinin keyfiyyətinin yüksəldilməsinə və mövcud infrastrukturun təkmilləşdirilməsinə dair fəaliyyət planının layihəsini altı ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. fəaliyyət planı layihəsinin hazırlanması ilə əlaqədar aidiyyəti dövlət orqanlarının (qurumlarının) nümayəndələrindən ibarət işçi qrupun yaradılmasını təmin etsin;

1.3. fəaliyyət planının layihəsi hazırlanarkən ixtisaslaşmış ekspertlərlə və mütəxəssislərlə səmərəli əməkdaşlığın həyata keçirilməsini, habelə elmi təşkilatların və vətəndaş cəmiyyəti institutlarının cəlb olunmasını təmin etsin;

1.4. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

2. Aidiyyəti dövlət orqanları (qurumları) bu Sərəncamdan irəli gələn məsələlərin həlli üçün zəruri tədbirlər görsünlər.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

**Bakı şəhəri, 11 sentyabr 2024-cü il**

# Xaricdə Yaşayan Alimlərin Prezident İlham Əliyevə müraciəti



**Xaricdə Yaşayan Azərbaycanlı Alimlərin Forumunun iştirakçıları Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevə müraciət ünvanlayıblar.**

**Müraciətdə bildirilir:**

**"Hörmətli cənab Prezident.**

Dünyanın müxtəlif ölkələrində yaşayıb-çalışan azərbaycanlı alimləri birləşdirən təşkilatımız doğma Vətənimizin yüksəlişini daim diqqətlə izləyir, böyük Zəfərə imza atmış dövlətimizin və xalqımızın uğurlarına qəlbən sevinirik. Biz Vətənimizdən kənarda fəaliyyət göstərsək də, hər zaman və hər yerdə Ulu Öndərimiz Heydər Əliyevin bu möhtəşəm sözlərini xatırlayırıq: "Azərbaycan torpağının hər guşəsi hər bir azərbaycanlı üçün əzizdir". Dünyanın ayrı-ayrı ölkələrində fərqli elm sahələrində işləyən tədqiqatçılarımızı qovuşduran Dünya Azərbaycanlı Alimlər Birliyinin başlıca məqsədi Vətənimizin inkişafına mümkün kömək göstərməkdir.

Bu gün - Xaricdə Yaşayan Azərbaycanlı Alimlərin Forumunun son günündə işğaldan azad edilmiş müqəddəs Azərbaycan torpağı Qarabağda olarkən qalib xalqımızın və onun Müzəffər Ali Baş Komandanının, Vətənimizin müdafiəçisi və xilaskarı qarşısında inanılmaz xoşbəxtlik, qürur hissi keçirdiyimizi Sizə, həmçinin bütün dünyaya bildirməkdən məmnunluq duyuruq. Torpağımızın hər qarışının azad edilməsi uğrunda mübarizədə xalqımızın verdiyi qurbanları daim xatırlayır, şəhidlərimizə Allahdan rəhmət diləyir, qazilərimizə cansağlığı arzulayırıq.

Xarici ölkələrdə yaşayan azərbaycanlı alimlər olaraq Sizi və Sizin şəxsinizdə bütün Azərbaycan xalqını əmin edirik ki, elm və texnologiya, energetika, təhsil, səhiyyə, sosiologiya və mədəniyyət sahələrində Vətənin strateji planlarının hazırlanması və həyata keçirilməsi naminə əzmlə səy göstərəcəyik.

Cənab Prezident, şanlı Silahlı Qüvvələrimizin Ali Baş Komandanı olaraq xalqımızı Zəfərə qovuşdurduğunuz, ölkəmizin ərazi bütövlüyünü bərpa, Vətənimizin suverenliyini tam təmin etdiyiniz üçün daim Sizə minnətdarıq.

Sizin müdrik və uzaqgörən rəhbərliyinizlə Azərbaycanın siyasi, iqtisadi, elmi-mədəni istiqamətlərdə gələcəkdə daha böyük müvəffəqiyyətlər qazanacağına əminliyimizi bildirir, ümumi tərəqqimizə töhfələrimizi verməyə hazır olduğumuzu bəyan edirik. İnanırıq ki, müasir elmi biliklərə və geniş təcrübəyə malik olan, Vətənimizi dərin məhəbbətlə sevən və siyasi xəttinizi daim dəstəkləyən ziyalılarımız ümummilli məna daşıyan böyük işlərdə Sizin yardımçınıza çevriləcəklər.

Bu gün Xankəndidə hər birimiz Ulu Öndərimizin bu ölməz sözlərini böyük qürur hissi ilə bir daha təkrar edirik: "Mən fəxr edirəm ki, azərbaycanlıyam. Mən fəxr edirəm ki, Azərbaycan mənim doğma torpağımdır. Mən fəxr edirəm ki, belə bir millətim var!".

**XQ**

# Çində ŞƏT-in Qadınlar Forumu

**Çinin Şandon əyalətinin Çindao şəhərində Şanxay Əməkdaşlıq Təşkilatının "Rəqəmsallaşma vasitəsilə qadınların iqtisadi hüquqları və imkanlarının artırılması" mövzusunda Qadınlar Forumu keçirilib.**



ŞƏT-in, Ümumçin Qadınlar Federasiyasının və Şandon əyaləti hökumətinin birgə təşkilatçılığı ilə keçirilən forumda ŞƏT-in üzvü, müşahidəçisi və dialoq tərəfdaşı olan ölkələrin nümayəndələri, ümumilikdə 26 dövlətin təmsilçiləri, o cümlədən rəhbər şəxslər iştirak edirlər. Nüfuzlu tədbirdə Azərbaycanı Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradovanın rəhbərliyi ilə nümayəndə heyəti təmsil edib.

Forumun panel iclasında çıxış edən Bahar Muradova dəyişən dünyamızın çağırışlarına birgə cavab üçün bir çox sahələr üzrə əməkdaşlıq münasibətlərini intensivləşdirməyə ehtiyac yarandığını vurğulayıb, rəqəmsallaşma sahəsində ən yüksək standartları hədəfləyən islahatlar və yeni texnologiyaların tətbiqi nəticəsində ölkəmizdə qadınların iqtisadi fəallığının artırılması üçün geniş imkanların yaradıldığını bildirib. O qeyd edib ki, dövlət-özəl tərəfdaşlığı vasitəsilə qadınlar rəqəmsal iqtisadiyyatda iştirakçılığı artırmağa müvəffəq olur, ictimai həyatda daha fəal iştirak etməklə güclü və inklüziv cəmiyyət quruculuğuna əvəzsiz töhfələr verirlər.

Komitə sədri Bakıda keçiriləcək BMT-nin İqlim Dəyişmələr üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) barədə də məlumat verib. Bildirib ki, COP29-un Təşkilat Komitəsində, icraçı qurumunda, eləcə də bütün səviyyələrdə işçi və könüllü heyətində qadınların yüksək təmsilçiliyinə nail olunub.

**XQ**

# 18 ailə də doğma Laçınına qovuşdu



**Dünən növbəti köç karvanı ilə Laçın şəhərinə çatan ailələrə evlərinin açarları təqdim olunub.**

Bununla da Laçın şəhərində 570 ailənin, yəni 2090 nəfərin daimi məskunlaşması təmin edilib.

Qeyd edək ki, köçürülən ailələrin Laçın şəhərində dövlətimizin başçısının göstərişi əsasında bərpa edilən və ya yenidən tikilən evlərdə məskunlaşması üçün bütün şərait yaradılıb.

**XQ**



# Kahramanmaraşda Heydər Əliyev adına məktəb açıldı

**(əvvəli 1-ci səhifədə)**

Mərasim iştirakçılarına müraciət edən Emin Əmrullayev qeyd edib ki, Azərbaycan ilə Türkiyənin qardaşlığı öz əksini konkret layihələr və proqramlarda tapır. O əlavə edib: "Qardaşlığımızın təzahürlərindən biri Kahramanmaraşda Heydər Əliyev adına ibtidai məktəb oldu. Ümidvaram ki, bu məktəb tezliklə Azərbaycanın məktəblərindən biri ilə qardaşlaşacaq, türkiyəli və azərbaycanlı şagirdlər və pedaqoqlar isə qarşılıqlı səfərlər edəcəklər".

Emin Əmrullayev iki qardaş ölkə arasında təhsil sahəsində əməkdaşlıq tarixində daha bir mühüm hadisəyə – Bakıda Azərbaycan-Türkiyə Universitetinin açılışına diqqət çəkib. O, həmçinin Xankəndidə Qarabağ Universitetinin açılışından da xatırladıb. "Əminəm ki, Qarabağ Universiteti bütün Türk dünyasının daha bir təhsil mərkəzinə çevriləcək", – deyə E.Əmrullayev qeyd edib.

Qardaş ölkənin milli təhsil naziri Yusuf Tekin, öz növbəsində, Türkiyədə təbii fəlakət zonasının bərpasına verdiyi töhfəyə görə Prezident İlham Əliyevə, Azərbaycan hökumətinə və təhsil naziri Emin Əmrullayevə təşəkkür edib.

Azərbaycanın Ankaradakı səfiri Rəşad Məmmədov və Kahramanmaraş vilayətinin rəhbər şəxsləri mərasim iştirakçıları qarşısında çıxış ediblər.

Daha sonra E.Əmrullayev və Y.Tekin təhsil ocağının binasına baxış keçirib, xatirə şəkli çəkdiriblər.

Xatırladaq ki, təhsil ocağının üçmərtəbəli binası iyirmidən çox sinif otağından ibarətdir. Məktəbdə ibtidai siniflərdə dərslərlə yanaşı, Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin də adını daşıyan hazırlıq şöbəsində məşğələlər üçün otaqlar ayrılıb.

Məktəb ən müasir tələblərə uyğun, tədris prosesi üçün lazım olan bütün avadanlıqla təchiz olunub.

# İqtisadi Şuranın növbəti iclası



**Sentyabrın 11-də İqtisadi Şuranın növbəti iclası keçirilib.**

Nazirlər Kabinetinin mətbuat xidmətindən bildiriblər ki, Azərbaycan Respublikası İqtisadi Şurasının sədri, Baş nazir Əli Əsədovun rəhbərliyi ilə keçirilən iclasın gündəliyində 2025-ci və növbəti üç il üzrə dövlət və icmal büdcələrinin layihələri, dünya iqtisadiyyatının inkişaf meyilləri, büdcə proqnozlarında istifadə olunan əsas fərziyyələr, mövcud iqtisadi vəziyyət və 2024-2028-ci illər üzrə yenilənmiş makroiqtisadi proqnozlar, büdcə qaydasının parametrləri üzrə hədəf göstəriciləri, 2025-2028-ci illərdə büdcə siyasətinin əsas istiqamətləri, Qarabağ və Şərqi Zəngəzurun yenidən qurulması, bərpası ilə bağlı xərclərin maliyyələşdirilməsi ilə bağlı məsələlər müzakirə olunub. Həmçinin Böyük Qayıdış Proqramının təmin edilməsi, Ortamüddətli Xərclər Çərçivəsi və nəticə əsaslı büdcə mexanizminin tətbiq olunduğu sahələr, makroiqtisadi və maliyyə sabitliyi sahəsində cari vəziyyət, siyasət istiqamətləri, həmçinin digər cari məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Tədbirdə iqtisadiyyat naziri Mikayıl Cabbarovun, maliyyə naziri Samir Şərifovun, Mərkəzi Bankın sədri Taleh Kazımovun, əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayevin məruzələri dinlənilib.

İclasın yekununda İqtisadi Şura üzvlərinin rəy və təklifləri nəzərə alınmaqla 2025-ci ilin büdcə zərfinə daxil olan bütün sənəd və məlumatların Azərbaycan Respublikasının Prezidentinə təqdim edilməsi üçün Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim olunması ilə bağlı aidiyyəti qurumlara müvafiq tapşırıqlar verilib.

**XQ**

# Azərbaycan–Türkiyə hüquqi əməkdaşlığı yüksək səviyyədədir



**Sentyabrın 11-də baş prokuror Kamran Əliyev Azərbaycana işgüzar səfərə gələn Türkiyə Ali Məhkəməsinin sədri Ömər Kərkəzin rəhbərlik etdiyi geniştərkibli nümayəndə heyəti ilə görüşüb.**

Baş prokuror Ömər Kərkəzi qardaş ölkənin Ali Məhkəməsinin sədri vəzifəsinə seçilməyi münasibətilə təbrik edib.

İki qardaş ölkə arasında əlaqələrin etibarlı strateji əməkdaşlıq səviyyəsinə yüksəldiyini qeyd edən Kamran Əliyev Müzəffər Ali Baş Komandanın rəhbərliyi və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın diqqəti ilə Qarabağda geniş bərpa-quruculuq işlərinin aparıldığını, o cümlədən bu ilin iyununda Xankəndi Şəhər Prokurorluğunun təntənəli açılış mərasiminin keçirildiyini bildirib.

Baş prokuror bu ilin payızında ölkəmizin mötəbər beynəlxalq tədbirlərə, o cümlədən COP29-a və Beynəlxalq Prokurorlar Assosiasiyasının 29-cu illik konfransına ev sahibliyi edəcəyini bildirib.

Ömər Kərkəz ölkələrimizin prokurorluq, məhkəmə və ədliyyə orqanları arasında əməkdaşlığın yüksək səviyyədə olduğunu bildirərək, qarşılıqlı səmərəli fəaliyyətin bundan sonra da yüksələn xətlə davam edəcəyinə əminliyini ifadə edib.

**XQ**

# “Artsax” layihəsi qapandı

## *Ömrü başa çatmış fitnəkarlığa sərmayə qoymurlar*

**Zamanın öz hökmü var. Ona qarşı çıxmaq, yaxud hökmünə korrektələr etmək insanın işi deyil. Beləliklə, hayların “artsax” adlı ömrü süni şəkildə uzadılmış saxta layihəsi başa çatıb. İndi getsinlər dünyanın başqa bir yerində yeni “artsax” layihəsini həyata keçirməyə dair özlərinin məkrli planlarını qursunlar. Eynilə bəzi qeyri-hökumət təşkilatları üçün qazanc əldə etmək üsulu sayılan qrant-layihələrdə olduğu kimi. Amma icra müddəti başa çatmış və özünü doğrultmamış layihəyə ikinci dəfə qrant ayırmırlar. Necə ki, “artsax projesi”nə daha pul verən yoxdur...**



Azərbaycanın tərkibində 30 ildən çox mövcud olan qeyri-qanuni anklavın, xəritəmizdəki “qarayara”nın, bir sözlə, heç vaxt heç kimin tanımadığı “artsax”, “miatsum” layihəsi indi tarixin arxivində tozlanma aqibətini gözləməkdədir.

Dinc yolla münaqişəni həll etməkdən boyun qaçıran işğalçını müharibə ilə torpaqlarımızdan qovduq, lokal antiterror tədbiri ilə (sülhə məcburetmə əməliyyatı da deyə bilərik – red.) ərazi bütövlüyümüzü və suverenliyimizi tam bərpa etdik. Artıq zamanın təkəri tərsinə deyil, düz istiqamətdə fırlanır. Reallıq “artsax” layihəsinin məhv olmasından, bir daha başını qaldırmaq şansının olmamasından ibarətdir. Bəli, bu, Azərbaycanın böyük geosiyasi qələbəsidir.

İndi İrəvanda əyləşib Qarabağ ermənilərinin geridönmə hüququndan dəm vuranlar bu pozulmuş “kartdan” daha çox daxili siyasi qarşıdurmada yararlanmağa çalışırlar. 20 il Ermənistanda hakimiyyətdə olmuş “Qarabağ klanı”nın başı məhkəmə çəkişmələrindən ayılanda özlərini, guya, “artsaxlıların” qeyrətini çəkənlər kimi göstərən Koçaryan, Sarkisyan, keşiş Qalstanyan kimi separatçılar beynəlxalq təşkilatlara müraciətlər ünvanlayır, ABŞ Konqresində dinləmələr keçirirlər. Bunların altməqsədləri Paşinyanı kürsüsündən aşırmaq və yenidən hakimiyyəti ələ keçirməkdir. Hər iki cəbhədə faydasız və səmərəsiz fəaliyyətə baş vuranlara sadə bir həqiqəti xatırlatmağımıza gərək var. Axı, Qarabağın Azərbaycan torpağı olduğunu Ermənistan isteblişmentinin, demək olar ki, bütün üzvləri etiraf ediblər. Əgər onlar bunu unudublarsa, yadlarına sala bilərik.

* 2019-cu ildə “Qarabağ Ermənistandır və nöqtə!” deyən baş nazir Nikol Paşinyan cəmi bir ildən sonra sözünü 180 dərəcə döndərərək, “Qarabağ Azərbaycan torpağıdır” etirafı tarixi reallığın və ədalətin bərpası demək idi.

* 2021-ci ilin noyabrında təhlükəsizlik şurasının katibi Armen Qriqoryan bəyan edirdi: “Ermənistan demarkasiya və delimitasiyası prosesinə başlamağa hazırdır. Bu, o deməkdir ki, “artsax” məsələsi birdəfəlik bağlanıb. Biz ermənilər də etiraf edirik ki, bu, Azərbaycan torpağıdır!”.

* Bir il əvvəl Ermənistan parlamentinin spikeri Alen Simonyan Ermənistan –“dqr” qondarma parlamentlərarası komissiyasının buraxıldığını bəyan edib. Onun sözlərinə görə, komissiyanın ikinci tərəfinin səlahiyyəti mövcud deyil. Hayların spikeri ərz edib ki, “Dağlıq Qarabağın prezidenti” termini də daxil olmaqla, qondarma rejimin vəzifələri daha mövcud deyil.

* 2024-cü ilin aprelində “artsaxlılar” xarici işlər naziri Ararat Mirzoyan və Armen Qriqoryanla görüş variantlarını müzakirə edib, sonda əslən Hadrutdan olan Qriqoryanla görüşə üstünlük veriblər. Onlar ümid edirdilər ki, təhlükəsizlik şurasının katibi onlarla həmfikir olacaq. Amma ümidləri puça çıxıb. Armen Qriqoryanla görüş sözlə ifadə olunmayacaq dərəcədə soyuq şəraitdə keçib. “Hraparak”dan sitat: “Bizə dedilər ki, görüş cəmi 20-30 dəqiqə çəkib. Onlar Qriqoryanı inandırmağa çalışdılar ki, böyük nəticə əldə etmək mümkün olmasa da, “artsax” məsələsini gündəmdə saxlamaqla Ermənistanın müdafiəsinin güclənməsinə töhfə vermək olar. Fəqət ,Armen Qriqoryan onları dinləmək belə istəməyib və açıq şəkildə deyib ki, “artsax” məsələsi qapanıb”.

Bizə elə gəlir ki, separatçıların yaddaşını təzələmək üçün bu qədər yetər.

*

İndi isə gələk separatçı-revanşist qaragüruhun, “artsax” mövzusunu gündəmə gətirməyə çalışanların cavablarını verməyə çalışan Paşinyan komandasının üzvlərinin ritorikasına. Onlardan biri son vaxtlar siyasi fəallığını artırmış parlamentdəki “Mülki müqavilə” fraksiyasının katibi Artur Hovannisyandır. Onun dediklərinə diqqət yetirək: “Hazırda Dağlıq Qarabağdan (?) məcburi köçkün düşmüş soydaşlarımızın sülh yolu ilə öz evlərinə qayıda biləcəkləri ilə bağlı şansları yoxdur”. Hovannisyanın sözlərinə görə, 2020-ci il 10 noyabr Bəyanatının şərtləri, faktiki olaraq, yerinə yetirilməyib. Parlamentdəki iqtidar fraksiyasının katibi hesab edir ki, bu cür adamlar heç nədən “artsax” problemini qabartmaqla Ermənistanın daxili həyatında gərginlik yaratmağa, ölkənin boynuna yeni “siyasi kəndiri” dolamağa çalışırlar.

Bunun ardınca məlum bəyanatı ikibaşlı izah etməyə girişən hay deputat qeyd edir ki, hazırda Dağlıq Qarabağdan (?) məcburi köçkün düşmüş ermənilərin sülh yolu ilə öz evlərinə qayıda biləcəkləri yönündə təsəvvürləri yoxdur. Çünki noyabrın 10-da imzalanmış bəyanat yerinə yetirilməyib. Hovannisyan bildirib ki, bəyanatın şərtinə görə, Rusiya sülhməramlıları Dağlıq Qarabağdakı (?) ermənilərin təhlükəsizliyini təmin edə bilməyiblər: “Bu, Ermənistan hakimiyyətinin uğursuzluğu deyil. Azərbaycan hərbi addımlar atdı, Ermənistanı müharibəyə sürükləməyə cəhd göstərdi ki, sərhəddə müəyyən proseslər baş versin”.

“Mülki müqavilə” fraksiyası üzvünün ikibaşlı açıqlaması ictimaiyyətin damarına basmamaq niyyəti ilə izah oluna bilər. Artur Hovannisyan Ermənistandan xarici ölkələrə köçməyə üstünlük verən və sayları getdikcə azalan Qarabağ ermənişrini əmin edib ki, hakimiyyət Dağlıq Qarabağdan (?) məcburi köçkünlərin problemlərini həll etməyə çalışır ki, onlar Ermənistan cəmiyyətinə tam inteqrasiya olunsunlar.

*

Oxuculara xatırladaq ki, Paşinyan hökuməti, həqiqətən də, köçkünləri yaşayış yeri, normal işlə təmin etmək məqsədilə xüsusi proqram qəbul edib. Həmin proqramda keçmiş Qarabağ ermənilərinin hamısına Ermənistan pasportunun verilməsi nəzərdə tutulub. Hətta onlara qaçqın statusunun verilməsi ara-sıra gündəmə gətirilir. Amma bu məsələnin bir “əmma”sı var. Qarabağdan Ermənistana gedən ermənilər hansı statusu ala bilər? Axı onların əksəriyyəti Ermənistan vətəndaşları idilər. Bir qismi isə məqsədli şəkildə Azərbaycanın işğal altındakı ərazilərində məskunlaşdırılmışdı. Bu halda onlara heç bir status verilə bilməz. Əgər onlara qondarma “dqr”in pasportu verilibsə, deməli, qaçqın statusunun verilməsi beynəlxalq hüquqa ziddir. “dqr” heç vaxt beynəlxalq hüququn subyekti olmayıb, yəni bu separaçı qurumu dünyanın heç bir ölkəsi tanımayıb.

Onların yeganə yolu Bakının təklif etdiyi variantla razılaşmaq, Azərbaycan vətəndaşlığını qəbul etmək idi ki, bundan yararlanmaq Qarabağ ermənilərinin heç də hamısı üçün təhlükəsiz sayılmırdı. Axı onların əksəriyyəti 30 il ərzində Azərbaycan xalqına və dövlətinə qarşı kifayət qədər hərbi və digər ağır cinayətlər törədiblər.

Bütün bunları sadalayandan sonra sözümüzün əvvəlinə qayıdırıq. “Artsax” yoxdur. Erməni nazirlərdən birinin etiraf etdiyi kimi, torpaq yoxdursa, “dövlət” də yoxdur. Hazırda İrəvanda yerləşən Qarabağ separatçılarının nəinki “dövləti”, onun atributları belə iqtidar komandasında qıcıq yaradır. Görünür, ayın sonunda baş qaldıracaqları təqdirdə, Paşinyan onları separatçı ideyaları ilə bir yerdə ölkədən kənara ixrac etmək istiqamətində konkret addımlar atmalı olacaq.

***İmran BƏDİRXANLI***
***XQ***

### Ekspert rəyi



**Rasim MUSABƏYOV, politoloq**

– “Artsax”, yaxud “Dağlıq Qarabağ Respublikası” qondarma qurumlar idi. Artıq bu layihə nə “de-yure”, nə də “de-fakto” mövcuddur. Kimlərsə bu “kartla” yenidən oynamaq istəyirlərsə, nahaq yerə özlərini yorurlar. Guya Qarabağ ernmənilərinin mütəşəkkil, təhlükəsiz şəkildə geriyə dönmələrini kimsə təmin etməlidir. Bunun cəfəngiyyat olduğunu özləri də başa düşürlər. Həmin Qarabağ ermənilərinin böyük bir qismi Azərbaycan xalqına, dövlətinə qarşı cinayət törədiblər. Məhz həmin cinayətin məsuliyyətindən yayınmaq üçün öz xoşları ilə yığışıb Ermənistana köçüblər. İndi görün nə deyirlər: o halda qayıdarıq ki, orada Azərbaycan ordusu, polisi, ümumiyyətlə, Azərbaycanlılar olmasın. Onlar bu məsələni heç müzakirəyə çıxarmaq iqtidarında deyillər.

Söhbət ondan gedir ki, Azərbaycanın müəyyən etdiyi qaydalar çərçivəsində buyurub fərdi şəkildə portalda ərizə ilə müraciət etsinlər. Bütün prosedurlardan keçsinlər və əgər keçmişdə cinayət əməlləri yoxdursa, ya Azərbaycan vətəndaşlığını qəbul etsinlər, ya da gəlib hansısa işi görmək üçün icazə almalıdırlar. Bunun başqa yolu yoxdur. Qayıdış arxivə göndərdiyimiz “artsax”a, “” deyil, yalnız Azərbaycana ola bilər. Düşünürəm ki, bunu özləri də anlayırlar. Sadəcə olaraq, bu “çevrilmiş kartdan” Bakıya təzyiq mexanizmi kimi istifadə etməyə çalışırlar.

İndi bu “kartdan” daha çox daxildə istifadə olunduğu görünür. Deyə bilərik ki, Qarabağ erməniləri separatçılar Sarkisyanın, Koçaryanın ətrafına toplaşırlar. Hayların eks-prezidentləri bu kütlə ilə Nikol Paşinyana qarşı “tarana” getməyi planlayırlar. Məqsəd əllərindən qoparılmış hakimiyyəti geri qaytarmaqdır. Qarabağ ermənilərinin İrəvandakı qərargahı Paşinyan əleyhdarlarının yuvasına çevrilib. Həm də buna görə baş nazir və onun tərəfdarları bu ayın sonlarında gözlənilən “hücum” baş tutarsa, o yuvanı mütləq dağıdacaqlar. Bu, onların daxili işidir.

Azərbaycan üçün “artsax”, “dağlıq Qarabağ” məsələsi bağlanıb. Azərbaycanın siyasi gündəliyində bu adda mövzu yoxdur!

# Macarıstanın təklifi yüksək dəyərləndirilməlidir, amma…

**(əvvəli 1-ci səhifədə)**

Nazir qeyd edib ki, Macarıstan, eyni zamanda, Azərbaycanla strateji əməkdaşlıq qurub və energetika sferasında sıx qarşılıqlı əlaqədədir. “Bu, bizdən iki ölkə arasında sülh müqaviləsinin hazırlanmasını başa çatdırmağa imkan verən mövqedə durmağı tələb edir. Hər iki tərəflə bu yaxınlarda apardığım danışıqlar zamanı sülh müqaviləsinin imzalanması üçün məkan kimi Budapeştin seçilməsi variantını təklif etdim”, – deyə macar nazir bildirib.

Əlbəttə, macarıstanlı nazirin təşəbbüsü xoşməramlı, rəsmi Budapeştin sülh danışıqlarının müsbət istiqamətdə getməsinin, intensivləşməsinin tərəfdarı olduğunun göstəricisi sayılsa da, qeyd etmək lazımdır ki, hələlik saziş layihəsi üzərində işi tam yekunlaşdırmaq mümkün olmayıb. Doğrudur, prosesdə müəyyən dinamika var. Amma hələ də fikir ayrılığına səbəb olan əsas məsələ – Ermənistan konstitusiyasından Azərbaycana ərazi iddialarını özündə ehtiva edən müstəqillik bəyannaməsinə istinad çıxarılmayıb. Ermənistan tərəfi konstitusiya dəyişikliyi ilə bağlı referendumun 2027-ci ildə keçiriləcəyini bəyan edib. Bu isə sülh danışıqlarını uzatmaq istəyindən xəbər verir.

Bir neçə gün öncə – sentyabrın 6-da “Dünya, Avropa və İtaliya haqqında bilgilər” mövzusuna həsr olunmuş Beynəlxalq Çernobbio Forumunda “Yeni geosiyasi şəraitdə Azərbaycanın rolu” adlı sessiyada çıxış edən Prezident İlham Əliyev bildirmişdi ki, Sovet İttifaqının süqutundan sonra ilk dəfədir ki, biz Cənubi Qafqazda sülhə nail ola bilərik: “Bu mümkündür – Azərbaycan və Ermənistan arasında sülh danışıqları çərçivəsində baş verən hadisələr, sülh müqaviləsinin bəndlərinin təqribən 80 faizinin razılaşdırılması, sərhədin delimitasiyası prosesinin başlanması və hətta kiçik addım hesab oluna bilən 13 kilometrlik hissəsinin demarkasiyasının – halbuki sərhədin uzunluğu 1000 kilometrdən artıqdır – özü belə düzgün istiqamətdə atılan addımlardır. Beləliklə, biz ümid edirik ki, sülh danışıqlarının başlanmasına dair Azərbaycanın təşəbbüsü sülh sazişinin imzalanması ilə nəticələnəcək. Bu isə təkcə Cənubi Qafqaz deyil, dünyanın bütün regionları üçün əhəmiyyətli olacaqdır. Bu, 30 il ərzində münaqişədə olmuş iki ölkənin birgə çalışaraq sülhə nail olmasının nümunəsi ola bilər. Baxmayaraq ki, burada işğaldan əziyyət çəkmiş və ərazisinin təqribən 20 faizinin tamamilə dağıdıldığı ölkə məhz Azərbaycandır”.

Ermənistanın baş naziri isə sentyabrın 10-da “İrəvan dialoqu” beynəlxalq forumunda çıxışı zamanı deyib: “Bir neçə illik danışıqların nəticəsi olaraq artıq qoyulmuş bünövrədən imtina etməmək çox vacibdir. Ümid edirəm ki, yaxın gələcəkdə bizim sülh müqaviləsinin razılaşdırılmış hissəsini imzalamaq və gələcək məsələlərin həlli üçün qalan danışıqlara keçmək imkanımız olacaq. Bu baxımdan biz təklif edirik ki, hazırda razılaşdırılan bəndləri imzalayq, fundamental sənədimiz olsun. Sonra qalan məsələlər üzrə müzakirələr davam etdirilsin”.

Bundan bir neçə gün öncə isə Ermənistan xarici işlər naziri Ararat Mirzoyan iki ölkənin sülh sazişi layihəsinin 16 maddəsinin 13-ü üzrə tam razılığa gəldiyini bildirib. Onun sözlərinə görə, sazişin tezliklə imzalanması üçün real şans var: “Layihədə 16 maddə mövcuddur, onlardan 13-ü tam, 3-ü qismən razılaşdırılıb”.

Öz növbəsində Azərbaycan Xarici İşlər Nazirliyinin mətbuat katibi Ayxan Hacızadə bildirib ki, N.Paşinyanın çıxışı zamanı həm sülh sazişi layihəsi, həm də ümumilikdə, 10 noyabr tarixli üçtərəfli Bəyanatla bağlı səsləndirdiyi iddialar reallıqların açıq-aşkar təhrif olunmasıdır. Onun sözlərinə görə, Ermənistan rəsmilərinin sülh sazişi layihəsini razılaşdırılmamış müddəalar çıxarılmaqla imzalanması çağırışı, bununla ikitərəfli münasibətlərdə mövcud problemlərin həllini növbəti mərhələyə saxlamaq cəhdləri qəbuledilməzdir. XİN bir daha xatırladıb ki, Ermənistan tərəfinin sülh sazişi layihəsini hansı formada imzalamaq niyyətindən asılı olmayaraq, Azərbaycanla Ermənistan arasında real və davamlı sülh müqaviləsinin imzalanması üçün əsas şərt başda “Ermənistan və Dağlıq Qarabağın birləşməsi”nə çağıran müstəqillik bəyannaməsinə açıq şəkildə istinad edən Ermənistan konstitusiyası olmaqla, bu ölkənin çoxsaylı hüquqi və siyasi sənədlərində təsbit edilmiş ölkəmizə qarşı davam edən ərazi iddialarına son qoyulmasıdır.

Göründüyü kimi, Ermənistan və Azərbaycan arasında hələ də həllini gözləyən ciddi məsələlər var. O cümlədən hayların əsas qanunu sülhün yaranmasına böyük maneədir. Belə bir vəziyyətdə əsas məsələ prosesdə nəticə əldə etmək, o cümlədən danışıqların dalana dirənməsinin qarşısını almaqdır. Macarıstan XİN başçısının təklifi isə danışıqlar prosesinə əlavə impuls verilməsi, tərəflərə edilən müsbət jest kimi dəyərləndirilməlidir. Ümumiyyətlə isə




Azərbaycanın müttəfiqi, Türk Dövlətləri Təşkilatının müşahidəçi üzvü olan Macarıstanın paytaxtında sülh sazişinin imzalanması ölkəmiz üçün məqbuldur. Yeri gəlmişkən qeyd edək ki, Macarıstan müşahidəçi üzv olmasına baxmayaraq, TDT-də çox fəal mövqe tutur. Budapeşt şəhərində TDT nümayəndəliyi də aktiv fəaliyyət göstərir.

Onu da qeyd edək ki, Ermənistanın “Armenian Report” saytı macar nazirin təşəbbüsünə, ümumiyyətlə onun İrəvana səfər etməsinə kəskin reaksiya verib. Saytda yerləşdirilmiş “Sizin özünüzə hörmətiniz hardadır, cənab Paşinyan və Mirzoyan?” sərlövhəli məqalədə Macarıstan “anti-erməni qüvvə” kimi qələmə verilir: “Biz ermənilər son illərdə özümüzə hörmət səviyyəsini çox aşağı salmışıq. Biz özümüzə hörmət etməyi unutmuşuq, amma başqalarından bizə hörmət etməyi tələb edirik. Biz hər şeyə razılaşmağa və hər şeyə dözməyə hazırıq, sadəcə başımıza sığal çəksinlər.

Beləliklə, görünür, bizim rəsmi şəxslər Avropanın ən anti-erməni ölkəsi olan bir dövlətinin başımıza sığal çəkməsinə imkan yaratmaq istəyirlər. Söhbət Macarıstandan gedir. Onun xarici işlər naziri Peter Siyarto sentyabrın 10-da İrəvana gəlib. Məgər, Avropa İttifaqının Sülh Fondundan Ermənistana dəstək layihəsini əngəlləmək üçün əlindən gələni edən Macarıstan deyilmi? Bütün Aİ ölkələri Ermənistana yardım göstərməyə razıdırlar və yalnız Macarıstan bunun qəti əleyhinədir. Eyni zamanda, iyunda həmin Siyarto bəyan etdi ki, əgər Ermənistana Sülh Fondundan 10 milyon dollar yardım göstərilsə, o zaman eyni yardım Azərbaycana da göstərilməlidir. İndi isə İrəvanda ona qucaq açıblar”.

**Mövzu ilə bağlı “XQ”-yə açıqlama verən “Atlas” Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Elxan Şahinoğlunun fikrincə,** bu gün əsas məsələ sülh sazişinin harada, hansı ölkədə, hansı paytaxtda imzalanması deyil, ümumiyyətlə, sazişin



mətninin razılaşdırılmasıdır. Hər iki tərəf mətnin çox hissəsinin artıq razılaşdırıldığı qənaətindədir: “Azərbaycan Prezidenti İlham Əliyev sentyabrın 6-da mətnin 80 faizinin razılaşdırıldığını bildirmişdi. Ermənistan baş naziri Nikol Paşinyan isə sentyabrın 10-da bu fikri təsdiq edərək sazişin 16 bəndinin 13-nün razılaşdırıldığını, tərəflərin digər 3 bənd üzrə razılığa yaxın olduğunu deyib. Əsas məsələ Ermənistan konstitusiyasında Azərbaycana ərazi iddiasını ehtiva edən preambula hissəsinin çıxarılmasıdır. Bunun üçün heç referenduma da ehtiyac yoxdur. Çünki ötən əsrin 90-cı illərinin əvvəllərində Ermənistan bizim torpaqlarımızı işğal edəndə həmin müddəanı konstitusiyaya referendum keçirmədən – parlamentdə baş tutan səsvermədə sadə səs çoxluğu ilə daxil etmişdilər. Nikol Paşinyanın partiyası hazırda parlamentdə böyük çoxluğa malikdir. İstəsələr parlament çox qısa müddətdə bu məsələni həll edə bilər. Bu isə öz növbəsində sülh sazişinin imzalanmasını sürətləndirər”.

E.Şahinoğlu qeyd etdi ki, bundan sonra sülh sazişinin harada imzalanması əsas müzakirə predmeti ola bilər: “Əslində, hesab edirəm ki, sülh sazişini sərhəddə də imzalamaq olar. Bu, daha münasib variantlardan biridir. Çünki birbaşa danışıqlar gedir. Müəyyən uğurlu nəticələr var. Sərhədin müəyyən hissəsi delimitasiya və demarkasiya olunub. Xarici işlər nazirlərinin ünsiyyət qurmasında hansısa bir problem yoxdur. Ona görə də hesab edirəm ki, Ermənistan konstitusiya dəyişikiliyi ilə bağlı gərəkli addım atarsa, liderlər sülh sazişini imzalaya bilərlər”.

Müsahibimiz qeyd etdi ki, yox, əgər sazişin imzalanması üçün hansısa ölkəyə ehtiyac varsa, bu, neytral ölkə olmalıdır: “Məsələn, mən sazişin Rusiyada imzalanmasını doğru hesab etmirəm. Çünki bu zaman Rusiya sülh sazişi vasitəsilə tərəflərə təzyiq etməyə çalışacaq. Məncə, ABŞ variantı da istisna olunmalıdır. Amma Budapeştdə imzalana bilər. Macarıstanın Azərbaycan və Ermənistanla münasibətləri var. Həmçinin, qonşu Gürcüstanda da imzalana bilər. Bu, daha məqbul variantdır. Çünki sülh sazişinin imzalanmasından sonra “Ümumqafqaz evi” ideyasının reallaşdırılmasına başlanıla bilər. Prezident İlham Əliyev də çıxışlarında bu ideyaya müsbət yanaşdığını bildirib. Yaxud, Qazaxıstanda – Astanada imzalanması mümkündür. Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayevin sazişin Astanada imzalanması ilə bağlı Bakı və İrəvana təklifi var”.

Mərkəz rəhbəri sonda bir daha qeyd etdi ki, əsas məsələ sülh sazişinin mətninin razılaşdırılmasıdır. Mətn razılaşdırıldıqdan sonra məkanın, yerin müəyyənləşməsi elə böyük əhəmiyyət kəsb etməyəcək.

***Səxavət HƏMİD***
***XQ***

# Paşinyanın “yarımçıq sülh” məntiqi

## İrəvanın anti-Moskva ritorikasında yeni həyasızlıq elementləri

**Ermənistanın “Vətəndaş sazişi” partiyasının parlament fraksiyasının katibi Artur Hovannisyanın Bakı–İrəvan sülh prosesi ilə bağlı bildirdiklərinə əvvəl pozitiv məcradan yanaşmağın mümkünlüyü barədə düşündük. Eyni zamanda, Hovannisyanın baş nazir Nikol Paşinyan tərəfindən səslənmiş fikrə Azərbaycanın reaksiyasını şərh etməsi maraqlı gəldi. Maraq kontekstindəki müsbət gözləntilərimiz isə özünü qətiyyən doğrultmadı. Bunun ən bariz sübutu ilə yazının son bölümündə tanış olacaq və biləcəksiniz ki, Ermənistanın anti-sülh ritorikasında tamamilə yeni seqment var. Əlbəttə ki, söhbət həyasızlıq seqmentindən gedir.**



Məlum olduğu kimi, baş nazir N.Paşinyan “Yerevan dialoqu” forumundakı çıxışında Azərbaycan–Ermənistan sülh prosesi ilə bağlı bir çox cəhətlərə toxunub. Onlardan biri də budur: Sülh sazişi yalnız razılaşdırılmış məqamlar əsasında, yəni razılaşdırılmayanlar gündəlikdən çıxarılmaqla imzalansın, digər məsələlərin həlli gələcəyə saxlanılsın. O da məlumdur ki, Azərbaycan Xarici İşlər Nazirliyi belə yanaşmanın yolverilməzliyini açıqlayıb. Nazirliyin mətbuat katibi Ayxan Hacızadə bildirib ki, Ermənistan tərəfinin sülh sazişi layihəsini hansı formada imzalamaq niyyətindən asılı olmayaraq, real və davamlı sülh müqaviləsi baxımından əsas şərt var – başda “Ermənistan və Dağlıq Qarabağın birləşməsi”nə çağıran Müstəqillik aktına açıq şəkildə istinad edən Ermənistan konstitusiyası olmaqla, bu ölkənin çoxsaylı hüquqi və siyasi sənədlərində yer almış Azərbaycana qarşı ərazi iddialarına son qoyulması.

Qeyd edək ki, Bakı–İrəvan sülh müqaviləsi layihəsində “heç bir tərəf sülh sazişi çərçivəsində öhdəliklərini yerinə yetirməməsi ilə əlaqədar öz daxili qanunvericiliyinə istinad edə bilməz” müddəası yer alıb. A.Hacızadənin bildirdiyinə görə, Paşinyanın bu müddəaya əsaslanması və Ermənistan konstitusiyasındakı maddələrin zərərli olmadığını bildirməsi qeyri-məqbuldur. Ölkəmizin XİN rəsmisi digər bir çox cəhətlərdən də söz açıb ki, onların hamısının üzərində dayanmaq mümkündür.

Amma başlıca məsələ budur ki, N.Paşinyan, faktiki olaraq, Ermənistanın 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanata əsasən üzərinə düşən əsas öhdəliyi yerinə yetirmək istəmədiyini vurğulayır. Yəni, Azərbaycanın digər ərazilərini Naxçıvanla birləşdirən yolla razılaşmır. Daha doğrusu, razılaşmadığını bir daha ortaya qoyur, ölkəsinin ərazi bütövlüyü və suverenliyi amilini qabardır.

Bu yerdə Azərbaycan və Rusiya liderləri ilə yanaşı, Nikolun da imzasının yer aldığı üçtərəfli bəyanatın 9-cu bəndini diqqətə çatdıraq: “Bölgədəki bütün iqtisadi və nəqliyyat əlaqələri bərpa edilir. Ermənistan Respublikası vətəndaşların, nəqliyyat vasitələrinin və yüklərin hər iki istiqamətdə maneəsiz hərəkətinin təşkili məqsədilə Azərbaycan Respublikasının qərb rayonları və Naxçıvan Muxtar Respublikası arasında nəqliyyat əlaqəsinin təhlükəsizliyinə zəmanət verir. Nəqliyyat əlaqəsi üzrə nəzarəti Rusiyanın Federal Təhlükəsizlik Xidmətinin sərhəd xidmətinin orqanları həyata keçirirlər. Tərəflərin razılığı əsasında Naxçıvan Muxtar Respublikası ilə Azərbaycanın qərb rayonlarını birləşdirən yeni nəqliyyat kommunikasiyalarının inşası təmin ediləcək”.

Bəli, “maneəsiz hərəkətin təşkili”. Yəni, söhbət ölkəmizin Naxçıvana yol məsələsində irəli sürdüyü “Azərbaycandan Azərbaycana yol” məntiqindən gedir. Rəsmi Bakı ərazidə hansısa sərhəd və gömrük nəzarətinin olmamasını tələb edir. Ermənistanın haqqında söz açdığımız ərazi bütövlüyü və suverenlik faktoru məhz buna qarşıdır. Əlbəttə, rəsmi İrəvan “Nəqliyyat əlaqəsi üzrə nəzarəti Rusiyanın Federal Təhlükəsizlik Xidmətinin sərhəd xidmətinin orqanları həyata keçirirlər” müddəasını da özünün dövlət prinsiplərinə zidd sayır. Təsəvvür edin, Ermənistanın Türkiyə və İranla sərhədlərini rus hərbçiləri qoruyurlar. İndi Nikol və komandası ərazi bütövlüyü və suverenlikdən dəm vurur. Bu, azmış kimi, ölkəmizi qeyri-konstruktivlikdə qınayır. Qınayanlardan biri də adını çəkdiyimiz A.Hovannisyandır.

A.Hovannisyan deyir ki, Azərbaycanla danışıqlar prosesi rəvan getmir və vəziyyətin bu şəkildə inkişaf edəcəyi əvvəldən bəlli idi. Proses zamanı problemlərin yarandığını və bir sıra razılaşdırılmamış fraqmentlərin mövcudluğunu, lakin sülh müqaviləsinin əksər bəndlərinin razılaşdırıldığını, daha bir neçə məqamın isə qismən razılaşdırıldığını vurğulayan partiya funksioneri, eyni zamanda, rəsmi Bakını tez-tez konstruktiv və mehriban qonşuluqdan uzaq bəyanatlar səsləndirməkdə ittiham edib. Necə deyərlər, köhnə hamam, köhnə tas. Əslində, N.Paşinyan da “Yerevan Dialoqu” forumunda Azərbaycanı günahlandırmağa köklənmişdi. Hovannisyan isə mövcud xüsusdakı konkret predmeti açıqlayır. Özü də son dərəcə həyasız formada. Fikrimizi əsaslandırmaq üçün bir məqama da diqqət yetirək.

Məlumdur ki, 2020-ci ildən başlanmış sülh prosesi kontekstində Ermənistan rəsmiləri çox tez-tez bildirirdilər ki, Azərbaycanla danışıqların vasitəçilərsiz aparılması mümkünsüzdür. Onların sözlərinə görə, guya, rəsmi Bakı proses çərçivəsindəki razılaşmaları pozmaq potensialına malikdir, beynəlxalq vasitəçilər bunun baş verməsinin qarşısını alacaq, münasibətlərin nizamlamasını, bir növ, fiksasiya edəcəklər. O da aydın idi ki, rəsmi İrəvan tərəfindən səslənmiş bu tezis manipulyasiya xarakteri daşıyır. Məsələn, Paşinyanın Qarabağ da daxil olmaqla, Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini tanıdığını bildirməsi 2022-ci ildə Praqada Avropa İttifaqı Şurasının rəhbəri Şarl Mişelin gözləri qarşısında yaşanmışdı. Lakin bundan ötən bir il ərzində Qarabağda qeyri-qanuni erməni silahlı birləşmələri qaldı. Yəni, Ş.Mişelin fiksasiyası əhəmiyyət daşımadı və ölkəmizin güc tətbiqi işə yaradı.

Digər tərəfdən, vasitəçilik özü beynəlxalq rəqabətə çevrilməyə başladı ki, bu istiqamətdəki spekulyasiyaları Ermənistan rəhbərliyi həyata keçirdi və Rusiyanın sülh təşəbbüslərini Qərbin təkliflərinə dəyişdi. Əslində, Qərbin Cənubi Qafqazda möhkəmlənməsinə çalışdı və bu gün də eyni “ampluadadır”. Azərbaycan isə vəziyyətin xoşagəlməz şəkil almasını görüb birbaşa danışıqlar təklifini irəli sürdü və rəsmi İrəvan zaman-zaman müqavimət göstərsə də, yekunda təkliflə razılaşmaq məcburiyyətində qaldı. Təcrübə ikitərəfli danışıqlar formatının uğurlu olduğunu təsdiqlədi. Ən qəribəsi isə odur ki, hazırda Ermənistan Azərbaycanı nizamlama prosesinə üçüncü tərəfi qoşmaqda günahlandırır. Hovannisyanın daha bir həyasızlığı elə budur.

Rəsmi İrəvanın, guya, sülhün təşviqi ilə bağlı yanaşmalarından söz açan, məsələdə beynəlxalq tərəfdaşlarla əməkdaşlıqdan danışan erməni parlamentarinin fikirlərində, müəyyən mənada, pozitiv sayılacaq bir məqam var. Belə ki, Hovannisyan Bakının kəskin bəyanatlar səsləndirməsinə baxmayaraq, danışıqlarda uğurların əldə edildiyini vurğulayır: “Ona görə də gəlin, Bakının son bəyanatını (A. Hacızadənin mövqeyini – red.) danışıqların dalana dirənməsinin sübutu hesab etməyək. Əvvəllər dalana dirənmiş vəziyyət təəssüratı yaranan hallar olub. Lakin sonradan durum yumşalıb. İndi biz də bu yolla getməliyik”.

Reallıq ondadır ki, Azərbaycan kəskin bəyanatlar səsləndirməyəndə, Ermənistandan heç bir tərpəniş olmur. Necə deyərlər, ilan ulduz görməsə ölmür. Yaxşı olar ki, Hovannisyan məhz bunu əsas götürsün. Bəs erməni parlamentarinin “üçüncü tərəf” məntiqi nədən ibarətdir? Əlbəttə ki, diqqət Rusiya üzərinə yönəlir. Guya ki, Moskva Bakı–İrəvan ikitərəfli dialoquna mane olur. Deyəsən, təkcə Hovannisyan deyil, erməni siyasi hakimiyyətinin təmsilçiləri 44 günlük müharibə dönəmində Paşinyanın Rusiya Prezidenti Vladimir Putinə yalvarmalarını yaddan çıxarıblar.

Yaddan çıxarıblar ki, Ermənistan üçün daha acınacaqlı sonluq vəd edən savaşı dayandıran, faktiki olaraq, ölkəni Azərbaycanın əlindən qurtaran hansısa Qərb ölkəsi yox, məhz Rusiya olub. Yəni, hər bir halda, rəsmi İrəvan Kremli nəzərə almalıdır. Bakı da nəzərə alır. O mənada ki, Rusiya savaşı dayandırmaqla, Ermənistanın öz öhdəliklərinə əməl etməsinə dair zəmanət götürüb. Təəssüf ki, 2020-ci ildən ötən müddətdə Rusiyanın da zəmanət öhdəliklərinə tam əməl etmədiyini gördük. Bir halda ki, Qarabağa səpələnmiş erməni silahlı birləşmələrini özümüz qovduq, qan töküb şəhid verdik, başqa nə deyək?..

Ancaq Azərbaycan prinsiplərə sadiqdir. Eləcə də 10 noyabr 2020-ci il tarixli üçtərəfli bəyanata. Ona görə də sənədin tam şəkildə icrasını tələb edir. Ölkəmiz burada Rusiyanın xidmətlərini inkar etmir ki, bu, tam anlaşılandır. Rəsmi Bakı prinsiplərinə həm də ona görə sadiqdir ki, ölkəmiz ötən müddətdə Qərbin sülhyaratma missiyasının mahiyyətcə yekun nöqtəyə gətirmədiyini, erməni avantürizminə xidmət etdiyini gördü. Sözümüz ondadır ki, İrəvanın danışıqlara üçüncü tərəfin cəlbi ritorikasını qabartması mənasızdır. Çünki Rusiyaya “üçüncü tərəf” prizmasından yanaşılması yolverilməzdir. Başqa məqamlar bir yana, Moskvanın leqal tərəf statusunu təsdiqləyən N.Paşinyanın imzasıdır. Ermənistanın zaman-zaman üstünlük verdiyi və ehkamlaşdırdığı Qərb vasitəçiliyi xəttində isə nəyinsə konkret imza ilə təsdiqlənməsi məntiqi yoxdur.

Əlqərəz, A.Hovvanisyan region-da başqa maraqları olan digər regional ölkələrin Bakı–İrəvan dialoquna müdaxilə etdiyini vurğulayır. Heç şübhəsiz, Rusiyanı nəzərdə tutur. Demək istəyir ki, Bakı Moskvanın maraqlarına xidmət edən fərqli ritorikaya əl atır ki, bu da danışıqların normal gedişinə əngəl yaradır. Sanki Rusiya olmasaydı, Azərbaycan Naxçıvana yol məsələsində Ermənistanın hazırda məqbul saydığı formulu qəbul edəcəkdi.

Belə bir halın yaşanmayacağı gün kimi aydındır. Həm də ona görə ki, keçmişin acı təcrübəsi var. Ölkəmiz Bakıdan Naxçıvana və əks istiqamətə hərəkət edən qatarların Meğri ərazində daşa basıldığını unutmayıb. Nə indiki, nə də gələcək erməni rəhbərliyi oxşar halın yaşanmayacağına təminat verə bilər. Nəzərə alsaq ki, hazırda Naxçıvana yol daha qlobal marşrut sayılır, o zaman Azərbaycan nə üçün heç bir avantürizmindən əl çəkməyən, konstitusiyasında və qanunlarında qonşulara qarşı ərazi iddiasını saxlayan Ermənistanın təminatına etibar etməlidir? Yəni, sülh müstəvisindəki bütün məsələlər bir-biri ilə bağlıdır. Elə məhz bu səbəbdən də Paşinyanın razılaşdırılmış müddəalar üzrə barış sazişinin imzalanması istəyi mümkünsüzdür. Axı sülh fundamental xassəyə malik olmalı, səmimiyyətə əsaslanmalı, İrəvanın vaxt udmaq niyyətinə yer olmamalıdır.

Əvvəldə vurğulamışdıq ki, Ermənistanın anti-sülh ritorikasına tamamilə yeni seqment, daha dəqiq desək, unikal həyasızlıq əlavə edilib. İndiyədək heç bir erməni rəsmisinin, yaxud siyasətçisinin sərsəmləmə bazasında olmayan həyasızlıq. Sonda bu barədə bir qədər ətraflı söz açaq.

A.Hovannisyan İranın “Zəngəzur dəhlizi” məsələsində özünü qabarıq göstərən etirazları fonunda vurğulayıb ki, ekstra-territorial dəhliz məsələsi heç vaxt gündəmdə olmayıb. Yəni, bu, o deməkdir ki, Tehran rəsmilərinin nə cür fikir bildirmələrindən, sərt reaksiyalarından asılı olmayaraq, rəsmi İrəvanın özü təkbaşına “Zəngəzur dəhlizi”nə qarşıdır. Ən başlıcası isə erməni parlamentari bu dəfə ad çəkərək, Rusiyanın sözügedən dəhlizdə marağından danışır və bildirir: “Əgər kiminsə gündəliyində Ermənistanın İttifaq dövlətinin bir hissəsinə çevrilməsi məsələsi varsa, bu, onların problemidir. Əgər bu məsələ Rusiyanın gündəmindədirsə, bu, heç də o demək deyil ki, bizim gündəmimizdədir”.

Bəli, “Zəngəzur dəhlizi”ni Rusiyanın İttifaq dövləti məntiqi ilə əlaqələndirmək qalmışdı ki, erməni tərəfi həyasızlığın bu pilləsinə də baş vurdu. Hesab edirik ki, belə bir yaramaz tezis Ermənistanın Azərbaycanla sülhdən yayınmaq yönümlü dəst-xəttində tam yenilikdir və heç şübhəsiz, İrəvanın anti-sülh mahiyyətli baxışlarının tərkib hissəsi olaraq tirajlanacaq. Bütün bunların, səmimiyyətdən uzaq, spekulyasiyalara və manipulyasiyalara hesablanmış gedişlərin isə Azərbaycan və Ermənistan arasındakı normallaşma prosesinə xələl gətirdiyi, ümumən, Cənubi Qafqazda gərginliyi saxladığı şübhəsizdir.

***Ə.CAHANGİROĞLU***
***XQ***

# Ermənistanın anti-Rusiya siyasətinin təhsil xətti

## Yaxud “oturduğu budağı kəsmək” mərəzi

**Ermənistandakı anti-Rusiya ab-havasının özünü sözdə deyil, əməli tədbirlərdə göstərdiyi ən mühüm sahə təhsildir. Belə ki, ölkənin orta məktəb kurikulumunda rus dilinin tədrisi kəskin şəkildə azaldılıb. Mövcud istiqamətdəki ən mühüm tədbirlərdən biri də Ermənistanın Təhsil, Elm, Mədəniyyət və İdman Nazirliyi tərəfindən həyata keçirilməkdədir. Nazirliyin təzəcə dərc etdiyi sirkulyara görə, yeni dərs ilindən rus dili fənninin məktəblər üçün məcburiliyi dayandırılıb.**



Qeyd edək ki, yeniliyə görə, orta məktəblərdə rus dili cəmi dörd il icbari olacaq. Daha dəqiq desək, 4, 9, 10 və 11-ci siniflərdə. Qalan siniflərdə isə şagirdlər onu yalnız xarici dil kimi seçə biləcəklər. Hələlik kurikulumun necə tərtib ediləcəyi ilə bağlı seçim məktəblərin özünün ixtiyarındadır. Lakin ekspertlər artıq hesab edirlər ki, yenilik gələcəkdə rus dilinin orta təhsil müəssisələrindən tədricən sıxışdırılmasına, yekunda tamamilə çıxarılmasına səbəb olacaq.

Onu da bildirək ki, Janna Andreasyanın rəhbərlik etdiyi Ermənistanın Təhsil, Elm, Mədəniyyət və İdman Nazirliyi son vaxtlar davamlı anti-Rusiya təşəbbüslərinə imza atır və qurumun tədbirləri cəmiyyətdə söz-söhbətlər, o cümlədən, qalmaqallar doğurur. Məsələn, nazirlik “Erməni tarixi” fənninin adını “Ermənistan tarixi” adlandırıb. Ölkənin şovinist dairələri bu adlandırmanın ümumi kontekstdən və məzmundan kənar mahiyyət daşıdığını vurğulayırlar. İctimai rezonansın motivi də elə budur.

Ən başlıca narazılıq doğuran məqamlardan biri də məktəb dərslikləri proqramından “Erməni apostol kilsəsinin tarixi” fənninin ümumiyyətlə çıxarılmasıdır. Ermənistanda hələ də ciddi təsirə malik kilsə amilinin mövcudluğundan, bu dəyişiklik də bir növ süngü ilə qarşılanmaqdadır. Ancaq görünür, erməni iqtidarının anti-kilsə köklənişi daha güclüdür və məsələyə heç bir əhəmiyyət verilmir. Əksinə, hazırda Ermənistanda kilsənin və din xadimlərinin açıq söyüşlərlə, aşağılayıcı ifadələrlə təhqiri adi hal alıb. Hətta, ölkədə dini diskriminasiyanın da həyata keçirildiyini söyləmək mümkündür. Axı Erməni apostol kilsəsinin, ümumən din amilinin Rusiya ilə bağlılıq faktoru var.

Əlqərəz, erməni hakim dairələrinin anti-Rusiya təmayülü məsələsində özünü təhsil sistemində göstərən daha bir “yeniliyi” isə Rusiyanın Ermənistanın işğalında ittiham olunmasıdır. Belə ki, bu cəfəngiyyat orta məktəblərin yeni tarix dərsliklərinə salınıb. Məlum olduğu kimi, məsələyə Rusiyanın Xarici İşlər Nazirliyi də reaksiya verib. Nazirlik reaksiya ritorikasında, sadəcə, tarixi yada salıb. O tarixi ki, orada Qafqazın erməni varlığının çar Rusiyası tərəfindən formalaşdırıldığı gerçəyi var. Məlumdur ki, ermənilərin bölgəyə köçürülmələrinə 1830–cu ildən sonra, daha dəqiq desək, 1826–1828-ci illərin Rus–İran müharibəsindən sonra başlanılmış və nəticə etibarilə Cənubi Qafqazda erməni vilayəti yaradılmışdı. Zamanla onun ərazisi qonşu xalqların əraziləri hesabına böyüdülmüş, nəhayət 1918-ci ildə həmin vilayət dövlətə çevrilmişdi. Dövlətin tarixi Azərbaycan, yəni türk torpaqlarında təşəkkül tapması da danılmaz faktdır. Deməli, Rusiya XİN-in etirazı tam haqlıdır.

Bir məqamı da vurğulayaq. Deməli, bəzi erməni siyasi və ictimai xadimləri ölkənin orta məktəb, yəni tarix dərsliklərində ermənı yer adlarının türk adları ilə əvəz olunduğunu da vurğulayır və təhsil siyasətini həyata keçirən dövlət qurumunu məhz bu səbəbdən də qınayırlar. Yada salaq ki, qınaq tədbirlərindən ən yaddaqalanı bir müddət əvvəl Təhsil, Elm, Mədəniyyət və İdman Nazirliyi qarşısında keçirilmiş davamlı piketlər idi. Ancaq həmin piketlərin heç bir nəticəsi olmamış, dəyişiklik qüvvəsində qalmışdı.

Ermənistanın siyasi ekspertləri ölkənin təhsil sistemi ilə bağlı sadaladığımız yenilikləri və tendensiyaların təəccüblü olmadığını vurğulayırlar. Onlar düşüncələrini nazir Andreasyanın baş nazir Nikol Paşinyanın komandasının digər üzvləri kimi, Açıq Cəmiyyət İnstitutu – Soros Fondunun ekspertlər qrupundan çıxması ilə əsaslandırırlar. Narazılığa köklənmiş bu şəxslər bildirirlər ki, Andreasyan hələ 2018-ci ildən əvvəl Soros Fondunun ermənilərə LGBT və dini azlıqlar haqqında məlumat verən təhsil layihələrində iştirak edib. Onlar, həmçinin hazırda şübhəli keçmişə və təcrübəyə malik rəsmilərin Ermənistanın suverenliyini sarsıdan bütöv idarələrə rəhbərliyi həyata keçirmələrinə görə hiddətlərini gizlətmirlər.

Sonda bir daha anti-Rusiya təmayülü barədə. Erməni ekspertlər onu da bildirirlər ki, dil problemini “həll etmək” cəhdi Qərb agenturasının keçmiş sovet respublikaları ilə Rusiya arasında mədəni əlaqələri kəsmək üçün postsovet məkanında gerçəkləşdirdiyi ənənəvi kursdur. Ancaq onlar Ermənistan məsələsində bir haqlı məqamı da qabardır və deyirlər ki, hazırda ölkənin iqtisadiyyatı Rusiyadan çox asılıdır. Rəsmi İrəvanı anti-Rusiya yönümlü siyasət aparmağa təhrik edən Qərb isə bu siyasətdəki real seqmentə, yəni iqtisadiyyata heç bir tutarlı investisiya yatırmır. Nəticə etibarilə, Moskvadan iqtisadi asılılığın aradan qaldırılması mümkün olmur. Belə olan halda sual yaranır: Rəsmi İrəvanın anti-Rusiya siyasətinin təhsil seqmenti aktiv olacaqsa, müvafiq şəkildə rus dili sıxışdırılacaqsa, Ermənistan Rusiyaya bağlı iqtisadiyyatında necə təmsil olunacaq? Yaxud, ümumiyyətlə, təmsil oluna biləcəkmi? Axı təmsilçilik üçün dil bilgisi mütləqdir. Amma hər sahədə dövlətin mənafelərini nəzərə almayan, strateji düşünmək imkanından məhrum Paşinyan və onun iflic komandası üçün diqqətə çatdırdığımız sualların heç bir əhəmiyyəti yoxdur. Nə deyək, heç olmasın. Ağacın üstündə oturduqları budağını kəssinlər.

***Ə.RÜSTƏMOV***
***XQ***




# Liderin sözü və əməli

## *Tarixi Çernobbio bəyanatı kontekstində*

> ***Əgər şərəf və sağlam düşüncəyə zidd deyilsə, heç zaman təslim olmayın.***
> **Uinston Çörçill**

### II məqalə

**Müasir mərhələdə müstəqillik yoluna yeni qədəm qoymuş dövlətin uğur qazanması çətin prosesdir. Xüsusilə, mürəkkəb geosiyasi regionda yerləşən dövlətin qarşısına müxtəlif əngəllər çıxarılır. Prezident İlham Əliyevin İtaliyaya son səfəri prizmasında bu məsələ Azərbaycan dövlətçiliyi baxımından daha çox aktuallıq kəsb etməkdədir. Müxtəlif aspektlərdə bu mövzunu araşdırmaq olar. Bizim üçün Prezident İlham Əliyevin həyata keçirdiyi siyasi kursun ümumi mahiyyəti kontekstində İtaliyaya olan səfərləri ayrıca əhəmiyyət daşıyır. Bunların fonunda məsələyə daha geniş aspektdə yanaşmağın vacibliyini görmək olar.**

### Regionlararası "şəbəkə diplomatiyası"

Azərbaycan Prezidentinin son İtaliya səfərinə, bütövlükdə, xarici siyasətin ümumi xarakteri işığında baxmaq lazımdır. Çünki İlham Əliyevin hər bir siyasi-diplomatik gedişi sistemli və ardıcıl kursun reallaşması kontekstində olur. Politologiyada XXI əsrdə yeni diplomatiya üsullarından çox bəhs edilir. Onların sırasında "şəbəkə diplomatiyası" adlanan bir üsul da vardır. Bu termindən hər kəs istifadə etməyə bilər. Bizim üçün onun politoloji məzmunu önəmlidir.

"Şəbəkə diplomatiyası" xarici siyasətdə çoxistiqamətliliyin və mürəkkəb geosiyasi dinamikanın fonunda müstəqil dövlətin iki aspektdə çevik və nəticəverici xətti həyata keçirməsini nəzərdə tutur. Bu zaman mühüm şərt diplomatik müstəvidə həm dövlətlərlə, həm də regional və beynəlxalq təşkilarlara münasibətlərdə "şəbəkə prinsipini" gözləmək lazım gəlir. Yəni konkret bir dövlət xarici siyasətdə dövlətlər qrupuna və münasibət qurduğu regional və beynəlxalq təşkilatlara sistemlilikdən daha mütəhərrik olan şəbəkə kimi yanaşa bilir.

Bundan başqa, şəbəkə diplomatiyası üçün çoxistiqamətliliklə mürəkkəb geosiyasi dinamika beynəlxalq miqyasda çoxaspektli əlaqələr qurmaq fəlsəfəsi ilə tamamlanmalıdır. Çünki son nəticədə müstəqil dövlətin siyasəti müsbət nəticə verməlidir. Çoxistiqamətlilik və geosiyasi dinamika kontekstində isə bu, konkret olaraq, beynəlxalq əlaqələrdə uğur qazanılmasını ehtiva edir. Həmin səbəbdən biz, konkret nümunədə bu aspektləri Prezident İlham Əliyevin İtaliya səfərləri fonunda izah etməliyik.

### Birinci aspekt

"Şəbəkə diplomatiyası"nın çoxistiqamətliliklə mürəkkəb geosiyasi dinamikanın qarşılıqlı əlaqəsində məzmununun birinci aspekti regional miqyasda şəbəkə prinsipinin tətbiqi ilə bağlıdır. Azərbaycan üçün bu, Cənubi Qafqazda həm dövlətlərarası münasibətlərin qurulması, həm də regional təşkilatlar çərçivəsində fəaliyyətdə şəbəkəliliyi tətbiq etmək deməkdir. Bu anlamda "şəbəkə prinsipi Ermənistan, Gürcüstan, İran, Rusiya və Türkiyə ilə münasibətlərdə özünün milli maraqları çərçivəsində digər region dövlətlərinin hər birinin marağını şəbəkə qaydalarına uyğun diqqətə almağı nəzərdə tutur. Sistem prinsipindən şəbəkə prinsipinin diplomatik kontekstdə fərqi ondan ibarətdir ki, şəbəkə sərt şəkildə heç bir dövləti digərlərinə bağlamağı və ondan "qanunauyğunluq" adı altında asılı olmağı nəzərdə tutmur (lakin sistem prinsinpdə bu, vardır).

Eyni zamanda. şəbəkə prinsipi dövlətlərarası münasibətlərdə açıqlığa münasibətdə olan bütün dövlətlərin hər biri üçün ayrılıqda, həm də kompleks halında əməl olunmasını ehtiva edir. Bu isə şəbəkə diplomatiyası yeridən dövlətin son dərəcə mütəhərrik, dinamik və ümumi mənzərəni ciddi nəzərə almaqla incə fəaliyyət göstərməsini tələb edir. Burada həssas məqam daim öz marağı ilə münasibətdə olduğu dövlətlərin maraqlarını regional miqyasda dinamik tarazlıqda saxlamaqdan ibarətdir. Nəzəri-politoloji olaraq, bunu dərk etmək çətin deyildir, lakin praktikada tətbiqi olduqca böyük siyasi-diplomatik məharət tələb edir.

Deməli, şəbəkə diplomatiyasının birinci aspekti olan regional miqyas üçün iki şərt vacibdir və onlar bir-birini tamamlamalıdırlar. Birinci şərt dövlətin (indiki halda Azərbaycanın) ən mürəkkəb və ziddiyyətli məqamlarda belə öz maraqlarını kompleks halında baxılan digər regional dövlətlərin maraqları fonunda gözləməsidir.

İkinci şərt, milli maraqlara elə əməl olunmalıdır ki, regionun digər dövlətlərinin milli maraqlarını ödənməsinə əngəl olmasın. Bu da özlüyündə regional miqyasda münasibətlərdə incə siyasi-diplomatik tarazlığı konstruktiv ruhda gözləmək deməkdir.

Nəzəri olaraq vurğulanan məqamlar İlham Əliyevin son İtaliya səfərini təhlil etmək üçün kifayət edir. Nəzəri detallara baş vurmadan ikinci aspektin qısa xarakteristikasına keçək.

### İkinci aspekt

Bu aspektin təməlini regional miqyasda şəbəkə prinsipi təşkil edir. O, regionlararası məkanı əhatə edir. Burada qarşıya çıxan ilk mühüm seçim konkret hansı regionlar arasında birləşdirici rol oynamaqla bağlıdır. Azərbaycan Cənubi Qafqaz, Rusiya, Mərkəzi Asiya, Uzaq Şərq və Avropa geosiyasi məkanlarında şəbəkə diplomatiyasını tətbiq etməyə üstünlük vermişdir. Bu, kifayət qədər geniş fəaliyyət sahəsidr. Həm də burada ayrı-ayrı regionlar arasında ziddiyyətlər az deyildir. Məsələn, Avropa ilə (Avropa Birliyi timsalında), Rusiya və Uzaq Şərq (Çin timsalında) arasında ziddiyyətlər məlumdur. Ayrıca, Cənubi Qafqazla bağlı ziddiyyətlər sirr deyildir. Bunlara Mərkəzi Asiya uğrunda gedən geosiyasi mübarizəni də əlavə etmək olar. Ümumi səviyyədə Qərbin (ABŞ başda olmaqla) Çinlə münaqişəsi xüsusi təsir edir. Nəhayət, Cənubi Qafqaz regionunun öz daxilində Azərbaycanın Vətən savaşından sonra yaratdığı geosiyasi dəyişikliklərə olan müqaviməti nəzərə almaq gərəkdir.

Deməli, geosiyasi-nəzəri olaraq Cənubi Qafqazda yerləşən bir dövlətin regionlararası miqyasda uğurlu şəbəkə diplomatiyası aparması, onun ciddi surətdə açıq və ya gizli ziddiyyətlərlə mübarizəsi fonunda getməlidir. Bura, hətta, Azərbaycanın özünün daxil olduğu regionda ona qarşı dayanmış bir sıra qüvvələrlə mübarizə də daxildir. Nəticədə pilləvari və qeyri-standart xarakterli risklərin və ziddiyyətlərin mövcud olduğu geniş məkanda uğurlu şəbəkə diplomatiyası üsulu seçmək zərurəti meydana çıxır.

Məsələnin bu tərəfinin nəzəri təhlili geniş məsələdir. Bundan başqa, bizim üçün əsas olanı Azərbaycanın praktiki siyasi-diplomatik fəaliyyəti kontekstində Prezidentin son İtaliya səfərinin konkret cəhətlərini təhlil etməkdən ibarətdir. Bu cür yanaşma həm də yuxarıda vurğuladığımız üçüncü aspekt – beynəlxalq miqyasda çoxaspektli əlaqələrdə uğurlu olmağı dərk etməyə yardım göstərəcək. Ona görə də indi aparılan siyasətin praktiki nəticələrinin təhlilinə əsaslanaq.

### Prezidentin İtaliya səfərləri

İlham Əliyev prezidentliyi dövründə 2024-cü ilin sentyabr ayına qədər olan müddətdə İtaliyaya 8 dəfə səfər etmişdir.

İlk səfər 2005-ci il fevralın 24-dən 26-dək olmuşdur. İtaliya Prezidenti Adzelyo Çampinin dəvəti əsasında olmuş həmin səfərdə prezidentlər təkbətək müzakirələr aparmışlar. İlham Əliyev həm də Azərbaycan – İtaliya biznes forumunda çıxış etmişdir.

İkinci səfər 2008-ci ilin 25-26 noyabr tarixində olmuşdur. Bu səfərdə Prezident İlham Əliyev o zaman İtaliya Nazirlər Şurasının sədri olan Silvio Berluskoni və İtaliya parlamenti Deputatlar Palatasının sədri Canfranko Fini ilə müzakirələr aparmışdır.

Üçüncü səfər 2011-ci il 1-3 iyun tarixində gerçəkləşmişdir. Səfər İtaliya Prezidenti Corco Napolitanonun dəvəti ilə baş tutmuşdur. İlham Əliyev İtaliyanın birləşməsinin 150 illiyinə həsr edilmiş tədbirlərdə iştirak etmişdir.

Dördüncü səfər 13-15 aprel 2014-cü ildə olmuşdur. Səfər zamanı Azərbaycan Respublikasının Prezidentinin və İtaliya Respublikasının Prezidenti Corco Napolitanonun nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü keçirilmişdir.

Beşinci səfər 8-10 iyul 2015-ci ildə reallaşmışdır. Azərbaycan Prezidenti "Milan Expo 2015" Ümumdünya Sərgisindəki "Milli gün" çərçivəsində Azərbaycan pavilyonunun rəsmi təqdimat mərasimində iştirak etmişdir.

Altıncı səfər 2020-ci ilin 19-22 fevralında həyata keçmişdir. İlham Əliyev İtaliya Respublikasının Prezidenti Sercio Mattarella ilə təkbətək müzakirələr aparmış və sonra geniş tərkibdə görüş olmuşdur.

Yeddinci səfər 2022-ci il 31 avqust - 2 sentyabr tarixində olmuşdur. Prezident İlham Əliyev həmkarı Sercio Mattarellanın dəvəti ilə Romaya getmişdir.

Nəhayət, 2024-cü il 4-5 sentyabrında Azərbaycan Prezidenti İlham Əliyev İtaliya prezidenti S.Mattarellanın dəvəti ilə Romaya işgüzar səfər etmişdir.

Azərbaycan Prezidenti İlham Əliyevin İtaliyaya olan səfərlərinin qısa xronikası Bakının xarici siyasətinin mahiyyəti baxımından əhəmiyyətli məqamları əhatə edir. Burada ilk olaraq 2005-ci ildən bu yana İlham Əliyevin həmişə Azərbaycan–İtaliya münasibətlərini həmin dövlətin başçısı ilə təkbətək müzakirə etməsi diqqəti çəkir. Şübhəsiz, bu müzakirələrdə iki ölkə arasında əlaqələrin inkişafının mahiyyəti, məzmunu və strateji məqsədi müzakirə edilmişdir.

Digər məqam Prezidentin səfərlərində iqtisadi, ticari, biznes sferalarının əsas yerlərdən birini tutması ilə əlaqəlidir. Həm də bu istiqamətdə müzakirələrin əhatə dairəsi hiss olunacaq dərəcədə genişdir.

Üçüncü əhəmiyyətli məqam Prezident İlham Əliyevin İtaliyaya səfərlərində Azərbaycan – Ermənistan münaqişəsinin həllində beynəlxalq aləmin iştirakının vacibliyini vurğulaması və bu kontekstdə qlobal geosiyasi dinamika ilə Cənubi Qafqazdakı geosiyasi ziddiyyətlərin müqayisə edilməsi ilə bağlıdır. Bu məqam 2020-ci ildəki səfərdə özünü daha qabarıq göstərmişdir.

2022-ci il və 2024-cü ildəki səfərlərdə isə artıq müzakirələr Azərbaycanın Vətən müharibəsindəki Qələbədən sonra yaranmış regional geosiyasi mənzərə və onun qlobal miqyasa təsiri əsas müzakirə mövzusu olmuşdur. Burada həm də Prezident İlham Əliyevin "The European House – Ambrosetti" beyin mərkəzinin "Dünya, Avropa və İtaliyaya baxış" və "Rəqabətli strategiyalar üçün bu günün və sabahın ssenarisi" mövzulu beynəlxalq Çernobbio forumunda iştirakı diqqəti çəkmişdir. Azərbaycan Prezidentinin 2024-cü ildə İtaliyaya səfəri zamanı da Çernobbio forumunda ("Dünya, Avropa və İtaliya haqqında bilgilər" mövzusuna həsr olunmuşdu) çıxışı zamanı irəli sürdüyü tezislər böyük maraq doğurmuşdur. Nəzərə almaq lazımdır ki, son səfər zamanı İlham Əliyevin çıxışı çox aktual olan mövzuda idi: "Yeni geosiyasi şəraitdə Azərbaycanın rolu."

Bütün bunların fonunda Azərbaycan Prezidentinin İtaliyaya səfərlərinə regional və regionlararası əlaqələr prizmasında nəzər salmaq lazım gəlir. Çünki həmin kontekstdə İlham Əliyevin son İtaliya səfərinin siyasi və geosiyasi əhəmiyyəti aydın görünəcəkdir.

**Füzuli QURBANOV,**
**XQ-nin analitiki,**
**fəlsəfə elmləri doktoru**

---

**İkili standart**

# ABŞ-nin Ermənistanda revanşizmi körükləyən layihələri

**ABŞ Cənubi Qafqazı istisnasız olaraq Qərbin siyasətinə alət etmək, burada qüvvələr balansını öz xeyirlərinə dəyişmək, nəticədə regionu Rusiya ilə Qərb arasında qarşıdurma meydanına çevirmək istəyir.**



**Müşfiq ƏLƏSGƏRLİ,**
**XQ-nin media eksperti**

Düzdür, bu yöndə ABŞ-nin əldə etdiyi nailiyyətlər azdır. Ermənistan hələlik nə KTMT-dən, nə də Avrasiya İttifaqından çıxıb. Ermənistanda Rusiyanın 102 saylı hərbi bazası, Rusiya–Ermənistan birgə hərbi qruplaşması, havadan birgə müdafiə sistemləri fəaliyyət göstərir. Yəni Ermənistanın Rusiya orbitindən çıxa biləcəyi hələlik sual altındadır. Buna rəğmən, ABŞ öz təşəbbüslərini davam etdirir.

ABŞ-nin Cənubi Qafqaza yönəlik planlarında Azərbaycanın maraqları ilə uzlaşmayan məqamlar mövcuddur. Belə ki, ABŞ-nin "Cənubi Qafqazı fəth etmək" planı Ermənistanın yenidən dirçəldilməsi konsepsiyasının üzərində qurulub. ABŞ Cənubi Qafqazın lider ölkəsinə çevrilmiş və yeni status-kvo yaratmış Azərbaycanın güclənməsinin qarşısını almaq üçün çeşidli planlar qurur.

Dünya supergücünün Azərbaycanı zəiflətmək, onun Ermənistana qarşı təsir imkanlarını azaltmaq, beləliklə, ermənilərin Qarabağa qayıtmasına və həmin ərazilərdə Ermənistanın nəzarətinə imkan verən mexanizmlər qurmaq niyyətləri aşkar görünür. Bu hədəfləri gerçəkləşdirməklə, Azərbaycanı Zəngəzur dəhlizindən, Qərbi Azərbaycan konsepsiyasından imtinaya məcbur etmək istəyirlər. Planın davamında – Türkiyə–Ermənistan sərhədlərinin açılması məsələsində Bakının mövqeyini "neytrallaşdırmaq"gözləntiləri də var.

Bu proqramı sürətli və təsirli şəkildə icra etmək üçün ABŞ fərqli mexanizmlərdən istifadə edir. Planın tərkib hissəsi olaraq, USAİD-in Ermənistan üzrə fəaliyyəti artırılıb. ABŞ Beynəlxalq İnkişaf Agentliyi Ermənistana 5 illik humanitar yardım paketini 2 dəfədən çox artırıb. Əvvəlki illərdə bu yardım 120 milyon dollar idisə, indi məbləğ 250 milyon dollara çatdırılıb.

Problem həm də ondadır ki, USAID-in rəhbəri Samanta Pouer separatçı liderlərdən olan Ruben Vardanyanla şəxsi dostluq münasibətindədir. Yayılan məlumatlar arasında o da vurğulanır ki, USAİD Ruben Vardanyanın ailəsi və oğlu tərəfindən qurulan anti-Azərbaycan şəbəkəni də koordinasiya edir. Bu şəbəkə Qarabağdan köç etmiş erməni əsilli ailələri təşkilatlanmağa, Azərbaycana qarşı revanşist hərəkətlərə təşviq edir. Qeyd edək ki, Vardanyanın həbs edilib Bakıya gətirildiyi ilk gündən etibarən Pouer işə qarışıb, onun azadlığa buraxılması üçün rəsmi Bakıya təzyiqləri artırmağa çalışıb. İstədiyini əldə etmədikdə, yeni variantlar düşünüb.

USAİD müxalif cəbhəyə daxil olan "KİV və QHT"lərin əsas donoru olmasından istifadə edərək, onları Azərbaycana qarşı çıxışa sövq edir. Məlumata əsasən, "COP 29 tədbirləri ərəfəsində Azərbaycandakı erməni əsirlərin azad olunması" kampaniyasına start verilməsi üçün "qrant layihələri" ayrılıb. Bu kampaniyanı Azərbaycanda ələ alınmış qrupların da dəstəkləməsi nəzərdə tutulur..

Bu "humanitar yardımlar" işin yalnız bir tərəfidir. Rusiya sərhədçilərinin İrəvan hava limanından çıxarılmasından dərhal sonra ABŞ təyyarələrlə Ermənistana silah və hərbi heyət göndərib, kontingentin Zəngəzur ətrafında yerləşdirilməsinə çalışıb. Fransanın Ermənistana göstərdiyi hərbi və siyasi dəstək də bilavasitə Vaşınqtondan koordinasiya edilir. ABŞ bu formada siyasi, iqtisadi və xüsusən hərbi dəstəklə Ermənistanda revanşizmin artmasına zəmin yaradır.

Nəhayət, Birləşmiş Ştatlar regionda ədalətli sülh istiyirsə, Ermənistana təktərəfli dəstəyi dayandırmalı, regionun digər ölkələrinə də humanitar kampaniyalar təşkil etməlidir. Bu ölkə, ən azı, indiyədək Azərbaycanın minalarla çirkləndirilmiş ərazilərinin təmizlənməsinə dəstək verə bilərdi. Belə çıxır ki, erməni icmasını geri qaytarmaq üçün hər oyundan çıxan ABŞ-ı azərbaycanlıların Qarabağa qayıdış hüquqları qətiyyən narahat etmir.

---

# Mərkəzi Seçki Komissiyasının növbəti iclası



**Sentyabrın 11-də Məzahir Pənahovun sədrliyi ilə Mərkəzi Seçki Komissiyasının (MSK) növbəti iclası keçirilib.**

MSK-nın sentyabrın 10-da keçirilmiş iclasının protokolu təsdiqlənib.

Sonra Milli Məclisinə növbədənkənar seçkilərlə əlaqədar MSK-ya daxil olmuş müraciətlərə baxılıb. Maraqlı subyektlərin də bilavasitə iştirakı ilə MSK üzvlərinin müzakirəsindən sonra 78 saylı Lənkəran kənd seçki dairəsinin 29 və 32 saylı seçki məntəqələri, eləcə də 22 saylı Nəsimi - Yasamal seçki dairəsinin 2, 14 və 20 saylı seçki məntəqələri üzrə səsvermənin nəticələri etibarsız hesab olunub.

MSK seçkilərlə əlaqədar daxil olan müraciətlərin, müxtəlif mənbələrdən alınan məlumatların tam şəffaf, qərəzsiz və təfsilatı ilə diqqətlə araşdırılması istiqamətindəki qərarlılığını bir daha bəyan edib.

Sonda cari məsələlərə baxılıb.

---

# Naxçıvanla sərhəddə mövqelərimiz atəşə tutulub



Sentyabrın 11-i saat 10:50 radələrində Azərbaycan Ordusunun Naxçıvan Muxtar Respublikasının Sədərək rayonunun Heydərabad yaşayış məntəqəsi istiqamətində yerləşən mövqeləri Ermənistan silahlı qüvvələrinin bölmələri tərəfindən üzbəüz mövqelərdən atıcı silahlar vasitəsilə atəşə tutulub. Bölmələrimiz tərəfindən qeyd olunan istiqamətdə adekvat cavab tədbirləri görülüb.

Bu barədə Müdafiə Nazirliyinin Mətbuat xidmətindən bildirilib.

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 392** **Bakı şəhəri, 4 sentyabr 2024-cü il**

***“Qida təhlükəsizliyi haqqında” Azərbaycan Respublikasının 2022-ci il 5 may tarixli 523-VIQ nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2024-cü il 5 mart tarixli 1108-VIQD nömrəli Qanununun icrasının təmin edilməsi ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi haqqında***

“Qida təhlükəsizliyi haqqında” Azərbaycan Respublikasının 2022-ci il 5 may tarixli 523-VIQ nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2024-cü il 5 mart tarixli 1108-VIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 29 aprel tarixli 47 nömrəli Fərmanının 2-ci hissəsinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1** “Cəza çəkmədən azad edilmiş şəxslərin ərzaq, geyim, ayaqqabı ilə təmin olunması, onlara gediş haqqının ödənilməsi, həmçinin birdəfəlik pul müavinətinin verilməsi Qaydasının təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 5 aprel tarixli 76 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 4, maddə 285 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

1.1. adında və 1-ci hissəsində “ərzaq” sözü “qida” sözü ilə əvəz edilsin;

1.2. həmin Qərarla təsdiq edilmiş “Cəza çəkmədən azad edilmiş şəxslərin ərzaq, geyim, ayaqqabı ilə təmin olunması, onlara gediş haqqının ödənilməsi, həmçinin birdəfəlik pul müavinətinin verilməsi Qaydası” üzrə:

1.2.1. adında “ərzaq” sözü “qida” sözü ilə, 5-ci və 6-cı hissələrdə “ərzaq” sözü “qida məhsulları” sözləri ilə əvəz edilsin;

1.2.2. birinci abzasda “ərzaq” sözü “qida” sözü ilə əvəz edilsin;

1.2.3. 2-ci hissənin birinci cümləsində “ərzaq” sözü “qida” sözü ilə, ikinci cümləsində “Ərzaq” sözü “Qida” sözü ilə əvəz edilsin.

**2** “İdxal mallarını yerli istehsal (emal) malları ilə əvəz edəcək qida (ərzaq) məhsullarının siyahısı”nın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 15 yanvar tarixli 22 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2024, № 1, maddə 89) adından, ikinci abzasından, həmin Qərarla təsdiq edilmiş “İdxal mallarını yerli istehsal (emal) malları ilə əvəz edəcək qida (ərzaq) məhsullarının siyahısı”nın adından, “Qeydlər” hissəsinin 1-ci abzasından (hər iki halda) və 2-ci abzasından “(ərzaq)” sözü çıxarılsın.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 393** **Bakı şəhəri, 4 sentyabr 2024-cü il**

***“Azərbaycan Respublikasının Ticarət Gəmiçiliyi Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının 2023-cü il 22 dekabr tarixli 1066-VIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında və Sərəncamında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 15 fevral tarixli 2 nömrəli Fərmanının icrası ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi haqqında***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, “Azərbaycan Respublikasının Ticarət Gəmiçiliyi Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının 2023-cü il 22 dekabr tarixli 1066-VIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında və Sərəncamında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 15 fevral tarixli 2 nömrəli Fərmanının 2.2-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 4 iyun tarixli 105 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 6, maddə 551 (Cild I) ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında gəmilərin dövlət qeydiyyatına alınması Qaydaları”nda aşağıdakı dəyişikliklər edilsin:

1.1. 1.7-ci bəndin üçüncü abzası aşağıdakı redaksiyada verilsin:

“1.7. Beynəlxalq Dəniz Təşkilatı (bundan sonra - BDT) nömrəsi – gəmiyə Beynəlxalq Dəniz Təşkilatı tərəfindən verilən identifikasiya nömrəsi.”;

1.2. 2.8.6-cı yarımbənddən “(İMO)” akronimi çıxarılsın;

1.3. 6.1-ci bənd, 6.1.1-ci və 6.1.7-ci yarımbəndlər aşağıdakı redaksiyada verilsin:

“6.1. Aşağıdakı hallarda gəmi Dövlət gəmi reyestrindən və ya berbout-çarter reyestrindən mütləq çıxarılmalıdır:

6.1.1. Dövlət gəmi reyestrində qeydiyyata alınmış gəminin mülkiyyətçisinin və ya berbout-çarter reyestrində qeydiyyata alınmış gəminin fraxtedəninin ərizəsi (səbəbi göstərilməklə) əsasında;”;

“6.1.7. məhkəmənin qanuni qüvvəyə minmiş qərarı olduqda.”;

1.4. 6.1.4-cü yarımbənddə “məhv olduqda” sözləri “istismara yararsız hala düşdükdə” sözləri ilə əvəz edilsin;

1.5. həmin Qaydalara 1 nömrəli əlavənin 8-ci hissəsindən “identifikasiya” sözü çıxarılsın;

1.6. həmin Qaydalara 2 nömrəli əlavənin 8-ci hissəsindən “identifikasiya” sözü çıxarılsın;

1.7. həmin Qaydalara 6 nömrəli əlavə üzrə:

1.7.1. 31.4-cü bənddə “şəhadətnaməsi (sərnişin gəmisi üçün)” sözləri “gəmisinin təhlükəsizlik üzrə şəhadətnaməsi” sözləri ilə əvəz edilsin;

1.7.2. 31.6-cı bənddə “çeşidi” sözü “nişanı” sözü ilə əvəz edilsin;

1.7.3. 31.7-ci bənddə “Gəmi heyətinin minimal” sözləri “Minimum heyət” sözləri ilə əvəz edilsin;

1.7.4. 31.8-ci bənddə “çirkləndirmənin qarşısının alınması haqqında şəhadətnamə” sözləri “çirkləndirmədən vurulan zərərə görə mülki məsuliyyətin sığortalanması və ya “Neftlə çirkləndirmədən vurulan zərərə görə mülki məsuliyyət haqqında” 1969-cu il tarixli Beynəlxalq Konvensiyaya uyğun digər maliyyə təminatı haqqında Şəhadətnamə” sözləri ilə əvəz edilsin;

1.7.5. 31.10-cu bənd ləğv edilsin.

**2** “Dəniz limanı kapitanı haqqında Əsasnamə”nin, “Dənizdə gəmilərdə baş vermiş qəzaların araşdırılması Qaydaları”nın və “Gəmilərin nəzarət yoxlamasına dair Əsasnamə”nin təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 4 aprel tarixli 59 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 4, maddə 439 (Cild I); 2024, № 3, maddə 328) aşağıdakı dəyişikliklər edilsin:

2.1. həmin Qərarla təsdiq edilmiş 1 nömrəli əlavə - “Dəniz limanı kapitanı haqqında Əsasnamə” üzrə:

2.1.1. 1.2-ci bəndə və 2.2.1-ci yarımbəndə “liman akvatoriyasında” sözlərindən sonra “, habelə dəniz əməliyyatları bazasında” sözləri əlavə edilsin;

2.1.2. 2.2.2-ci və 2.3.1-ci yarımbəndlərə ismin müvafiq hallarında “liman” sözündən sonra ismin müvafiq hallarında “və ya dəniz əməliyyatları bazası” sözləri əlavə edilsin;

2.1.3. 2.2.8-ci yarımbəndin birinci cümləsinə “yaxınlığında” sözündən sonra, ikinci cümləsinə isə “akvatoriyasında” sözündən sonra “, habelə dəniz əməliyyatları bazasında” sözləri əlavə edilsin;

2.1.4. 2.2.9-cu yarımbəndə “yaxınlığında” sözündən sonra “və ya dəniz əməliyyatları bazasında” sözləri əlavə edilsin;

2.1.5. 2.4-cü bəndə “çıxmasını” sözündən sonra “Agentlik ilə razılaşdırmaqla” sözləri əlavə edilsin;

2.1.6. 2.4.8-ci yarımbəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 2.4.9-cu yarımbənd əlavə edilsin:

“2.4.9. hidrometeoroloji və naviqasiya şəraitinin dəyişməsi gəminin limandan çıxmasına maneə törətdikdə.”;

2.2. həmin Qərarla təsdiq edilmiş 2 nömrəli əlavə - “Dənizdə gəmilərdə baş vermiş qəzaların araşdırılması Qaydaları” üzrə:

2.2.1. 1.7-ci bəndə “dəniz” sözündən sonra “ətraf” sözü əlavə edilsin;

2.2.2. 2.3.1-ci, 3.6.1-ci və 3.20.7-ci yarımbəndlərdə “BDT/İMO” akronimləri “Beynəlxalq Dəniz Təşkilatı” sözləri ilə əvəz edilsin;

2.2.3. 3.7-ci bəndə “limanına” sözündən sonra “və ya dəniz əməliyyatları bazasına” sözləri əlavə edilsin;

2.2.4. 3.20.3-cü (hər iki halda) və 3.20.7-ci yarımbəndlərə ismin müvafiq hallarında “liman” sözündən sonra ismin müvafiq hallarında “və ya dəniz əməliyyatları bazası” sözləri əlavə edilsin;

2.3. həmin Qərarla təsdiq edilmiş 3 nömrəli əlavə - “Gəmilərin nəzarət yoxlamasına dair Əsasnamə” üzrə:

2.3.1. 3.2-ci və 6.5-ci bəndlərə, 3.3.1-ci yarımbəndə (hər iki halda) “limanlarına” sözündən sonra, 6-cı hissənin adına “limanlara” sözündən sonra “və ya dəniz əməliyyatları bazalarına” sözləri əlavə edilsin;

2.3.2. 4.1.4-cü yarımbənd aşağıdakı redaksiyada verilsin:

“4.1.4. minimum heyət tərkibi haqqında Şəhadətnamə;”;

2.3.3. 4.1.11-ci yarımbənddə “çirkləndirmənin qarşısının alınması haqqında şəhadətnamə” sözləri “çirkləndirmədən vurulan zərərə görə mülki məsuliyyətin sığortalanması və ya “Neftlə çirkləndirmədən vurulan zərərə görə mülki məsuliyyət haqqında” 1969-cu il tarixli Beynəlxalq Konvensiyaya uyğun digər maliyyə təminatı haqqında Şəhadətnamə” sözləri ilə əvəz edilsin;

2.3.4. 4.1.18-ci yarımbənddə “təhlükəsizliyi haqqında şəhadətnamə” sözləri “təhlükəsizlik üzrə şəhadətnaməsi” sözləri ilə əvəz edilsin;

2.3.5. 4.1.20-ci yarımbənd ləğv edilsin;

2.3.6. 5.3.1-ci yarımbənddə “heyətin minimum” sözləri “minimum heyət” sözləri ilə əvəz edilsin;

2.3.7. 5.3.4-cü yarımbənddə “sertifikatları” sözü “şəhadətnamələri” sözü ilə əvəz edilsin;

2.3.8. 5.5.1-ci, 5.5.2-ci (hər iki halda) və 6.5.3-cü yarımbəndlərə ismin müvafiq hallarında “liman” sözündən sonra ismin müvafiq hallarında “və ya dəniz əməliyyatları bazası” sözləri əlavə edilsin;

2.3.9. 6.4-cü bənddə “limanadək” sözü “limana və ya dəniz əməliyyatları bazasınadək” sözləri ilə əvəz edilsin;

2.3.10. 6.5.3-cü yarımbəndə (üçüncü halda) “dəniz” sözündən sonra “ətraf” sözü əlavə edilsin.

**3.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 8 sentyabr tarixli 296 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 10, maddə 1211 (Cild I); 2024, № 1, maddə 74, № 3, maddə 328) ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının ərazi sularında üzmə Qaydaları”nda aşağıdakı dəyişikliklər edilsin:

3.1. aşağıdakı məzmunda 1.6-cı bənd əlavə edilsin:

“1.6. Bu Qaydaların müddəaları dəniz əməliyyatları bazalarına da şamil edilir və onlar tərəfindən bu Qaydaların tələblərinə riayət olunmasını Agentlik təmin edir.”;

3.2. 5.9.1-ci yarımbənddə “Təşkilatının” sözü “Təşkilatı” sözü ilə əvəz edilsin;

3.3. 6.6.1-ci yarımbənddə “identifikasiya” sözü “Beynəlxalq Dəniz Təşkilatı” sözləri ilə əvəz edilsin;

3.4. 8.11-ci bənd aşağıdakı redaksiyada verilsin:

“8.11. Neft məhsulları ilə yüklənmiş gəminin kapitanı neftlə çirkləndirmədən vurulan zərərə görə mülki məsuliyyətin sığortalanması və ya “Neftlə çirkləndirmədən vurulan zərərə görə mülki məsuliyyət haqqında” 1969-cu il tarixli Beynəlxalq Konvensiyaya uyğun digər maliyyə təminatı haqqında Şəhadətnamənin mövcudluğu barədə təyinat limanına məlumat verməlidir, əks halda təyinat limanı həmin gəmini qəbul etməkdən imtina edir.”;

3.5. 9.6.3-cü yarımbənddə “gəmi heyətinin tərkibi haqqında şəhadətnamə” sözləri “minimum heyət tərkibi haqqında Şəhadət-namə” sözləri ilə əvəz edilsin;

3.6. 9.6.6-cı və 10.9.8-ci yarımbəndlərdən “beynəlxalq” sözü çıxarılsın;

3.7. 9.6.7-ci yarımbənddə “təhlükəsizliyi haqqında şəhadətnamə” sözləri “təhlükəsizlik üzrə şəhadətnaməsi” sözləri ilə əvəz edilsin;

3.8. 9.6.12-ci yarımbənd aşağıdakı redaksiyada verilsin:

“9.6.12. neftlə çirkləndirmədən vurulan zərərə görə mülki məsuliyyətin sığortalanması və ya “Neftlə çirkləndirmədən vurulan zərərə görə mülki məsuliyyət haqqında” 1969-cu il tarixli Beynəlxalq Konvensiyaya uyğun digər maliyyə təminatı haqqında Şəhadət-namə;”;

3.9. 10.3-cü bənd aşağıdakı redaksiyada verilsin:

“10.3. Liman kapitanının aşağıdakı hallarda Agentlik ilə razılaşdırmaqla gəmiyə dəniz limanından çıxmağa icazə verməkdən imtina etmək hüququ vardır:”;

3.10. 10.3.2-ci yarımbəndə “dəniz” sözündən sonra “ətraf” sözü əlavə edilsin;

3.11. 10.3.6-cı yarımbəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 10.3.7-ci yarımbənd əlavə edilsin:

“10.3.7. hidrometeoroloji və naviqasiya şəraitinin dəyişməsi gəminin limandan çıxmasına maneə törətdikdə.”;

3.12. 10.9.9-cu yarımbənd aşağıdakı redaksiyada verilsin:

“10.9.9. sərnişin gəmisinin təhlükəsizlik üzrə şəhadətnaməsini;”;

3.13. 10.9.14-cü yarımbənd aşağıdakı redaksiyada verilsin:

“10.9.14. neftlə çirkləndirmədən vurulan zərərə görə mülki məsuliyyətin sığortalanması və ya “Neftlə çirkləndirmədən vurulan zərərə görə mülki məsuliyyət haqqında” 1969-cu il tarixli Beynəlxalq Konvensiyaya uyğun digər maliyyə təminatı haqqında Şəhadətnamə;”;

3.14. 10.9.15-ci yarımbənd və 10.24-cü bənd ləğv edilsin;

3.15. 10.9.16-cı yarımbənddə “gəmi heyətinin tərkibi haqqında şəhadətnaməni” sözləri “minimum heyət tərkibi haqqında Şəhadətnaməni” sözləri ilə əvəz edilsin.

**4** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 15 avqust tarixli 306 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 8, maddə 1443 (Cild I); 2024, № 3, maddə 328, № 5 (II kitab), maddə 611) ilə təsdiq edilmiş “Dənizçilik şirkətinin “Əmniyyətli İdarəetmə haqqında Beynəlxalq Məcəllə”nin tələblərinə uyğun olması haqqında Şəhadətnamənin və gəminin “Əmniyyətli İdarəetmə haqqında Beynəlxalq Məcəllə”nin tələblərinə uyğun olması haqqında Şəhadətnamənin forması və verilməsi Qaydası”nda aşağıdakı dəyişikliklər edilsin:

4.1. 2.1.4-cü yarımbənddə “şirkətə” sözü “şirkətin” sözü ilə əvəz edilsin və həmin yarımbənddən “tərəfindən verilən identifikasiya” sözləri çıxarılsın;

4.2. 2.2.10-cu yarımbənddə “şirkətə BDT tərəfindən verilən identifikasiya” sözləri “şirkətin BDT” sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 394** **Bakı şəhəri, 5 sentyabr 2024-cü il**

***N.Y.Kəngərlinin xatirəsinin əbədiləşdirilməsi haqqında***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, XX əsr Azərbaycan memarlığının görkəmli nümayəndələrindən biri, əməkdar inşaatçı, SSRİ Dövlət mükafatı laureatı Nəsrulla Yaqub oğlu Kəngərlinin xatirəsini əbədiləşdirmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi və Bakı Şəhər İcra Hakimiyyəti Nəsrulla Yaqub oğlu Kəngərlinin Bakı şəhərində yaşadığı binaya (İnşaatçılar prospekti ilə Bəsti Bağırova küçəsinin kəsişməsində yerləşən) xatirə lövhəsinin vurulmasını təmin etsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 395** **Bakı şəhəri, 5 sentyabr 2024-cü il**

***“Təhsil haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2024-cü il 7 may tarixli 1145-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi və “Azərbaycan Respublikasının dövlət ali təhsil müəssisələrində və Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində ödənişli əsaslarla təhsil alan məcburi köçkünlərin təhsil xərclərinin ödənilməsi ilə bağlı bəzi məsələlər barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 24 yanvar tarixli 12 nömrəli Qərarının ləğv edilməsi haqqında***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, “Təhsil haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2024-cü il 7 may tarixli 1145-VIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin “Təhsil haqqında” Azərbaycan Respublikası Qanu-nunun tətbiq edilməsi barədə” 2009-cu il 5 sentyabr tarixli 156 nömrəli Fərmanında dəyişiklik edilməsi və bəzi sərəncamlarının ləğv edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 30 may tarixli 78 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 18 mart tarixli 50 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 3, maddə 261 (Cild I) ilə təsdiq edilmiş “Rezidentura təhsilinin məzmunu və təşkili Qaydaları”nın 1.5-ci bəndinin üçüncü cümləsi aşağıdakı redaksiyada verilsin və dördüncü cümləsi ləğv edilsin:

“Sosial müdafiəyə xüsusi ehtiyacı olan şəxslərin ali təhsil müəssisələrində ali təhsilin rezidentura səviyyəsində ödənişli əsaslarla təhsil aldıqları müddətdə onların təhsil haqqının dövlət büdcəsinin vəsaiti hesabına ödənilməsi “Təhsil haqqında” Azərbaycan Respublikası Qanununun 14.8-1-ci və 14.8-2-ci maddələri ilə tənzimlənir.”.

**2** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 12 may tarixli 88 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 5, maddə 467 (Cild I); 2024, № 3, maddə 307) ilə təsdiq edilmiş “Magistratura təhsilinin məzmunu, təşkili və “magistr” dərəcələrinin verilməsi Qaydaları”nın 1.7-ci bəndinin ikinci abzası aşağıdakı redaksiyada verilsin:

“Sosial müdafiəyə xüsusi ehtiyacı olan şəxslərin ali təhsil müəssisələrində ali təhsilin magistratura səviyyəsində ödənişli əsaslarla təhsil aldıqları müddətdə onların təhsil haqqının dövlət büdcəsinin vəsaiti hesabına ödənilməsi “Təhsil haqqında” Azərbaycan Respublikası Qanununun 14.8-1-ci və 14.8-2-ci maddələri ilə tənzimlənir.”.

**3.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 24 iyun tarixli 117 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 6, maddə 561 (Cild I) ilə təsdiq edilmiş “Bakalavriat (əsas (baza ali) tibb təhsili) təhsilinin məzmunu və təşkili Qaydaları”nın 1.8-ci bəndinin ikinci abzası aşağıdakı redaksiyada verilsin:

“Sosial müdafiəyə xüsusi ehtiyacı olan şəxslərin ali təhsil müəssisələrində ali təhsilin bakalavriat səviyyəsində ödənişli əsaslarla təhsil aldıqları müddətdə onların təhsil haqqının dövlət büdcəsinin vəsaiti hesabına ödənilməsi “Təhsil haqqında” Azərbaycan Respublikası Qanununun 14.8-1-ci və 14.8-2-ci maddələri ilə tənzimlənir.”.

**4** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 1 iyul tarixli 129 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 7, maddə 695 (Cild I); 2024, № 2, maddə 209, № 5 (II kitab), maddə 612) ilə təsdiq edilmiş “Doktoranturaların yaradılması və doktoranturaya qəbul Qaydaları”nın 1.6-cı bəndinin ikinci abzası aşağıdakı redaksiyada verilsin:

“Sosial müdafiəyə xüsusi ehtiyacı olan şəxslərin ali təhsil müəssisələrində ali təhsilin doktorantura səviyyəsində ödənişli əsaslarla təhsil aldıqları müddətdə onların təhsil haqqının dövlət büdcəsinin vəsaiti hesabına ödənilməsi “Təhsil haqqında” Azərbaycan Respublikası Qanununun 14.8-1-ci və 14.8-2-ci maddələri ilə tənzimlənir.”.

**5.** “Azərbaycan Respublikasının dövlət ali təhsil müəssisələrində və Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində ödənişli əsaslarla təhsil alan məcburi köçkünlərin təhsil xərclərinin ödənilməsi ilə bağlı bəzi məsələlər barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 24 yanvar tarixli 12 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 1, maddə 35 (Cild I) ləğv edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 396** **Bakı şəhəri, 5 sentyabr 2024-cü il**

***Azərbaycan Respublikası Nazirlər Kabinetinin “Bakı və Gəncə şəhərlərində yerləşən ilk peşə-ixtisas təhsili müəssisələri şəbəkəsinin rasionallaşdırılması və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 15 iyul tarixli 118 nömrəli qərarı ilə təsdiq edilmiş “Azərbaycan Respublikası Təhsil Nazirliyinin strukturuna daxil olmayan tabeliyindəki qurumların Siyahısı”nda dəyişikliklər edilməsi haqqında” 2016-cı il 11 oktyabr tarixli 405 nömrəli və “Qəbələ Dövlət Peşə Təhsil Mərkəzinin, İstedadlı Uşaqlarla İş Mərkəzinin yaradılması və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 15 iyul tarixli 118 nömrəli qərarı ilə təsdiq edilmiş “Azərbaycan Respublikası Təhsil Nazirliyinin strukturuna daxil olmayan tabeliyindəki qurumların Siyahısı”nda dəyişikliklər edilməsi haqqında” 2017-ci il 5 iyun tarixli 250 nömrəli qərarlarında dəyişiklik edilməsi barədə***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1** “Bakı və Gəncə şəhərlərində yerləşən ilk peşə-ixtisas təhsili müəssisələri şəbəkəsinin rasionallaşdırılması və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 15 iyul tarixli 118 nömrəli qərarı ilə təsdiq edilmiş “Azərbaycan Respublikası Təhsil Nazirliyinin strukturuna daxil olmayan tabeliyindəki qurumların Siyahısı”nda dəyişikliklər edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 11 oktyabr tarixli 405 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 10, maddə 1723 (Cild I) 16-cı hissəsi ləğv edilsin.

**2** “Qəbələ Dövlət Peşə Təhsil Mərkəzinin, İstedadlı Uşaqlarla İş Mərkəzinin yaradılması və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 15 iyul tarixli 118 nömrəli qərarı ilə təsdiq edilmiş “Azərbaycan Respublikası Təhsil Nazirliyinin strukturuna daxil olmayan tabeliyindəki qurumların Siyahısı”nda dəyişikliklər edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 5 iyun tarixli 250 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 6, maddə 1226 (Cild I) 1-ci hissəsindən “peşə liseyi statusu ilə fəaliyyət göstərən” sözləri çıxarılsın.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 397** **Bakı şəhəri, 5 sentyabr 2024-cü il**

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin “Yaşıllıqların götürülməsi Qaydası”nın təsdiq edilməsi haqqında” 2016-cı il 30 avqust tarixli 321 nömrəli Qərarında dəyişiklik edilməsi və “Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin balansında olan meliorasiya və su təsərrüfatı obyektlərinin layihələndirilməsi, tikintisi (inşası, cari və əsaslı təmiri, yenidən qurulması, bərpası), idarə olunması, saxlanılması, qorunması üçün icazə alınması tələb olunmayan işlərin Siyahısı”nın təsdiq edilməsi haqqında” 2018-ci il 30 noyabr tarixli 513 nömrəli Qərarının ləğv edilməsi barədə**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, “Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin fəaliyyət istiqamətləri üzrə müvafiq işlərin görülməsi üçün alınması tələb olunmayan icazələrin siyahısı”nın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 21 may tarixli 68 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 30 avqust tarixli 321 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 8, maddə 1457 (Cild I); 2024, № 5 (II kitab), maddə 611) ilə təsdiq edilmiş “Yaşıllıqların götürülməsi Qaydası”na aşağıdakı məzmunda 2.12-ci bənd əlavə edilsin:

“2.12. Suvarma və kollektor-drenaj şəbəkələrinin təmizlənməsi, təmiri, bərpası və yenidən qurulması zamanı onların məcrasında, berma və dambasında bitmiş, habelə dövlət ehtiyacı üçün ayrılmış torpaqlarda aparılan meliorasiya və irriqasiya tədbirləri zamanı həmin obyektlərin altına düşən yaşıllığın götürülməsi üçün yaşıllığın götürülməsi vərəqi tələb olunmur.”.

**2** “Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin balansında olan meliorasiya və su təsərrüfatı obyektlərinin layihələndirilməsi, tikintisi (inşası, cari və əsaslı təmiri, yenidən qurulması, bərpası), idarə olunması, saxlanılması, qorun-ması üçün icazə alınması tələb olunmayan işlərin Siyahısı”nın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 30 noyabr tarixli 513 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 11, maddə 2460 (Cild I) ləğv edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

"Əsrin müqaviləsi"-30

# Səngəçal terminalı: yeni neft strategiyasının baş qovşağı

*Ötən müddətdə buradan 700 milyon ton neft və 450 milyard kubmetr qaz ixrac olunub*



**Ümumilli lider Heydər Əliyevin müəllifi olduğu yeni neft strategiyasının təntənəsi olan Səngəçal terminalı uzun illərdir ki, ölkənin mədən sənayesinə sanballı xidmət göstərir. Xəzərin Azərbaycan sektorunda quraşdırılmış nəhəng qurğuların, ən müasir texnologiyaların imkanları və fədakar neftçilərin gərgin əməyi sayəsində hasil edilən karbohidrogenlər sualtı boru kəmərləri vasitəsilə məhz bura nəql olunur.**

Hazırda Azərbaycan özünün karbohidrogen ehtiyatlarını şaxələndirilmiş boru nəqliyyatı ilə dünya bazarına çıxarır. Xam neft və qaz məhz Səngəçal terminalında yaradılmış ən müasir qurğularda ilkin texnoloji emal prosesindən sonra ixrac sisteminə vurularaq son ünvanlara çatdırılır. Heydər Əliyev adına Bakı–Tbilisi–Ceyhan əsas ixrac neft boru kəməri, Qərb ixrac boru kəməri (Bakı–Supsa), Şimal ixrac boru kəməri (Bakı–Novorossiysk), Cənubi Qafqaz boru kəməri (CQBK), Cənub Qaz Dəhlizi, eləcə də SOCAR-a məxsus qaz kəməri öz başlanğıcını məhz Səngəçal terminalından götürür.

Səngəçal terminalı "Əsrin müqaviləsi" çərçivəsində inşa olunmuş ilk mühüm infrastruktur obyektlərindəndir. İntensiv tikinti-quraşdırma işləri nəticəsində terminal "Çıraq" yatağında hasilatın başlanması ilə eyni vaxtda istismara hazır vəziyyətə gətirilib. 1997-ci il noyabr ayının 12-də ulu öndər Heydər Əliyevin iştirakı ilə Səngəçal terminalının təntənəli açılış mərasimi keçirilib. Bununla da, Azərbaycan neftinin Bakı–Novorossiysk ixrac boru kəməri ilə Şimal istiqamətinə ixracına başlanılıb.

Xatırladaq ki, ilk vaxtlar yalnız "Çıraq" neftini ixrac etmək üçün layihələndirilmiş Səngəçal terminalının ərazisi və texniki imkanları sonralar xeyli genişləndirilərək indiki səviyyəyə çatdırılıb. Belə ki, 2001-ci ilin sentyabr ayından etibarən "Əsrin müqaviləsi"nin yataqların tammiqyaslı işlənməsi layihəsi çərçivəsində quruda və dənizdə nəhəng tikinti-quraşdırma işlərinin aparılmasına start verilib. "Azəri" və "Dərin sulu Günəşli" yataqlarının istismara verilməsi ilə başlanacaq böyük neft hasilatı terminalın da genişləndirilməsini zərurət yaradıb. Bu məqsədlə 2002-ci il fevralın 20-də Səngəçal terminalının genişləndirilməsi proqramının icrasına başlanılıb.

Təməlqoyma mərasimində layihənin əməliyyatçısı BP və konsorsium iştirakçıları, podratçı şirkətlərin nümayəndələri, eləcə də media təmsilçiləri iştirak ediblər. Həmin gün torpağa basdırılmış "Zaman kapsulu"nda bu sözlər yazılıb: "İndi başladığımız bu layihə Azərbaycanın Şərq–Qərb dəhlizində aparıcı rolunun təsdiqlənməsinə əsas verəcək, onun beynəlxalq nüfuzunu gücləndirəcəkdir... Biz ümidvarıq ki, üç ildən sonra Səngəçal neftin və qazın nəqli üzrə bir neçə nəhəng boru kəmərini birləşdirən, enerji daşıyıcılarının nəqli sisteminin dünya miqyaslı regional mərkəzi və Xəzərlə dünya bazarı arasında körpü olan bir obyektə çevriləcək". Gələcək nəsillərə ünvanlanmış ümid dolu bu fikirlər cəmi bir neçə ilə reallığa çevrilib. Dəniz sahilinin qumsal, bomboz çölündə dünyanın ən böyük neft-qaz infrastrukturu yaradılıb.

2002-ci ilin iyul ayında terminalın genişləndirilməsi layihəsinin bir hissəsi olan ilkin mülki tikinti işləri tamamlanıb. 2007-ci ilədək olan dövrü əhatə edən sonrakı mərhələdə isə burada möhtəşəm tikinti-quraşdırma işləri həyata keçirilib. "Azəri" yatağınında və "Günəşli" yatağının dərinlikdə yerləşən hissəsində quraşdırılacaq 4 hasilat platformasından çıxarılacaq xam neftin qəbulu üçün nəhəng çənlər və Bakı–Tbilisi–Ceyhan əsas ixrac boru kəmərinin baş nasos stansiyası, neft boruları, eləcə də "Şahdəniz" qazı üçün iri texnoloji emal qurğuları tikilib. Bunun da nəticəsində "Azəri", "Dərin sulu Günəşli" və "Şahdəniz" yataqlarından hasil edilən xam neft və təbii qazı qəbul etmək üçün tələb olunan qurğuları vaxtında istifadəyə verilib.

Ötən illərdə Səngəçal terminalı bir çox əlamətdar hadisələrə şahidlik edib. Belə ki, 2002-ci il sentyabrın 18-də ulu öndər Heydər Əliyevin, eləcə də Türkiyə və Gürcüstanın dövlət başçılarının iştirakı ilə burada üçüncü minilliyin nəhəng mühəndis qurğusu olan BTC-nin təməli qoyulub. 2005-ci ilin mayın 25-də isə Azərbaycan Prezidenti İlham Əliyevin, həmçinin Gürcüstan və Türkiyənin dövlət başçılarının iştirakı ilə terminaldan xam neftin BTC-yə vurulmasına başlanılıb. Xəzərin Azərbaycan sahilindən başlayaraq Avropanın dərinliklərinədək uzanan 3500 kilometrlik Cənub Qaz Dəhlizinin də təməli 2014-cü il sentyabrın 20-də məhz Səngəçal terminalında qoyulub. 2018-ci il mayın 29-da isə terminal bu nəhəng layihənin rəsmi açılış mərasiminə evsahibliyi edib. Hər iki tədbirdə Azərbaycan Prezidenti İlham Əliyev və Avropanın energetika sahəsinə rəhbərlik edən şəxslər iştirak ediblər.

Müasir sənaye şəhərciyini xatırladan Səngəçal terminalında xam neftin qəbulu üçün nəhəng çənlər, baş nasos stansiyası, separatorlar, emal qurğuları və idarəetmə məntəqəsi fəaliyyət göstərir. Eyni zamanda, bura fiber-optik rabitə kabelləri, sahildən 187 kilometr məsafədə yerləşən dəniz yataqlarından neft və qaz kəmərləri çəkilib. Ümumilikdə dənizdəki qurğulardan terminala səkkiz müxtəlif boru kəməri daxil olur və buradan da eyni sayda xətt çıxır. Onlar müxtəlif marşrutlara istiqamətlənməklə Azərbaycanın yüksək keyfiyyətli xam neftini və qazını dünya bazarlarına nəql edir. Bundan əlavə, terminal Qazaxıstan, Türkmənistan və Rusiyadan daxil olan üçüncü tərəfə aid nefti də qəbul edir.

Hazırda terminalın texniki emal sistemlərinin gündəlik gücü 1,2 milyon barel neft və kondensat, eləcə də "Şahdəniz" qazı üçün, təqribən, 81 milyon kubmetr "mavi yanacaq" təşkil edir. Bundan əlavə, "Azəri–Çıraq–Günəşli" yataqlar blokundan neftlə bərabər çıxarılan səmt qazı da terminalda qəbul olunaraq Azərbaycanın qazpaylama sisteminə təhvil verilir. Bütövlükdə isə, Səngəçal terminalının ümumi qaz emalı və ixrac gücü (AÇG səmt qazı da daxil olmaqla) gündəlik, təqribən, 100 milyon kubmetrdir. Ötən müddətdə Səngəçal terminalından şaxələndirilmiş ixrac marşrutları vasitəsilə dünya bazarına 700 milyon ton neft və 450 milyard kubmetr qaz ixrac olunub.

**Kənd təsərrüfatı heyvanları və bitkilərinin, xüsusilə tərəvəz və meyvə bağlarının sığortası, bu sahədəki yeniliklər və fermerləri maraqlandıran məsələlər Aqrar Sığota Fondu və Salyan Rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə keçirilən "Dayanıqlı fermer təsərrüfatı üçün aqrar sığorta" tədbirində ətraflı müzakirə edilib. Bu barədə Aqrar Sığota Fondu məlumat yayıb.**

Tədbiri giriş sözü ilə açan Salyan Rayon İcra Hakimiyyətinin başçısı Sevindik Hətəmov kənd təsərrüfatı üçün böyük imkanların olduğu rayonda əkinçiliyin və heyvandarlığın inkişaf etdiyini bildirib. Qeyd olunub ki, Salyan rayonunda 41 min hektardan artıq əkin sahəsinin 14 min hektarı taxıl, 10 min hektarı pambıq, təqribən, 14 min hektarı isə yonca əkinlərinin payına düşür. Bununla yanaşı, Salyanda geniş meyvə bağları, tərəvəz, bostan bitkiləri, çəltik və şəkər çuğunduru da becərilir. Hazırda buradakı üzüm bağlarının sahəsi 1200 hektara yaxındır.

# Şirvan–Salyanda aqrar sığorta təşviqi




Salyan rayonu üzrə əkin sahələrinin yalnız 5 min hektarının sığotalandığını diqqətə çatdıran icra hakimiyyətinin başçısı bunun qənaətbəxş olmadığını vurğulayıb. Buna görə də o, fermerləri dövlət tərəfindən yaradılan belə bir əlverişli imkandan istifadə etməyə və təsərrüfatlarını sığortalamağa çağırıb.

Tədbirdə çıxış edən Aqrar Sığorta Fondu idarə heyətinin sədri Fuad Sadıqov ölkəmizdə dövlət tərəfindən yaradılan aqrar sığorta mexanizmi, onun iş prinsipi, fermerlər üçün əhəmiyyəti barədə məlumat verib. Fond sədrinin sözlərinə görə, aqrar sığorta haqqına 50 faizlik dövlət dəstəyi sayəsində fermerlər cüzi məbləğ ödəməklə əkin sahələrini sığorta edə bilərlər. Diqqətə çatdırılıb ki, aqrar sığorta əkin sahələrini təbiət hadisələri, dolu, qasırğa, fırtına, leysan yağışları, sel-subasma, yanğın, vəşhi heyvanların hücumu, 3-cü şəxslərin hərəkətlərindən sığorta edir.

Ölkəmizdə aqrar sığortadan faydalanan fermerlərin sayının getdikcə artdığını bildirən fond rəhbəri buna misal olaraq deyib ki, 2022-ci ildə müxtəlif hadisələrdən zərər çəkən fermerlərə 2,4 milyon manat sığorta ödənişi edildiyi halda, ötən il bu rəqəm 4,4 milyon manata, cari ilin 7 ayında isə 3,3 milyon manata yüksəlib. Onun sözlərinə görə, ilin sonunda bu məbləğin daha yüksək olacağı gözlənilir.

Bildirilib ki, Şirvan–Salyan iqtisadi rayonunda indiyədək əkin sahələrinə dəymiş zərərlə bağlı, ümumilikdə, 686 min manat, heyvandarlıq sığortası üzrə isə 96 min manat sığorta ödənişi edilib. Payızlıq taxıl mövsümünün yaxınlaşdığını xatırladan fond sədri fermerləri əkin sahələrini çoxsaylı risklərdən qorumağa və sığorta olunmağa çağırıb.

Tədbirdə sığorta haqları və sığorta ödənişləriin hesablanması, ayrı-ayrı məhsullar üzrə sığorta haqları, ödəniş prosesi barədə də məlumat verilib. Qeyd olunub ki, Salyanda 1000 manatlıq buğda və pambığın sığortalanması fermerə cəmi 7 manata, eyni məbləğdə arpa məhsulunun sığortası 9 manata, narın sığortası 8 manata, xurmanın sığortası isə 11 manata başa gəlir. Salyanda geniş yayılmış bostan bitkilərinə gəlincə isə, 1000 manatlıq pomidorun sığortalanmasını 10 manata, eyni məbləğdə qarpızın sığorotalanmasını isə cəmi 11 manata təmin etmək mümkündür. Bununla yanaşı, əlavə vəsait ödəməklə məhsulu donvurmadan və dolu yağması nəticəsində görünüşünün korlanmasına görə ucuzlaşmasından da sığortalamaq olar.

Ümumilikdə isə bu və digər məlumatlar fermerlərin böyük marağına səbəb olub. Təsərrüfat sahiblərinin sığortanın əhatə etdiyi risklər, sığorta ödənişi prosesi, sığorta müqaviləsinin bağlanması və qüvvəyə minməsi, heyvandarlıq sığortası və sair hallarla bağlı çoxsaylı sualları da mütəxəssislər tərəfindən ətraflı cavablandırılıb. Eyni zamanda, fermerlərə bildirilib ki, onlar sığorta müqaviləsinin olmasını və qüvvəyə minməsini Aqrar Sığorta Fondunun rəsmi internet səhifəsindəki "Şəhadətnaməni yoxla" bölməsindən dəqiqləşdirə, sığorta haqlarını isə qurumun saytındakı "Sığorta kalkulyatoru" vasitəsilə hesablaya bilərlər.

Tədbirdən sonra Salyan rayonunun bir sıra təsərrüfatlarına baş çəkən Aqrar Sığorta Fondunun sədri F. Sadıqov fermerlərlə görüşüb, onların suallarını cavablandırıb.

# Qarabağda sahibkarlığın inkişafına üstün şərait yaradılır

*Bölgədə 10 önəmli özəl layihəyə 21,6 milyon manat güzəştli kredit verilib*

**Son illər respublikamızda özəl sektorun inkişafı məqsədilə mühüm layihələr həyata keçirilir, investisiya təşviqi mexanizminin tətbiqi uğurla davam etdirilir, iş adamlarının xərclərinin azalması üçün onlara prioritet sahələr üzrə güzəştli kreditlərin ayrılması diqqətdə saxlanılır.**

Güzəştli kreditlər qeyri-neft sektorunda sənaye istehsalı və emalı, o cümlədən aqrar emal, kənd təsərrüfatı, anbar kompleksləri, logistika xidməti, akvakultura, yaşıl və innovasiya yönümlü layihələrin icrasına yönəldilir. Sahibkarlığın İnkişafı Fondu İdarə Heyətinin sədri Osman Xaliyevin sözlərinə görə, qurum 2002-ci ildən indiyədək 49 min 500 layihəyə, ümumilikdə, 3,2 milyard manat məbləğində güzəştli kredit verib, 2022-ci ildən isə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında investisiya layihələri həyata keçirən sahibkarlara 10 layihə üzrə 21,6 milyon manat güzəştli kredit ayırıb.

Azad edilmiş ərazilərdə fəaliyyət göstərən sahibkarların bank və bank olmayan kredit təşkilatlarından əldə etdikləri vəsaitin 90 faizədək hissəsinə dövlət zəmanətinin verilməsi qərara alınıb. Bu kreditlər üçün 15 faiz dərəcəsi həddi müəyyənləşdirilib. Bunun da 10 faizinin fondda subsidiyalaşdırılması nəzərdə tutulub. Eyni zamanda, ayrılan kreditə 36 aya qədər güzəşt müddəti tətbiq edilib.



Fond Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında icra ediləcək layihələr üçün kommersiya bankından alınan kreditə dövlət zəmanətinin də reallaşdırır. Bu cür layihələr üzrə 3 il ərzində faiz subsidiyalarının ödənilməsini gerçəkləşdirir. Məsələn, belə layihələr sırasında minatəmizləmə qurğularının istehsalı və işğaldan azad edilmiş ərazilərdə istifadəsi nəzərdə tutulur. Bu həm ətraf mühit, həm də sosial məsuliyyət baxımından mühüm önəm daşıyır.

Sahibkarlığın İnkişafı Fondu artıq cari il fevralın 1-dən bu mexanizm əsasında fəaliyyət göstərir və proses elektron platforma vasitəsilə həyata keçirilir. Yəni həm sahibkar, həm bank, həm də fond bütün müraciətlərin baxılması və cavablandırılması, zəmanətin təmin edilməsi, hesabatlığın təşkil olunması kimi məsələlər elektron platforma ilə gerçəkləşdirilir.

Qurum fəaliyyətində ətraf mühit, sosial və korporativ meyarlara diqqət yetirən müəssisələrlə əməkdaşlığı dərinləşdirməyi hədəfləyir. Eyni zamanda, prioritet istiqamətlər sırasında "yaşıl layihə"lərin maliyyələşdirilməsini də diqqətdə saxlayır. Bu isə fondun fəaliyyətində həm dəstək mexanizmlərinin şaxələndirilməsindən, həm də ümumi iqtisadiyyatda baş verən trendlərlə uzlaşmanın gerçəkləşdirilməsindən xəbər verir. Məsələn, son 2 ildə ətraf mühitinin mühafizəsi, emissiya tullantılarının atmosferə buraxılmasının azaldılması, "yaşıl" texnologiyalara dair layihələrə daha çox diqqət yetirilməsi məhz belə bir yanaşmanın əyani nümunəsidir.

Xatırladaq ki, fond indiyədək istehsal müəssisələrində günəş panellərinin quraşdırılması, elektrik doldurma stansiyalarının yaradılması kimi 5 "yaşıl" layihəyə 3,6 milyon manat dəyərində güzəştli kredit verib.

## Nəzarət-kassa aparatları yeniləşdirilir

**Dövlət Vergi Xidməti ölkədə yeni nəsil nəzarət-kassa aparatlarına keçilməsini davam etdirir. Xidmətdən aldığımız məlumata görə, indiyədək respublika ərazisində 100 min 637 ədəd müasir NKA quraşdırılıb.**



Bu cür NKA-dan istifadə hesablaşmaların daha şəffaf aparılmasına, malların qanunsuz dövriyyəsinin qarşısının alınmasına və dövriyyəyə nəzarətin təmin edilməsinə imkan yaradıb. Cari ilin 8 ayında yeni nəsil NKA-lar vasitəsilə qeydə alınan dövriyyə 15,6 milyard manatdan artıq olub ki, bu da 2023-cü ilin müvafiq dövrü ilə müqayisədə 1,4 milyard manatdan, yaxud 10,2 faizdən çoxdur.

## Azad yaylaqlarımızda 190 min arı ailəsi var

**Bu il Azərbaycanın işğaldan azad edilmiş ərazilərində yerləşən yaylaqlara 190 min arı ailəsi aparılıb. Bunun da 130 mini Kəlbəcərə köçürülüb.**



Kənd Təsərrüfatı Nazirliyinin ictimaiyyətlə əlaqələr və informasiya təminatı şöbəsinin müdiri Vüqar Hüseynov deyib ki, mövsüm ərzində bölgələrə, o cümlədən işğaldan azad edilmiş Xocavənd, Hadrud, Zəngilan, Kəlbəcər, Qubadlı və digər yaylaq ərazilərinə 4217 arıçılıq təsərrüfatı köçürülüb. Həmin təsərrüfatların məhsulları sentyabrın 9-dan Bakıda Kənd Təsərrüfatı Nazirliyi və "Azərbaycan Arıçılar Assosiasiyası" İctimai Birliyinin birgə təşkilatçılığı ilə keçirilən 24-cü respublika sərgi-satış yarmarkasında təqdim edilir.

*Səhifəni hazırladılar:*
*Vaqif BAYRAMOV,*
*Mirbağır YAQUBZADƏ*
*XQ*




## “Yaşıl dünya” naminə həmrəylik



# Su təkcə həyatı göyərtmir, həm də bolluq yaradır

## *Ölkənin ərzaq təhlükəsizliyi su təchizatı ilə möhkəmləndirilir*

**Ölkəmizdə etibarlı su təchizatına nail olunması dövlət siyasətinin prioritet istiqamətlərindən biridir. Son illərdə bu istiqamətdə çoxsaylı layihələrin gerçəkləşdirilməsində də əsas məqsəd sahənin daha da inkişaf etdirilməsidir. Aqrar sektorda müasir çağırışlara cavab verən islahatların dərinləşdirilməsi, respublikaya kənd təsərrüfatının inkişafını sürətləndirəcək yeni texnologiyaların, avadanlıqların və investisiyaların cəlb edilməsi kimi önəmli hədəflər sırasında Azərbaycanın içməli su təminatının gücləndirilməsi də öndə dayanır. Dünyanın bir sıra yeni qlobal çağırışlarla üz-üzə qaldığı indiki dövrdə su mənbələrinin çatışmazlığı da beynəlxalq aləmi ciddi narahat edir. Buna görə də hazırda etibarlı su təminatı, su ehtiyatlarından səmərəli şəkildə istifadə dünya ölkələri qarşısında duran strateji istiqamətdir. Azərbaycan da bu baxımdan istisna deyil.**



Su ehtiyatlarının idarə edilməsi həm ekoloji baxımdan, həm də ölkənin su təhlükəsizliyinin təmin edilməsində mühüm rol oynayır. Bir sözlə, su təhlükəsizliyi, etibarlı və davamlı su təchizatına nail olunması respublikamızda dövlət səviyyəsində həllini tapan problemlərdəndir.

Prezident İlham Əliyevin rəhbərliyi ilə ötən illərdə ölkəmizdə müəyyənləşdirilən təxirəsalınmaz tədbirlər çərçivəsində çoxsaylı layihələr həyata keçirilib, su ehtiyatlarından səmərəli istifadənin və su təsərrüfatı obyektlərinin idarə olunmasının təkmilləşdirilməsi, müasir tələblərə cavab verən meliorasiya və su təsərrüfatı obyektlərinin qurulması üçün ardıcıl işlər görülüb. Məsələn, ötən il dövlət başçısı tərəfindən Bakı şəhərinin və ətraf ərazilərin su təminatının yaxşılaşdırılması məqsədilə dəniz suyunun duzsuzlaşdırılması yolu ilə içməli su istehsalı sahəsində pilot layihənin həyata keçirilməsi ilə bağlı sərəncam imzalanıb.

Ümumiyyətlə, reallaşdırılan tədbirlər nəticəsində su təsərrüfatı sistemində yüksək göstəricilər qeydə alınıb. Təkcə keçən il magistral kanallar üzrə su limitləri, respublikanin çayları üzrə suvarma dövründə rayonlararası su bölgüsü cədvəlləri hazırlanaraq aidiyyəti üzrə təsdiqlənib. Vegetasiya suvarması dövrünün əvvəlinə əsasən, su anbarlarında 13,3 milyard kubmetr həcmində su toplanılıb.

Respublikada suvarılan torpaqların deqradasiyasına qarşı mübarizə məqsədilə suvarılan torpaqlarda şorlasmanın, qrunt sularının səviyyəsinin və minerallaşma dərəcəsinin dəyişməsi üzərində nəzarət işləri aparılıb, həmin sahələrin meliorativ vəziyyəti qiymətləndirilib, meliorativ tədbirlərə ehtiyac duyulan torpaqlar müəyyənləşdirilib, onların yaxşılaşdırılması üzrə layihələr hazırlanıb, irriqasiya və meliorasiya sistemlərinin istismarı gerçəkləşdirilib.

Qeyd edilənlərə baxmayaraq, hazırda mövcud sahədə bir sıra problemlər ciddi narahatlıq doğurur. Belə ki, əhalinin ərzaq və kənd təsərrüfatı məhsulları ilə təminatında torpaq və su ehtiyatlarından səmərəli istifadə ölkəmizdə daim diqqətdə saxlanılır. Respublikamızda əkinçilik üçün yararlı torpaq ehtiyatının məhdud olması, eyni zamanda, yüksək məhsuldarlığın əldə edilməsini şərtləndirən suvarma suyunun tələbatı ödəməməsi bu amilin önəmini daha da artırır.

Havaların quraq keçməsi nəticəsində su ehtiyatının azalması bu gün dünyada XXI əsrin ən böyük problemlərindən biri kimi ciddi narahatlıq yaradır. Hətta son zamanlar, “yaxın gələcəkdə ölkələr arasında su müharibələri olacaq” proqnozu da tədricən öz təsdiqini tapmağa başlayır. Artıq ölkələrarası çayların su ehtiyatlarının bölünməsi üzərində, qlobal müstəvidə olmasa da, lokal münaqişələr baş verir. Təbii ki, bu cür məsələlər ölkəmizi də narahat edir. Çünki respublikamızın əsas su arteriyası sayılan Kür və Arazın su ehtiyatları da getdikcə azalır. Qeyd edim ki, bu çayların mənsəbi ölkədən kənarda formalaşır ki, bu da su asılığımızı daha da artırır.

Respublikamızda daha çox quraqlıq səbəbindən yerüstü su ehtiyatlarının azalması və suvarma zamanı sudan istifadədə həddən çox israfçılığa yol verilməsi əkin sahələrinin suvarma suyu ilə təminatını daha da çətinləşdirib. Belə bir vəziyyət isə suvarma suyunun həcminin düzgün müəyyənləşdirilməsi, suvarma zamanı itkiyə gedən suyun miqdarının minumuma endirilməsi, torpaqların ekoloji-meliorativ vəziyyətinin yaxşılaşdırılması, suvarma və meliorasiya sistemlərinin iş fəaliyyətinin yenidən təşkil olunması, tərəvəzçilik və əkinçilikdə ən müasir texnologiyaların tətbiqinin diqqətdə saxlanılması zərurətini aktuallaşdırıb.

Fikrimi əsaslandırmaq üçün bir neçə kənd təsərrüfatı bitkisindən yüksək məhsuldarlıq əldə etmək üçün onların rotasiya dövründəki suya olan tələbatına nəzər salaq. Mütəxəssislərin fikrincə, kənd təsərrüfatı məhsullarının istehsalında ən çox su sərfiyyatı suvarma şəraitində becərilən çoxillik əkinlər, pambıq, tütün, tərəvəz, çəltik, bostan, qarğıdalı, yonca bitkilərində və qismən payızlıq taxılaltı əkinlərdə nəzərə çarpır. Məsələn, əgər taxılaltı (buğda, arpa, qarabaşaq) əkin sahələrinin hər hektarından 50 sentner məhsul götürmək planlaşdırılsa, atmosfer yağıntıları nəzərə alınmaqla 5 min kubmetr suvarma suyuna ehtiyac var. Pambıq sahələrində isə yüksək məhsuldarlıq əldə etmək istənilirsə, vegetasiya dövründə bütün aqrotexnoloji şərtləri yerinə yetirmək zəruridir. Belə olan halda bu bitkinin becərilməsi üçün hektara 8–10 min kubmetr suvarma suyu lazım gəlir.

Orta bir rəqəm götürülsə, becərilən bitkilərin normal inkişafı üçün atmosfer yağıntıları hesabına yaranan su ehtiyatının həcmi vegetasiya dövründə ən azı 3 – 3,5 min kubmetr təşkil etməlidir. Əgər nəzərə alınsa ki, ölkəmizdə bu həcmdə su ehtiyatı təbii halda və ya vegetasiya dövründən əvvəl, ya da ondan sonrakı dövrlərdə (qış, nisbətən ilkin yaz və son payız aylarında) yaranır, onda becərilən bitkilərin məhsuldarlığında suvarma suyundan istifadə olunmazsa təbii ki, azalma baş verir. Belə halda, sual ortaya çıxır: Məhsuldarlığın aşağı düşməsinin qarşısını almaq üçün nə etmək lazımdır?

Apardığımız araşdırmalar da deməyə əsas verir ki, əkin sahələrinin ölçülərinin aqrotexnoloji baxımdan kiçik və səmərəsiz olması, strukturunun ildən-ilə elmi əsaslandırma olmadan dəyişdirilməsi, suvarma sistemlərinin torpaqdan istifadə strukturuna uyğunlaşdırılmaması, iri torpaq sahələrinin bölünməsi, bunun nəticəsində yaranan sahələrarası yolların və təsərrüfatdaxili kanalların uzunluğunun artması və s. məhsuldarlığa mənfi təsir göstərir.

Suvarmada su ehtiyatlarından istifadənin göstəricilərinin təhlili onu deməyə əsas verir ki, bütün bu problemlərin kökündə duran əsas məsələ ölkədə aparılan torpaq islahatından sonra, bazar iqtisadiyyatının formalaşması dövrünün əvvəllərindən başlayaraq həyata keçirilən institusional tədbirlər və qəbul edilən qanunvericilik bazası, əsas etibarilə mövcud suvarma və meliorativ infrastrukturun dağılmadan qorunması və lazımi səviyyədə saxlanması baxımından axtarış xarakteri daşıyıb və xırda təsərrüfatçılıq şəraitində mövcud suvarma sistemlərindən və su ehtiyatlarından necə istifadə oluncağı dərindən təhlil edilməyib. Bu isə ölkədə uzun müddət mövcud mərkəzləşmiş idarəetmə fonunda xırda torpaq mülkiyyətçiliyinə əsaslanan kənd təsərrüfatının təşkili sahəsindəki təcrübəsizlikdən, fermerlərin torpaq sahələrindən düzgün istifadə etmək üçün zəruri biliklərinin olmamasından irəli gəlib.

Fikrimcə, ilkin mərkələdə torpaq istifadəçiliyində sudan qənaətlə istifadənin təşkili ilə bağlı kompleks yanaşma yollarının təhlil olunması, pay torpaqlarının pərakəndəliyi şəraitinin nəzərə alınması və bunun əsasında suvarma və meliorasiya sistemlərinin təkmilləşdirilməsi mövcud vəziyyəti dəyişə bilər. Amma indiki su resurslarının çatışmazlığı şəraitində əsas çıxış yolu kiçik fermer təsərrüfatlarının birləşərək birgə iş birliyi sisteminin yaradılması, müasir suvarma texnologiyalarına üstünlük veilməsi ilə mümkündür.

***Teymur NİZAMZADƏ,***
***Bakı Dövlət Universitetinin dosenti, coğrafiya üzrə fəlsəfə doktoru***

# 6 ayda makroiqtisadi dayanıqlılıq



**“Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası”nda nəzərdə tutulan tədbirlərin tam, vaxtında və səmərəli icrasının təmin edilməsi və aidiyyəti dövlət orqanlarının fəaliyyətinin əlaqələndirilməsi məqsədilə Nazirlər Kabinetinin müvafiq sərəncamı ilə yaradılan “Makroiqtisadi dayanıqlılıq” üzrə İşçi qrupun növbəti iclası keçirilib.**

Toplantıda strategiyanın 2024-cü il üçün nəzərdə tutulan hədəfləri çərçivəsində birinci yarımillik üzrə görülən işlərin monitorinq və qiymətləndirilməsinə dair müzakirə aparılıb. İşçi qrupun sədri, Mərkəzi Bank sədrinin birinci müavini Rəşad Orucov adıçəkilən strategiya istiqamətində təmsil etdiyi qurumun həyata keçirdiyi tədbirlər barədə məlumat verib.

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi icraçı direktorunun və İşçi qrupun sədrinin müavini Ayaz Müseyibov “Daxili və xarici təsirlərə dayanıqlılıq” məqsədi üzrə hesabatın 3 fəaliyyət istiqaməti çərçivəsində təsdiqlənən 15 tədbirin cari ilin birinci yarısı üzrə monitorinq və qiymətləndirmə nəticələrinə dair ətraflı məlumatı diqqətə çatdırıb. O, eyni zamanda, tədbirlərin icrası istiqamətində müəyyənləşdirilən çağırışları və tövsiyələri təqdim edib, ilin sonunadək nəzərdə tutulan layihələrin sürətlə həyata keçirilməsi ilə bağlı fikirlərini bölüşüb.

# BMT rəsmisi Azərbaycanın COP29 hazırlığını yüksək dəyərləndirib

**“Azərbaycanın Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasını– COP29-u uğurla həyata keçirmək üçün çox yaxşı bir vəziyyətdə olduğuna inanıram”. Bunu mediaya açıqlamasında BMT-nin müvafiq Konvensiyasının konfrans işləri şöbəsinin direktoru Vasim Mir deyib.**



COP29 Azərbaycan Əməliyyat Şirkəti ilə birgə Bakı Olimpiya Stadionunun iqlim konfransına hazırlanması istiqamətində sıx işlədiklərini diqqətə çatdıran BMT rəsmisi deyib: “Yanvar ayında Bakıya faktaraşdırıcı missiyanın rəhbəri kimi gəlmişdim və həmin vaxt biz COP29-un keçirilməsi üçün müxtəlif yerlərə baxdıq, sonda isə yekdilliklə ən uyğun yerin Olimpiya Stadionu olduğu qərarına gəldik. Həmin vaxtdan etibarən biz COP29 Azərbaycan Əməliyyat Şirkəti ilə Olimpiya Stadionunun COP-a hazırlanması istiqamətində sıx işləyirik. Bu gün isə görülən işləri qiymətləndirmək üçün buradayam. Ötən müddət ərzində məkanda hazırlıq baxımından xeyli irəliləyiş əldə olunub. Açığı, Azərbaycanın COP29-u uğurla həyata keçirmək üçün çox yaxşı bir vəziyyətdə olduğuna inanıram”.

V. Mir, həmçinin bildirib ki, hazırda onların nəqliyyat, qidalanma, təhlükəsizlik, yaşayış yerləri və COP üçün yerinə yetirilməsi lazım olan bütün istiqamətlər üzrə inkişaf planları mövcuddur.

# SES-lər “təmiz” tələblərə uyğunlaşdırılır

**Son on illikdə Kür çayında, eləcə də Xəzər dənizində su səviyyəsinin kəskin şəkildə aşağı düşməsi ilə 800 meqavatlıq “Şimal”, 780 meqavatlıq “Cənub” və 525 meqavatlıq “Sumqayıt” elektrik stansiyalarının (ES) fəaliyyəti dayanmaq təhlükəsi ilə üzləşmişdi. Buna görə də Prezident İlham Əliyevin tapşırığına əsasən, 2019-cu ildə “AzərEnerji” genişmiqyaslı layihələrə start verdi.**



Soyutma suyunu daha dərin və soyuq hissədən götürmək üçün “Sumqayıt” ES-də 750 metr, Şüvəlan qəsəbəsində yerləşən “Şimal” ES-də isə 540 metr uzunluğunda estakada və nasos stansiyaları tikildi. 2021-ci ildə “Sumqayıt”, 2023-cü ildə isə “Şimal” estakada və nasos stansiyaları istismara verildi. 2020-ci ildə estakadaların tikintisinə başlanılan vaxtdan indiyədək dənizdə su səviyyəsinin düşməsi daha da sürətlənib və 30–40 santimetr azalma qeydə alınıb.

Xəzər dənizi ilə bərabər Kür çayında da su səviyyəsinin düşməsi nəticəsində ölkənin üçüncü böyük elektrk stansiyası olan “Cənub” Elektrik Stansiyasını soyutma suyu ilə təmin etmək üçün su aşıran qurğu tikilib və nəticədə bu stansiya da dayanmaq təhlükəsindən xilas edilib.

Hazırda “AzərEnerji” adları çəkilən “Şimal”, “Cənub” və “Sumqayıt” elektrik stansiyalarının işini “yaşıl” enerji konsepsiyasına uyğunlaşdırır. Belə ki, ölkədə yeni tikilən və tikiləcək bərpaolunan enerji mənbələrinin enerjisistemə inteqrasiyası və tezliyin tənzimlənməsini təşkil etməklə bu 3 elektrik stansiyasında yeni rəqəmsal tətbiqlərin icrasına başlanılıb.



# Naxçıvanın “yaşıl” gücü artıb

**Naxçıvan Muxtar Respublikasında bu ilin 8 ayında istehsal olunan ümumi elektrik enerjisinin 55 faizi alternativ və bərpaolunan enerji mənbələrinin payına düşüb.**

Muxtar respublikanın Dövlət Energetika Xidmətinin məlumatına əsasən, hesabat dövründə istehsal olunan ümumi elektrik enerjisinin 45 faizi istilik, 42 faizi su, 13 faizi isə günəş elektrik stansiyalarında istehsal olunaraq elektrik şəbəkələrinə ötürülüb. Ötən ilin müvafiq dövrü ilə müqayisədə alternativ və bərpaolunan enerji mənbələrində istehsal edilən elektrik enerjisinin həcmi 20 faizə yaxın artıb.

# Bank Respublika Qlobal Sazişə qoşulub

**Sosial məsuliyyət prinsiplərinə sadiq qalan, ölkəmizin aparıcı banklarından biri olan Bank Respublika Birləşmiş Millətlər Təşkilatının Qlobal Sazişinə qoşulub.**




BMT-nin Qlobal Sazişi dünyada davamlı inkişaf və sosial məsuliyyət sahəsində ən böyük beynəlxalq təşəbbüsdür. Qlobal Sazişin iştirakçıları aparıcı xarici maliyyə institutları da daxil olmaqla 160 ölkədən 20 mindən çox təşkilatdır.

Bank Respublika BMT-nin Qlobal Sazişinə qoşulmaqla davamlı inkişaf və sosial məsuliyyət prinsiplərinə sadiqliyini nümayiş etdirir. Qlobal Sazişin 10 prinsipini dəstəkləməyi öhdəsinə götürən adıçəkilən bank insan hüquqları, ekologiya, sosial məsuliyyət sahəsində fəaliyyət proqramının təkmilləşdirilməsi, həmçinin BMT-nin 17 Dayanıqlı İnkişaf Məqsədlərinin həyata keçirilməsi istiqamətində aktiv fəaliyyət göstərir.

Qeyd edək ki, Bank Respublika hazırda “yaşıl” maliyyənin inkişafı, ətraf mühitin qorunması, məişət tullantılarının təkrar emala yönəldilməsi ilə bağlı layihələr, eləcə də bir çox başqa təşəbbüslər üzərində fəal iş aparır.

*Səhifəni hazırladılar:*
***Vaqif BAYRAMOV,***
***Mirbağır YAQUBZADƏ***
***XQ***

Oxucularımız soruşurlar

# Özəl mülkiyyət münaqişələri və əmlak mübahisələri necə həll edilir?

## *Vətəndaşların ən çox müraciət etdikləri hüquqi xidmət*

**Son illər notariat kontorlarına edilən müraciətlərin böyük əksəriyyəti əmlak məsələləri ilə bağlıdır. Redaksiyaya Sumqayıtdan müraciət edən oxucumuz Mulatif Qədiməliyev özəl mülkiyyətin sənədləşdirilməsi qaydaları ilə maraqlanırdı. Digər oxucularımızın da daşınmaz əmlakın, nəqliyyat vasitəsinin, yaxud onların addan-ada keçirilməsi, vəsiyyətnamə üzrə vərəsəlik hüququ haqqında şəhadətnamənin verilməsinin yeni prosedur qaydaları ilə bağlı suallarına Bakı şəhəri 14 saylı Notariat ofisinin notariusu Elmar Əliyev aydınlıq gətirir.**

**E.Əliyev əvvəlcə notariat xidmətinin ölkənin hüquq sistemində oynadığı rolundan söz açdı:**

– Bazar iqtisadiyyatı mexanizmlərinə vətəndaşların inam və etibarının artırılmasında, xarici sərmayələrin ölkəyə cəlb edilməsində notariat xidməti də özünün əvəzolunmaz töhfəsini verir. Danılmaz faktdır ki, Azərbaycanda əlverişli investisiya mühitinin yaradılmasında hüquqi prosedurların şəffaflığı və müqavilə öhdəliklərinin etibarlılığı mühüm rol oynayır. Daşınmaz əmlakla bağlı əqdlərin notarial qaydada təsdiqi tərəflərin hüquqlarının müdafiəsinə təminat verməklə yanaşı, bazar münasibətlərinin tənzimlənməsi və mülkiyyət hüquqlarının qorunması kontekstində son dərəcə vacib olan bu əqdlərin qanuniliyinin təminatçısı kimi çıxış edir. Onu da qeyd edim ki, notariat ədliyyə sisteminin mühüm elementi kimi iqtisadi sahədə, xüsusən də daim dəyişən qanunvericilik şəraitində asayişin möhkəmləndirilməsinə də kömək edir. Xüsusilə daşınmaz əmlak kimi mühüm sahədə aparılan əməliyyatların ixtisaslı notariat qeydiyyatının olması korrupsiya risklərinin azaldılmasına, hüquqi müəyyənliyin gücləndirilməsinə və əhalinin ümumi hüquq mədəniyyətinin yüksəldilməsinə kömək edir.



**– Sirr deyil ki, bu gün notariat xidmətinə müraciətlərin çoxu məhz daşınmaz əmlakla bağlı hüquqi prosedurla bağlıdır. Bu sahədə yeni qaydalar barədə danışardınız.**

– Daşınmaz əmlakla bağlı əməliyyatların etibarlılığının və şəffaflığının təmin edilməsi kontekstində notariat xidmətinin inkişafı mühüm əhəmiyyət kəsb edir. Bu, biznesin aparılması üçün əlverişli iqlimin yaradılması və ölkənin etibarlı tərəfdaş kimi, beynəlxalq imicinin gücləndirilməsi zərurəti ilə bağlıdır. Azərbaycanda daşınmaz əmlakın alqı-satqısı müqaviləsinin rəsmiləşdirilməsi prosesi Mülki Məcəllə, Daşınmaz Əmlakın Dövlət Reyestri haqqında Qanun və "Notariat haqqında" Qanun kimi kompleks hüquqi aktlarla tənzimlənir. Bu prosedur əməliyyatın qanuniliyini, tərəflərin hüquqlarının müdafiəsini və daşınmaz əmlaka mülkiyyət hüququnun verilməsinin qanuniliyini təmin edən bazadır. Hüquqi nöqteyi-nəzərdən bu prosesdə notarius əməliyyatın qanuniliyinin təminatçısı kimi çıxış edir.

Azərbaycan qanunvericiliyinə görə, daşınmaz əmlakın alqı-satqısı ilə bağlı istənilən müqavilə notarial qaydada təsdiq edilməlidir. Yeni qaydalara görə, notarius təkcə müqavilənin özünü təsdiq etmir, həm də tərəflərin hüquq qabiliyyətini, əmlakın hüquqi təmizliyini, əmlakın yüklülüyünün olub-olmamasını yoxlayır. Bu, mümkün hüquqi mübahisələr riskini minimuma endirməyə, tərəflərin hüquqi müdafiəsini və əməliyyatın mövcud qanunvericiliyə uyğunluğunu təmin etməyə imkan verir. Notariat bir neçə vacib funksiyanı yerinə yetirir. Birincisi, notarius satıcının əmlaka dair sərəncam vermək hüququnun olub-olmamasını yoxlayır və əməliyyata mane ola biləcək həbslərin, girovların və ya digər qanuni məhdudiyyətlərin olmadığını təsdiq edir. İkincisi, o, hər iki tərəfin maraqlarına nəzarət edir, müqavilənin hüquqi təmizliyini yoluna qoyur. Bütün bunlar gələcəkdə hüquqi iddiaların riskini əhəmiyyətli dərəcədə azaldır və hər iki tərəf üçün təminat rolunu oynayır.

**– Elmar müəllim, bəs daşınmaz əmlakın alqı-satqısı ilə bağlı müqavilənin notarial qaydada təsdiqlənməsi proseduru necə həyata keçirilir?**

– Birincisi, sənədlərin ilkin yoxlanılmasıdır. Tərəflər notariusa mülkiyyət hüququnu təsdiq edən hüquqmüəyyənedici sənədi, ehtiyac olduqda, kadastr planı kimi zəruri sənədləri, habelə onların fəaliyyət qabiliyyətini təsdiq edən digər sənədləri təqdim edirlər. İkincisi, obyektin hüquqi ekspertizasıdır. Notarius əmlakı yoxlayır, yüklülüyün (məsələn, həbs, girov) mövcudluğunu müəyyən edir, əmlakın hüquqi tarixini, həmçinin memarlıq abidəsi sayılan binada yerləşib-yerləşməməsini araşdırır. Üçüncüsü, müqavilənin tərtib edilməsi, əmlakın dəyərinin alıcı tərəfindən, notariusun bankda açdığı depozit hesabı vasitəsilə satıcıya ötürülməsidir.

Təqdim edilmiş sənədlər əsasında notarius alqı-satqı müqaviləsini tərtib edir. Müqavilədə alqı-satqı obyekti, onun dəyəri, tərəflərin hüquq və vəzifələri, hesablaşmalar, əmlakın təhvil verilmə qaydası, eyni zamanda əmlak təqdim edildikdə sadələşdirilmiş vergi öhdəliyi yaranarsa, əmlakın yerləşdiyi zona üzrə hesablanmış sadələşdirilmiş vergi məbləği kimi vacib şərtlər qeyd olunur. Dördüncü isə notarial təsdiqdir. Əqdin bütün şərtləri razılaşdırıldıqdan və yoxlama başa çatdıqdan sonra notarius müqaviləni təsdiq edir ki, bu da ona hüquqi qüvvə verir. Bu andan əqd başa çatmış sayılır və tərəflər öz öhdəliklərini yerinə yetirməyə borcludurlar. Daşınmaz əmlakın notariat qaydasında təsdiq edilmiş alqı-satqı müqaviləsi tərəflər üçün bir sıra hüquqi nəticələrin yaranmasına səbəb olur. Birincisi, müqavilə bağlandığı andan alıcı əmlakın təhvil verilməsini tələb etmək, satıcı isə ödəniş almaq hüququnu əldə edir. İkincisi, müqavilənin dövlət daşınmaz əmlak reyestrində qeydiyyata alınması mülkiyyət hüququnun ötürülməsi prosesini tamamlayır. Bu, alıcıya rəsmi olaraq mülkiyyətçi kimi tanınmaq və əmlaka öz mülahizəsinə əsasən sərəncam vermək imkanı yaradır.

**– Dövlət idarələrində, xüsusilə hüquq-mühafizə, eləcə də notariat xidmətində vətəndaş məmnunluğunun təmin edilməsi günün tələblərindəndir. Bu sahədə xidmətin səviyyəsini daha da yüksəltmək üçün hansı işlər görülür?**

– Bəli, müxtəlif sənədləri əldə etmək üçün bizə müraciət edən vətəndaşlara daha operativ və rahat xidmət göstərməkdən ötrü, ilk növbədə, əməkdaşlarımızın peşəkarlıq səviyyəsinə diqqət yetiririk. Nəzərə alırıq ki, mənzilin, daşınmaz əmlakın bağışlanması, yaxud mülkiyyət hüququnun ötürülməsi prosesi bəzən əsəb gərginliyi ilə müşayiət olunan prosesdir. Əlbəttə, misal üçün, daşınmaz əmlakın alqı-satqısı müqaviləsinin tərtib edilməsi zamanı qanunvericilik aktlarına ciddi əməl olunmaqla yanaşı, vətəndaşlarla mədəni davranış, xoş rəftar da az əhəmiyyət kəsb eləmir. Dediyimiz münasibətlər həm də notarius əməliyyatının hüquqi saflığının təmin edilməsinə söykənir. Göstərilən xidmətin rahatlığını təmin edən amillərdən biri də onlayn müraciət formasıdır. Müasir texnologiyanın yaratdığı bu imkandan hər iki tərəf məmnundur. Yəni vətəndaşların xidmətimizdən məmnunluğunun maksimum təmin edilməsi işimizin əsas qayəsidir.

*Hazırladı:*
*İ.HƏSƏNQALA*
*XQ*

# Türk dillərinin ortaq əlifbası həyata vəsiqə aldı



**Sentyabrın 9-dan 11-dək Bakıda Beynəlxalq Türk Akademiyası və Türk Dil Qurumu tərəfindən təşkil olunan "Türk Dünyası Ortaq Əlifba Komissiyası"nın üçüncü iclası keçirilib. Bu barədə Beynəlxalq Türk Akademiyasının və Türk Dil Qurumunun Ortaq Türk Əlifbasına dair mətbuata birgə açıqlamasında bildirilib.**

Qeyd edilib ki, Türk Dövlətləri Təşkilatı tərəfindən təsis olunmuş Türk Dünyası Ortaq Əlifba Komissiyasının üzvlərinin iştirakı ilə keçirilən önəmli iclasın əsas məqsədi bu sahədə əldə edilən bilik və təcrübələrin paylaşılması və Komissiyanın ikiillik təcrübəsinə əsaslanaraq Türk dilləri üçün ortaq əlifba layihəsi üzərində işlərin yekunlaşdırılması idi.

İclasda öncə 1991-ci ildə alimlər tərəfindən təklif olunan latın əsaslı Ortaq Türk Əlifbası layihəsi hərtərəfli şəkildə nəzərdən keçirilib. Komissiya üzvləri geniş müzakirələr apararaq bu layihədə diqqət yetirilməsi gərəkli olan məqamları müəyyənləşdirib.

Müzakirələr nəticəsində 34 hərfdən ibarət Ortaq Türk Əlifbası üzərində ümumi razılıq əldə olunub. Əlifbadakı hər bir hərfin Türk dillərində mövcud olan müxtəlif fonemləri əks etdirməsinə xüsusi diqqət edilib.

Açıqlamada bildirilir: "İclasın işinin uğurla başa çatması tarixi məna daşımaqdadır. Ortaq Türk Əlifbasının yaradılması Türk xalqları arasında qarşılıqlı anlayış və əməkdaşlığı möhkəmləndirməklə birlikdə onların dillərinin qorunmasına da öz töhfəsini verəcək. Beynəlxalq Türk Akademiyası və Türk Dil Qurumu bu prosesə dəstək verən Türk dövlətlərinin rəhbərliyinə və əməyi keçən bütün komissiya üzvlərinə dərin təşəkkürünü bildirirlər. Bütün müvafiq qurumlardan təklif olunan Ortaq Türk Əlifbasının tətbiq olunmasını fəal şəkildə dəstəkləmələrini xahiş edirik".

# Azərbaycanı Ukraynada tanıdan alim

**Kiyev Əqli Mülkiyyət və Hüquq Milli Universitetinin professoru, Ukraynanın Əməkdar təhsil işçisi, Ukrayna Azərbaycanlıları Alimlər Şurası İctimai təşkilatının rəhbəri, Ukrayna Ali Təhsil Milli Elmlər Akademiyasının akademiki Arif Cəmil oğlu Quliyevdir.**

O, 5 monoqrafiya, 2 dərslik, 2 tədris vəsaiti, 150-dən çox elmi və publisistik məqalə müəllifidir. Xarici əlaqələr hüququ, beynəlxalq humanitar hüququ, beynəlxalq təşkilatlar hüququ, diplomatik və konsulluq xidməti, diplomatik protokol və etiketi və s. fənnləri tədris edir.



Arif müəllim Bakıya gəlişinin səbəbini Xaricdə Yaşayan Azərbaycanlı Alimlərin Forumuna dəvət alması ilə əlaqələndirdi. Bu forum sentyabrın 9–11-i tarixlərində Bakıda Gülüstan sarayında keçirilib və Arif Quliyev də orada yaxından iştirak edib. Qonağımız əminliklə bildirdi ki, bu forum Azərbaycan elminin inkişafına töhfə verəcək, xaricdə yaşayan alimlər arasında körpü yaradacaq.

Müsahibim Bərdə rayonunun Böyük Qacar kəndində dünyaya göz açıb. Bakı Dövlət Universitetinin tarix fakültəsini bitirib. Gürcüstanda və Naxçıvanda həqiqi hərbi xidmət keçib. Sonra Bərdədə Komsomol Komitəsinin katibi olub, partiya komitəsində məsul vəzifələrdə çalışıb.

**Arif müəllimin ölkəmizin dünyada tanıdılmasına, dünya ölkələrinin Azərbaycana necə həsəd aparmasına dair fikirləri də maraqlıdır:**

– Mən xaricdə olsam da, ömrüm boyu ölkəmin təbliği ilə məşğul olmuş, imkanlarım daxilində bir sıra işlər görmüşəm. Məsələn, Kiyevdə hərbi kursda olarkən otaq yoldaşlarımdan biri qondarma Sumqayıt hadisələrini nəzərdə tutaraq, Azərbaycan əleyhinə xoşagəlməz söz dedi. Mən əsl həqiqəti ona və digərlərinə izah etdim. Hamısı təkzibedilməz faktlarım qarşısında susdular. O isə doğruları bildikdən sonra üzr istədi. Sonradan həmin ukraynalı ilə hətta ailəvi dostluğumuz yarandı, get-gəlimiz oldu. 1997-ci ildə o, Ukrayna Prezident Administrasiyasının rəhbəri təyin edildi. Onun dəstəyi ilə Ukrayna Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında təhsil aldım. Hətta bir ara – 1998–2001-ci illərdə Bakıda nəşr edilən "Xalq qəzeti"nin Ukrayna üzrə müxbiri işlədim. Bu qəzetdə Ukraynada Azərbaycana olan münasibət, iki ölkə başçılarının əlaqələri, dostluq-qardaşlıq dəyərləri mövzularında yazılarım çap olunurdu. Ukraynalı oxucular məqalələrimi oxuyur, təqdir edirdilər.

Ukrayna Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasınında oxuyanda da Prezident Administrasiyasında departament rəhbəri işləyən bir professor Arif müəllimə irad bildirir, Sumqayıt hadisələrinə görə Azərbaycanı pisləyir. Arif müəllim dedi ki, o dövrlər erməni yalanları dünyanı elə ağuşuna almışdı ki, təmizləmək çətin idi. Amma o professor da həqiqi faktlar qarşısında aciz qoya bilir.

Arif müəllim elmi dərəcələrini asan əldə etməyib. O, 2012-ci ildə terrorizmlə bağlı doktorluq dissertasiyası yazıb. Elmi rəhbəri ona deyib ki, Bakıdakı erməni terroruna dair faktları yerindəcə görməsə, rəy verə bilməz. Onun Azərbaycana gətirib. Şəhidlər Xiyabanından tutmuş erməni vəhşiliyinin nəticələri ilə bağlı olan digər yerlərə aparıb. Faktlarla yerindəcə tanış edib. Bundan sonra müsbət rəy alıb və dissertasiyasını uğurla müdafiə edib.

Professor Ukraynada Azərbaycan naminə gördükləri digər işlərindən də söz açdı.

– Kiyev səfirliyinin yanında Ulu öndər Heydər Əliyevin heykəlinin salınması, diplomat olduğum müddətdə – 2003-cü ildə Ukraynadakı 26 Bakı Komissarı küçəsinin Azərbaycan, Şaumyan küçəsinin isə Bakinski olaraq dəyişdirilməsində müəyyən rolum olub. Qürurla onu da bildirim ki, illərdir ailəmlə məhz Kiyevdəki həmin Azərbaycan küçəsində yaşayıram.

Azərbaycanlı alim Ukrayna Milli Aviasiya Universitetinin Beynəlxalq Əlaqələr İnstitutunda mühazirələr oxuyub. Dost ölkənin təhsilinə verdiyi töhfələrinə görə, Rada tərəfindən 2013-cü ildə ona Əməkdar təhsil işçisi adı verilib. Doktorluq işini müdafiə etdikdən sonra professor adı alıb – bütün bu sənədləri ona şəxsən Ukraynanın təhsil naziri verib.

**Ukraynada diplomat kimi fəaliyyət göstərən Arif Quliyev həmişə Heydər Əliyev ideyalarına sadiq qaldığını diqqətimizə çatdırdı:**

– Dəfələrlə ulu öndər Heydər Əliyevin qarşısında çıxış etmişəm. Mən Heydər Əliyev ideyalarını və bu ideyaların daşıyıcısı olan Prezident İlham Əliyev siyasətini həmişə dəstəkləmişəm. 2023-cü ilin martında "Politika i kultura" jurnalında "İlham Əliyev sabah Azərbaycanının lideri – niyə də yox?" başlıqlı məqaləm çap olunmuşdu. Bir diplomat kimi mən də yaxşı anlayırdım ki, Heydər Əliyevdən sonra Azərbaycanı ayaq üstə saxlaya biləcək lider İlham Əliyevdir.

Ukrayna Milli Akademiyasının akademiki olan Arif müəllim qeyd etdi ki, orada 70-ə yaxın azərbaycanlı alimi bir araya toplayaraq Ukrayna Azərbaycanlıları Alimlər Şurası İctimai təşkilatı yaradıblar və ona rəhbərlik edir.

Dediyinə görə, elmi əlaqələr müxtəlif sahələrdə özünü göstərir. "Gənclərimiz təhsilləri ilə dünyanın bütün ölkələrində Azərbaycana nüfuz qazandırırlar", – deyən Arif müəllim xatırlatdı ki, bu, Ukraynada da belədir: "Biz Ukraynada təhsil alan azərbaycanlılara həmişə dəstək göstəririk. Bu himayə olmalıdır ki, onlar inkişaf etsin, ölkəmizin adını ucalara qaldırsın".

Sonda 105 ilini tamamlamış "Xalq qəzeti"ni xoş ovqatla xatırlayan Arif müəllim əlavə etdi ki, bu qəzet bizə ata ocağını xatırladır: "Bu qəzet dəyərdir, ensiklopediyadır, çoxillik yaddaşdır".

*Rizvan FİKRƏTOĞLU*
*XQ*

Sosial yeniliklər

## "Əmək bazarı" genişlənir

**Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiyanın "Əmək bazarı" işçi qrupunun hesabat iclası keçirilib.**




İclasda işçi qrupunun rəhbəri, əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Anar Kərimov, Komissiyanın katibliyinin rəhbəri, Prezident Administrasiyasının sektor müdiri Vüsal Şıxəliyev, işçi qrupunda təmsil olunan hökumət və qeyri-hökumət qurumlarının nümayəndələri iştirak edib.

Toplantıda işçi qrupunun "2024-cü il üzrə Fəaliyyət Planı"nın icrası, habelə Dünya Bankı Qrupunun "Business Ready" hesabatının "İşçi qüvvəsi" indikatoru ilə bağlı müvafiq sahədə təkmilləşdirmələrin aparılmasına dair "2024-cü il üzrə Yol Xəritəsi" üzrə bu ilin birinci yarımilliyində görülmüş işlər müzakirə olunub.

Əmək bazarının inkişaf etdirilməsi, əmək qanunvericiliyinin təkmilləşdirilməsi, aktiv əmək bazarı proqramlarının genişləndirilməsi və işçi qüvvəsinin bacarıqlarının artırılması istiqamətlərində atılan addımlar qeyd olunub. Əmək Bazarı və Sosial Müdafiə Məsələləri üzrə Milli Observatoriya tərəfindən əmək bazarında ali təhsilli işçilər üzrə aparılmış müqayisəli təhlillərə dair təqdimat edilib.

## Bölgələrdə peşə hazırlığı mərkəzləri

**Regionlarda işsiz və işaxtaran şəxslər üçün peşə hazırlığı infrastrukturunun genişləndirilməsi işləri davam etdirilir. Hazırda Qubada Regional Peşə Hazırlığı Mərkəzinin inşası işləri davam edir. Masallı, Sabirabad və Şəkidə də belə mərkəzlərin tikilməsi üçün layihələndirmə işləri aparılır.**




Qeyd olunan mərkəzlərdə işsiz və işaxtaran şəxslərin əmək bazarının tələblərinə uyğun peşələr üzrə hazırlığının həyata keçirilməsi üçün hər cür şərait yaradılacaq. Tədris olunan peşələr üzrə sinif, instruksiya otaqları ilə yanaşı, emalatxanaların da fəaliyyət göstərəcəyi mərkəzlər peşə tədrisi üçün müasir avadanlıqlarla təchiz olunacaq.

## 8 ayda 4 milyard manat pensiya ödənişləri

**Cari ilin 8 ayında pensiya ödənişlərinə ötən ilin müvafiq dövrünə nisbətən 14 faiz (521 milyon manat) çox olmaqla 4 milyard 318 milyon manat vəsait yönəldilib.**

Həmin dövrdə ölkə üzrə pensiyaların orta aylıq məbləği 13 faiz artaraq 491 manata, o cümlədən yaşa görə pensiyaların




orta aylıq məbləği 525 manata çatıb. Bu ilin 8 ayında 27 min, 2019-cu ilin əvvəlindən isə 129 min pensiya təyinatı e-sistem üzərindən proaktiv qaydada aparılıb.

## 622 uşaq övladlığa verilib

**2019-cu ildən bu günədək Sosial Xidmətlər Agentliyi 622 uşağı övladlığa verib. Onlardan 310-u oğlan, 312-si qızdır. Övladlığagötürmə sahəsində də idarəetmə və xidmətlər elektron infrastruktur üzərindən həyata keçirilir.**

Övladlığa verilən uşaqların ailələrdə fiziki-mənəvi inkişafının təmin olunmasına nəzarət edilir. Bu məqsədlə həmin uşaqlar 18 yaşına çatanadək övladlığagötürmənin ilk ilində hər rüb, növbəti illərdə ildə bir dəfə olmaqla monitorinqlər həyata keçirilir. Ötən dövrdə 6 minə yaxın belə monitorinq həyata keçirilib.

## 266,6 min işsiz məşğulluğa cəlb olunub

**Dövlət Məşğulluq Agentliyi yanvar–avqust aylarında 266 min 600 şəxs fəal məşğulluq tədbirləri ilə əhatə olunub. Onlardan 110 min nəfəri münasib işlərlə təmin edilib, 7 min 600 şəxs isə kiçik ailə təsərrüfatlarını yaratmaları üçün özünüməşğulluq proqramına cəlb olunub.**

Qeyd olunan dövrdə agentlik 11 min işsiz şəxs üçün peşə hazırlığı kursları təşkil edib,138 min şəxsə isə peşəyönümü xidmətlər göstərib.

*Zərifə HÜSEYNOVA*
*XQ*

İsrafil İsrafilov – 75

# Türk dünyasının tanınmış teatrşünası

**Milli Kitabxanada "Professor İsrafil İsrafilov" adlı kitab sərgisi istifadəçilərə təqdim olunub. Sərgi sənətşünaslıq doktoru, Teatr Tənqidçiləri Beynəlxalq Assosiasiyasının üzvü, Əməkdar incəsənət xadimi İsrafil İsrafilovun 75 illiyi münasibətilə açılıb.**

Alimin müəllifi olduğu əsərlər, tərtib və redaktə etdiyi kitablar Azərbaycan və rus dillərində ədəbiyyatlar sərginin rəflərində nümayiş olunur. İsrafil İsrafilov "Həyatın səhnəsi, səhnənin həyatı", "Düşündüklərim", "Zaman. Rejissor. Poetika", "Ədil İsgəndərovun teatrı", "Mehdi Məmmədovun rejissor sənəti", "Sən nə üçün yaşayırsan?" (rus dilində) adlı monoqrafiyaların müəllifidir. "Azərbaycan milli rejissor sənətinin poetikası" kitabını mütəxəssislər teatr nəzəriyyəsi sahəsində sanballı elmi tədqiqat əsəri kimi dəyərləndiriblər.

İsrafil Ramazan oğlu İsrafilov 1949-cu il sentyabr ayının 10-da Bakıda anadan olub. M.A.Əliyev adına Azərbaycan Dövlət İncəsənət İnstitutunu (indiki Mədəniyyət və İncəsənət Universiteti) bitirib. Bakı şəhəri 1 May mədəniyyət sarayında bədii rəhbər, Akademik Milli Dram Teatrında truppa müdiri vəzifəsində çalışıb. Görkəmli rejissor Tofiq Kazımovla bir sıra tamaşaların hazırlanmasında, o cümlədən V. Şekspirin "Fırtına", M.S.Ordubadinin "Qılınc və Qələm", Anarın "Şəhərin yay günləri", M.F.Axundovun "Müsyo Jordan və Dərviş Məstəli şah", A.Safronovun "Daşqın" əsərlərinin səhnə təcəssümündə rejissor kimi işləyib.



Sonralar Azərbaycan Dövlət İncəsənət İnstitutunda Tədris Teatrının direktoru, Azərbaycan KP MK-nın mədəniyyət şöbəsində təlimatçı, Azərbaycan Dövlət İncəsənət İnstitutunda elmi işlər üzrə prorektor, Azərbaycan Ədəbiyyatı və İncəsənət muzeylərinin direktoru vəzifələrində çalışdığı dövrlərdə özünü yenilikçi və təşəbbüskar ziyalı kimi tanıdıb.

İsrafil İsrafilov uzun illərdir ki, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində pedaqoji fəaliyyət göstərir, müvafiq proqramların, metodik vəsaitlərin və dərsliklərin müəllifidir. Səhnə sənətimizin ədəbi materialı olan dramaturgiya araşdırmalarına görə filologiya sahəsində fəlsəfə doktoru alimlik dərəcəsi alıb (1985), daha sonralar rejissor sənəti üzrə tədqiqatları ona sənətşünaslıq doktoru (2004) alimlik dərəcəsi qazandırıb.

Tanınmış alim Rusiya, İraq, Türkiyə, Gürcüstan, Səudiyyə Ərəbistanı, İran, Rumıniya, Küveyt, Avstriya, Cənubi Koreya kimi ölkələrdə keçirilən beynəlxalq simpozium və konfranslarda respublikamızın elmi ictimaiyyətini təmsil edib. Mədəniyyətin müxtəlif problemlərinə dair 300-dən çox məqaləsi mətbuatda dərc olunub.

"Teatr orqanizminin anemiyası haqqında" məqaləsi onun bu sahəyə necə özəl münasibət bəslədiyini göstərir: "Bu gün müstəqillik həyatından güc alan ədəbiyyat və sənət milli-mənəvi dəyərləri yeni dövrün yeni insanlarının əldə etdiyi misilsiz nemət kimi uca tutur, onu bədii yaradıcılığının başlıca ideya-estetik mənası hesab edir. Odur ki, yeni, müstəqil Azərbaycanın poeziyası, nəsri kimi, dramaturgiyası da bütün əvvəlki məhdudiyyət çərçivələrini qırıb, prinsipcə tamamilə yeni yaradıcılıq üfüqlərinə üz tutub, mövzu, problematika, konflikt elementləri ilə bərabər bəşəri qayğılarla yaşayan, zəngin mənəvi aləmində multikultural dəyərlər bəsləyən bədii surətlər yaratmaq səyləri ilə daha mənalı görünmək iddiasındadır".

Bir neçə il əvvəl İsrafil İsrafilov Türkdilli ölkələrin Dövlət Teatrları Şurasının sədri seçilib. O, həmçinin İstanbulda keçirilən mərasimdə Türk dünyasının "Ən yaxşı teatr tənqidçisi" mükafatına layiq görülüb.

***Ə.ƏLİYEV***
***XQ***

# Aranın söz ocağı



**Yazıçılar Birliyinin Aran bölməsi 2002-ci ilin fevral ayında yaradılıb. O zaman AYB-nin sədri, Xalq yazıçısı Anar və Xalq şairi Fikrət Qoca bu münasibətlə bölgəyə gələrək, yerli istedadlara xeyir-dua veriblər. Qurumun fəaliyyətə başlaması bölgədə yaşayıb-yaradan istedadlı qələm sahiblərini bir amal ətrafında birləşdirib.**

Aran bölməsi İmişli, Sabirabad, Saatlı və Biləsuvarda yaşayıb-yaradan qələm sahiblərini öz ocağının başında cəm edə bilib. Bu ədəbi mühit çağdaş ədəbiyyatımıza Səyyad Aran, Cabir Savalan, Qəşəm Nəcəfzadə, Sərvaz Hüseynoğlu, Nisə Bəyim, Dayandur Sevgin, Valeh Bahaduroğlu, Şahnaz Şahin, Mətləb Ağa, Qənbər Ağa, Qənbər Əhmədli, Şöhrət Qaraoğlu, Şahismayıl Adıgünlü, Əlağa Mərdanlı, Namiq Yanar, Səxavət Talıblı, Səxavət Tağlar, Firidun Həsənağa və başqaları kimi tanınan imzalarla daxil olub.

Qısa vaxt ərzində bolmənin ədəbi orqanı "Aran" jurnalı təsis edildi. İlk sayı AYB-nin Natəvan klubunda təqdim olundu. Əlavə olaraq təsis etdiyi "Sarı sim" ədəbi-bədii qəzeti nəşrə başladı. "Aran" ədəbi toplusu işıq üzü gördü. Bu nəşrlər bölgədə yaşayıb-yaradan söz adamlaının yaradıcılığı ilə Bakı ədəbi mühitinin sıx əlaqəsini möhkəmləndirdi. Sabirabadda Nisə Bəyimin, Nübar Eldarqızının, Biləsuvarda Muxtar Əhmədin, Saatlıda Qənbər Əhmədin, İmişlidə Əlağa Mərdanlının, Mirələkbər Gövhərlinin oxucularla yaddaqalan görüşləri keçirildi. "Aran" jurnalının və "Aran" ədəbi toplusunun yeni sayları nəşr edildi. Bütün bunlar AYB- nin fəaliyyətdə olan bölmələri üçün bir ilk oldu.

Bölmənin sədri Sərvaz Hüseynoğlu bir zaman yazırdı:

**Bir uzaq səfərə gəmim çıxıbdı,**
**İndi həsrət çəkən liman kimiyəm...**

Bu günsə demək olar ki, onun və qələmdaşlarının söz gəmisi dünya sularında inamla üzməkdə, doğma limana böyük uğurlarla qayıtmaqdadır. Qəşəm Nəcəfzadə demişkən, Aran ədəbi mühiti səmimiyyəti, istiqanlılığı, xəfifliyi, atəşinliyi ilə xarakterizə edilir. Bəlkə də, bu, bir təbiət məsələsidir: Aranın isti iqlimi söz ustalarına da sirayət edib – isti təbiət... isti duyğular... O isti iqlimdən, qaynar təbiətdənsə "hələ də isti yağışlar yağır".

Sabirabadda "Əgər göylər salamatsa, o ah mənim ahım deyil", – deyən Nisə Bəyim, Saatlıda "Ölməyə göndər məni sözün diri vaxtına" – deyən Şöhrət Qaraoğlu, Biləsuvarda "Zülmətdə nələri qoyub gəlibdi, Gözü kölgəlidi səhərin, Allah", – deyən Firudin Həsənağa heç də paytaxt mühitində tanınan qələmdaşlarından geri qalmırlar. İmişlidən Ağasəlim Hacıyev cəmi bir bəndlik şeirində, görün, necə bir poetik fəhm göstərib:

**Gözəllik gətirir bizə təbiət,**
**Çəmənə, obaya, düzə təbiət.**
**Gözələ göz dəyər deyib babalar,**
**Nə yaxşı gəlməyir gözə təbiət?**

Bölmənin sədri Sərvaz Hüseynoğlu deyir:

– Bu istiqamətdə işlər yenə də davam etdirilir. Ən istedadlı qələm yoldaşlarımızın yaradıcılığının təbliği üçün əlimizdən gələni əsirgəmirik. Tez-tez kitab təqdimatları keçiririk. Ədəbi-bədii görüşlər, ədəbi müzakirələr xüsisilə yaddaqalan olur. Eləcə də klassiklərimizin yubiley günləri hazırlanan tədbirlər bütün iştirakçılara unudulmaz təsir bağışlayır.

Ötən il bu vaxtlar Bakı və Şamaxıda keçirilən Azərbaycan Dili və Ədəbiyyatı Forumunda qeyd olunub ki, Azərbaycan ədəbi




irsinin dünya səviyyəsində tanıdılması üçün ciddi səylər göstərilməlidir. Forum çərçivəsində səsləndirilən təkliflər "Azərbaycan mədəniyyəti – 2040" Konsepsiyasında öz əksini tapıb. İnanırıq ki, AYB-nin Aran bölməsi də təklif və təşəbbüslərin gerçəkləşdirilməsinə öz töhfələrini verəcək.

***Ə.DOSTƏLİ***
***XQ***

# Şəfqət ucalığında "Problem yoxdur"

**Rejissor Elçin Ağazadənin ekranlaşdırdığı "Problem yoxdur" sənədli filmi Sumqayıtdakı Muğam Mərkəzində nümayiş etdirilib.**




Bu, filmin Bakı və Gəncədən sonra 3-cü təqdimatı idi. Əlil soydaşımız Alik Cəfərovun həyat hekayəsindən bəhs edən ekran işini sumqayıtlılar da maraqla qarşılayıblar.

Pedaqoqlar Aygün Qasımova, Zivər Xanlarova, təhsil eksperti İlhamə Axundova, Milli Paralimpiya Komitəsinin nəzdində paravelosiped üzrə milli komandanın baş məşqçisi Amid Həsənquliyev, beynəlxalq təlimçi Əsmər Kərimova, yazıçı-psixoloq İlqar Kamil təqdim olunan filmin özəlliyindən söhbət açıb və inklüziv cəmiyyətin inkişafı üçün böyük əhəmiyyət daşıdığını bildiriblər. Əlilliyi olan Fərid Abışovun tarda ifası tədbirə xüsusi rəng qatıb.

Mərasimdə filmin çəkilməsində böyük dəstəyi olan "Mənəvi Dünya" İctimai Birliyinin sədri mərhum Hacı Şahin Həsənlinin xatirəsi yad edilib və videoçarx göstərilib. Sonra film nümayiş olunub.

Diqqətlə izlənən filmdən sonra ekran işinin baş qəhrəmanı – Göygöl rayonunun Balçılı kəndində yaşayan Alik Cəfərovun videomüraciəti təqdim olunub. Rejissor



Elçin Ağazadə filmin ərsəyə gəlməsində zəhməti keçən hər kəsə və mərasimə qatılanlara minnətdarlığını bildirib.

***XQ***

Yaddaşlarda yaşayanlar

# Musiqili səhnənin "səs tablosu" yaradan aktyoru

## *Onun rəsmləri oxuyur, mahnıları əlvanlıq saçırdı*

**Xalqın musiqi mədəniyyətinin bir parçasına çevrilib ürəklərdə yaşayan sənətkarlardan biri də el arasında Mobil kimi tanınan, əsl adı isə Müğbil olan Xalq artisti Müğbil Əhmədovdur.**

Bu günlərdə Fikrət Əmirov adına Gəncə Dövlət Filarmoniyasında Müğbil Əhmədovun xatirəsinə həsr olunmuş konsert keçirilib və onun "möhür" vurduğu mahnılardan ibarət musiqi çələngi təqdim edilib. Rəngarəng ifalar sənətkarın unudulmaz obrazını xatırladıb.



Müğbil Salman oğlu Əhmədov 1931-ci ilin sentyabr ayında Gəncədə anadan olub. O, 1955-ci ildə Əzim Əzimzadə adına Rəssamlıq Məktəbinə daxil olub. Bir il sonra isə Azərbaycan Dövlət Konservatoriyasına qəbul edilib və musiqiyə ömürlük könül verib. Dünya şöhrətli vokalçı, Xalq artisti Bülbülün sinfində təhsil alıb.

Qızı Nigar Əhmədova xatirələrində onun sənət seçimi barədə belə yazıb: "Atam rəssamlığa çox meyilli olub və 2 il Gəncə Dövlət Milli Dram Teatrında Böyükbəy Əliyarbəylinin rəssamlıq məktəbinin üzvü olub. Orta məktəbi bitirəndə isə uşaqlıq arzusu və ürəyinin səsi onu Rəssamlıq Məktəbinə gətirib. Burada da atamın təqdim etdiyi əl işlərinin kompozisiyası o qədər bitkin, rəng koloriti əlvan və cazibəli, obrazları isə canlı olub ki, bu, qəbul komissiyasında şübhə doğurub və onun qabiliyyətini əyani şəkildə yoxlayıblar. Atam gözəl bir natürmort çəkərək sınaqdan uğurla çıxıb və şübhələri alt-üst



edib. Buna görə yekdil qərarla birbaşa 2-ci kursa qəbul olunub. İstedadlı və çalışqan tələbə kimi adı Repin adına təqaüd alanlar sırasına salınıb".

Amma Müğbil Əhmədovun taleyinə müğənni kimi tanınmaq düşübmüş. 50-ci illərin sonlarında Azərbaycanın bir qrup incəsənət xadimi vokal qabiliyyətli gəncləri seçmək məqsədilə Gəncədə "İstedadlar axtarırıq" baxış-müsabiqəsi keçiriblər. Orada özünü sınayan gənc rəssam "Evləri var xanə-xanə" xalq mahnısını və bəstəkar Tofiq Quliyevin "Neftçilər"ini ifa edib. Onun şaqraq səsini dinləyib məm-



nun olan Fikrət Əmirov 21 yaşlı Müğbilə mütləq Bakıya gedib musiqi təhsili almasını tövsiyə edib.

Beləliklə, gənc rəssam konservatoriyaya qəbul olunub. Həmin illərdə Rauf Hacıyev "Biz Bakıdanıq" adlı caz-orkestr yaratmışdı. Bu qrupda Oqtay Ağayev, Natavan Şeyxova, Elmira Rəhimova ilə birlikdə Müğbil Əhmədov da oxuyur, keçmiş ittifaqın şəhərlərinə qastrollara gedirdi. Eyni zamanda, Azərbaycan Dövlət Teleradio Verilişləri Komitəsində Ramiz Mustafayevin rəhbərlik etdiyi orkestrdə solo-ifaçı kimi də çıxışlar edirdi. Sonra Musiqili Komediya Teatrında vokalçı-tenor kimi baş rollarda oynamağa dəvət edildi və ömrünün 45 ilini bu şöhrətli sənət ocağında keçirdi.

Bu illərdə o, 70-dən artıq müxtəlif səpkili, bitkin obrazlar yaratdı. "Məşədi İbad" və "Arşın mal alan" komediyalarında Sərvər, Rüstəm bəy və Əsgər, "Hacı Qara"da Heydər bəy, "Danabaş kəndinin əhvalatları"nda Məhəmmədhəsən əmi, "Qızılaxtaranlar"da Nadir, "Qayınana"da Ayaz, "Gözün aydın"da Alay, "Ulduz"da Bəxtiyar, "Olmadı elə, oldu belə"də Arzu, "Özümüz bilərik"də Zəfər, "Milyonçunun dilənçi oğlu"nda Yetim, "Sevindik qız axtarır"da Toğrul, "Nənəmin şahlıq quşu"nda Cəsarət, "Boşanaq, evlənərik"də Çingiz, "Ləpələr"də Sahib, "Qızılgül"də Etibar kimi obrazları ilə yadda qalıb. Müğbil Əhmədov xarici müəlliflərin əsərlərində də əsas rolların və partiyaların öhdəsindən məharətlə gəlib.

Onun yaradıcılıq meyarları haqqında fikirləri yüksək tələbləri ilə seçilir: "Hamı tərəfindən qəbul olunan belə bir standart fikir mövcuddur ki, artist yaratdığı obrazın bütün xarakterik çalarlarını tamaşaçıya çatdırmalıdır. Bu, əlbəttə, belədir. Amma mənim fikrimcə, aktyor istənilən rolu ifa edərkən, yaratdığı obrazdan daha çox öz şəxsiyyətini, tutumunu, ruh aləmini tamaşaçı üçün aydınlaşdırır. Və bunun nəticəsində, tamaşaçı ya aktyoru sevir, ya da səhnədə ona uzun illər, sadəcə, dözür. Üçüncü variant yoxdur".

Tanınmış bəstəkar Vasif Adıgözəlov sənətkar haqqında xatirələrində bildirib: "Müğbil Əhmədovun Musiqili Komediya Teatrına gəlişindən sonra bizim bəstəkarlarımız mürəkkəb vokal partiyalarına malik operettalar yazmaqdan daha çəkinmirdilər. Çünki bilirdilər ki, burada artıq belə çətinliklərlə bacaran sənətkar var. Odur ki, musiqi sənətimizin inkişafının müəyyən mərhələsini həm də Müğbil Əhmədovun adı ilə bağlamaq olar".

Səhnə yaradıcılığında onun obrazlarının hər birində səs, vokal xüsusiyyətləri nəzərə alınırdı. Aktyor hər bir obrazı yumor hissi ilə tamaşaçıya təqdim etməyə müvəffəq olurdu. Məhz buna görə də səhnədə onun obrazları böyük və kiçikliyindən asılı olmayaraq köməkçi rollar statusunda olmurdu.

Tanınmış sənətkar uzun illər müxtəlif təhsil ocaqlarında pedaqoji fəaliyyət də göstərib. Hətta o, rəssam kimi sənət dostlarının yüzlərlə şarjını çəkib. "Beş manatlıq gəlin" və "Danabaş kəndinin əhvalatları" komediyalarının səhnə tərtibatı, geyim eskizlərinin müəllifi olaraq, o, maraqlı və orjinal səpkili quruluşlar verib. Xoşbəxt taleli sənətkar Müğbil Əhmədovun Azərbaycan Radiosunun fondunda 600-dən çox lent yazısı var. O, "Qara daşlar", "Yeni il gecəsində", "Aktrisanın təbəssümü", "Üzeyir ömrü" və "Məkanın melodiyası" filmlərində də marqlı rolları ilə yaddaşlarda yaşayır.

Xalq artisti Müğbil Əhmədov 2006-cı ildə, 75 yaşında vəfat edib və öz vəsiyyətinə uyğun olaraq Gəncə şəhərində yerləşən Səbizkar qəbirstanlığında dəfn edilib.

***Anar Ərtoğrul BURCƏLİYEV,***
***teatrşünas***

ABŞ-də prezident seçkisi

# Harris–Tramp “teledöyüş”ü

**ABŞ-də prezident seçkisinə iki aydan az müddət qaldığı bir vaxtda çərşənbə axşamı Filadelfiyada növbəti 4 il üçün Ağ evin sahibliyinə iddialı olan hazırkı vitse-prezident Kamala Harris və ölkənin 45-ci dövlət başçısı Donald Tramp arasında teledebat keçirilib. Qeyd edək ki, Birləşmiş Ştatlarda seçkilərin nəticələrinə ciddi təsiri olacaq bu “teledöyüş”ü təkcə okeanın o tayında deyil, bütün dünyada böyük maraqla gözləyirdilər.**



Teledebatdan əvvəl demokratların namizədi Harris ilə onun respublikaçı rəqibi Tramp arasında elə kəskin fərq yox idi. Belə ki, Harrisin qeydiyyatdan keçən seçicilər arasında 1 faizlə - 49-a 48 faiz nisbətilə Trampdan öndə olduğu qeyd olunurdu. Artıq xanım siyasətçinin seçki marafonunda irəli sıçradığı ehtimal olunur.

Maraqlıdır ki, 59 yaşlı Harrislə 78 yaşlı Tramp həyatda ilk dəfə görüşürdülər. Sabiq prokuror olan Harris ilk qara amerikalı qadın vitse-prezidentdir. Bir çox irqçi şərhlərinə görə tənqid edilən Tramp isə ilk ittiham olunan prezidentliyə namizəddir və seçilsə, vəzifə müddətinin sonunda onun 82 yaşı olacaq.

Gözənildiyi kimi, debat son dərəcə gərgin, qarşılıqlı qınaq və ittihamlar şəraitində keçib. Harris və Tramp iqtisadiyyatdan tutmuş, immiqrasiya, demokratiya, abort kimi bir sıra məsələlərlə bağlı mübahisə ediblər. Gündəmdə olan əsas məsələlərdən biri də HƏMAS-İsrail və Rusiya-Ukrayna müharibələri olub.

Telejurnalistlərin ilk sualı iqtisadiyyatla bağlı olub. Birinci Harris danışıb. O, “fürsət iqtisadiyyatı” qurmaq istədiyini deyib. O, yeni kiçik bizneslər üçün vergi kreditini 5 min dollardan 50 min dollara yüksəltmək planından bəhs edərkən deyib: “Mən bu səhnədə orta təbəqəni yüksəltməklə bağlı proqramı olan yeganə insanam”. Əlavə edib ki, rəqibi milyarder Tramp isə yalnız zənginlərə vergi güzəştləri ilə kömək etmək istəyir.

Tramp, həqiqətən iri korporasiyaların vergi nisbətini hazırda mövcud olan 21 faizdən 15 faizə qədər azaldacağını vurğulayıb. O, iri şirkətlərin vergi yükünü azaltmaqla, böyük biznesi Çin və digər Asiya dövlətlərindən ölkə daxilinə qaytarmağa, bununla da yeni iş yerlərinin açılmasına nail olmağa çalışdığını bildirib. Xatırladaq ki, Trampın 2017-ci ildə qəbul etdiyi vergi qanunundan öncə həmin vergi tavanı 35 faiz idi.

Tramp hətta iqtisadiyyatla bağlı sualların çox hissəsini immiqrasiya probleminə həsr edib. Həmçinin bildirib ki, iqtidarda olduğu dönəmdə Birləşmiş Ştatlarda ən yaxşı iqtisadiyyatlardan birini qurub. O, təfərrüata varmadan bunu yenə edəcəyini söyləyib.

Respublikaçılar hesab edirlər ki, budəfəki seçki kampaniyasında ən ağrılı məsələlərdən biri məhz immiqrasiyadır. Tramp debat boyu – moderatorlar immiqrasiya ilə əlaqəsi olmayan sual verdikləri zaman belə - Bayden adminsitrasiyasının immiqrasiya ilə bağlı gördüyü işləri tənqid edib.

Harris isə əksinə, Trampı bu ilin əvvəlində ABŞ-ın cənub sərhədinə əlavə 1500 sərhədçi yerləşdirəcək ikipartiyalı qanun layihəsini əngəllədiyinə görə tənqid edib. Demokratların namizədi deyib ki, seçkilərdə qalib gələrsə, həmin qanun layihəsini dəstəkləyəcək.

Amerikada qızğın müzakirə olunan problemlərdən biri də abort məsələsidir. Trampın prezident olarkən ABŞ-ın Ali Məhkəməsinə təyin etdiyi üç hakim 2022-ci ildə konstitusiyada abort hüququnu ləğv edən qanunun lehinə səs veriblər. Həmin qərar ayrı-ayrı ştatların ölkə boyu abortla bağlı məhdudlaşdırıcı qaydalar tətbiq etməsinə zəmin yaradıb. Tramp debat zamanı deyib: “Ali Məhkəmə bunu etməklə böyük cəsarət sərgilədi”. O həmçinin zorlama, ananın həyatı risk altında olduğu hallarda aborta qarşı olmayacağını bildirib. Harris isə qadınların reproduktiv hüquqlarının vacibliyini vurğulayıb.

Xatırladaq ki, K.Harris on ildən çox prokuror vəzifəsində çalışıb. İlk olaraq o, San-Fransiskoda rayon prokuroru, daha sonra isə Kaliforniyanın baş prokuroru olub. Harrisin seçki kampaniyasının əsas hədəfi Trampı demokratiyanın düşməni olaraq təsvir etməkdir.

Harris debat zamanı Trampın ittiham olunmuş cinayətkar olduğunu vurğulayıb. Tramp isə buna cavab olaraq, Harrisi və Bayden administrasiyanı onu mühakimə etmək üçün hökumətə təzyiq göstərməkdə ittiham edib.

Jurnalistlərin Trampın 2020-ci il prezident seçkisində məğlub olduğunu qəbul edib-etməyəcəyinə dair sualına o, cavab verərək, əslində seçkidə qalib gəldiyini deyib. O, yanvarın 6-da baş verən iğtişaşlarla heç bir əlaqəsinin olmadığını bildirib: “Onlar sadəcə olaraq məndən çıxış etməyimi istədilər”, – deyə bildirib.

Jurnalistlər Harris və Trampa daxili siyasətlə yanaşı, xarici siyasət məsələləri, o cümlədən Ukrayna və Rusiya, habelə İsrail və HƏMAS arasında gedən müharibələr barədə suallar ünvanlayıblar.

HƏMAS-İsrail müharibəsi ilə bağlı Harris deyib ki, Birləşmiş Ştatlar İsraili müdafiə edəcək. Bəlli olduğu kimi, demokratlar iki dövlətli həll yolunu dəstəkləyirlər. Harris deyib ki, müharibəyə dərhal son qoyulmalıdır və atəşkəslə bağlı təcili olaraq razılığa gəlinməli və girovlar qeyd-şərtsiz azad edilməlidir.

Tramp isə iddia edir ki, Harris prezident olsa, “İsrail yox olacaq”. Qarşı tərəf bu ittihamı əssassız hesab edir. Tramp həmçinin bu iddiadadır ki, o, prezident olsa idi, Rusiya-Ukrayna müharibəsi heç vaxt olmazdı.

Ukraynanın Rusiyaya qarşı müharibədə qalib gəlməsini istəyib-istəmədiyinə dair suala cavab olaraq Tramp deyib ki, o, müharibənin dayandırılmasını arzulayır. Harris isə kinayəli şəkildə qeyd edib ki, “Donald Tramp prezident olsaydı, Putin indi Kiyevdə oturmuşdu”.

Teledebatın sonunda Harris iddia edib ki, çağdaş dünya dövlətlərinin liderləri Trampı lağa qoyurlar. Tramp isə Bayden və Harrisi ölkə tarixinin ən pis prezident və vitse-prezidenti adlandıraraq debatı yekunlaşdırıb.

***Məsaim ABDULLAYEV***
***XQ***

# Süni intellektin “yaşıl” enerji axtarışı

**Dünya enerji böhranı yaşıl mənbələrə keçidi sürətləndirir. Məsələ artıq iqlimdə də deyil. Enerji təhlükəsizliyini təmin etmək üçün bir çox ölkələr “təmiz” enerji resurslarını inkişaf etdirməyə çalışır. Hidrogen isə ekoloji cəhətdən ən təmiz enerjidir. Bu yol iqlim böhranı ilə effektiv mübarizədə və davamlı inkişafı dəstəkləməkdə mühüm rol oynayır.**




Hazırda istehlak olunan enerjinin 1faizə yaxını onun payına düşür. Bəs hidrogen enerjisindən istifadənin məhdud olması nə ilə bağlıdır? Bu sahə böyük sərmayələr tələb edir. Saxlanma və daşınma xərcləri də çoxdur. Ona görə də, hidrogen enerjisinin tətbiq sahəsini genişləndirmək, xərcləri azaltmaq üçün yeni yollar axtarılır. Hətta süni intellektdən istifadə gündəmə gəlib.

Saskaçevan Universitetinin (Kanada) alimləri süni intellektin yaratdığı katalizatordan istifadə etməklə hidrogen enerjisinin istehsalında yeni səmərəli üsul təklif edirlər.

Qeyd edək ki, hidrogen suyun elektrolozindən alınır. Bərpa olunan mənbələrdən əldə edilən elektrik sudakı iki metal elektroda buraxılır. Bu zaman oksigen və hidrogen qazları əmələ gəlir. İlk baxışda hər şey sadə görünür. Lakin suyun parçalanma prosesi enerji tələb edir. Nəticə isə nadir və bahalı metallardan hazırlanmış elektrodlardan asılı olur. Bu səbəbdən alimlər daha səmərəli reaksiyaya nail olmaq üçün katalizator kimi optimal ərinti (elektrod) axtarırlar.

Tədqiqatçılar “namizəd” ərintilərinin axtarışında yüz milyonlarla parametrləri təhlil etmək üçün süni intellektlə işləyən kompüter proqramı hazırlayıblar. Süni intellekt ən perspektivli variantları müəyyən etmək üçün virtual simulyasiyadan istifadə edərək 36 mindən çox metal oksid birləşmələrini təhlil edib. Daha sonra ən yaxşı variantı seçib və o, laboratoriya şəraitində sınaqdan keçirilib.

Alimlər həm də reaksiya zamanı katalizatorun effektivliyini qiymətləndirmək üçün CLS-in ultra parlaq rentgen şüalarından istifadə edib. Nəticədə, müəyyən nisbətlərdə rutenium, xrom və titanın birləşməsi ən uyğun katalizator seçilib. Bu ərinti etalon metaldan 20 dəfə daha çox dayanıqlıq və davamlılıq nümayiş etdirərək səmərəliliyini sübut edib.

Amma süni intellekt proqramı böyük vədlər versə də, ərintinin real şəraitdə nə qədər səmərəli olduğuna əmin olmaq üçün geniş sınaqdan keçməlidir.

Kanadalı alimlər ümid edirlər ki, süni intellekt yaşıl enerjidən geniş istifadə üçün daha sürətli yol təqdim edəcək. Eyni zamanda, xərcləri aşağı salacaq.

Bu arada Almaniyanın “Stadler Rail” şirkəti həm hidrogen enerjisi, həm də akkumulyatorlarla hərəkət edə bilən hibrid qatarın təqdimatını keçirib. O tək bir enerji mənbəyindən, ya da onlardan birlikdə istifadə etməklə işləyir. Buna əvvəllər sənayedə heç vaxt rast gəlinməyib.

Qeyd edək ki, Almaniyada dəmir yolu xətlərinin 38 faizi elektrikləşdirilməyib. “Stadler Rail” şirkətinin yeni ixtirası bu boşluğu kompensasiya etmək məqsədi daşıyır.

Hibrid sistem həmçinin dəmir yolu xətlərində vaqonların akkumulyatorlarını doldurmağa imkan verəcək. Hidrogen mühərrikindən istifadə edən prototipin ehtiyat hərəkət məsafəsi 700 kilometrə, hər iki sistemdən istifadə edildikdə isə bu rəqəm 1000 kilometrə çatır.

Batareyalara gəlincə, onlar tam dolduruldüqdan sonra 80–100 kilometr məsafəni təmin edə bilir, iki belə sistem isə bu rəqəmi 180 kilometrə qədər artıracaq. Batareyalar ilə işləyərkən maksimal sürət saatda 120 kilometrdir.

Sonda bildirək ki, hidrogen qaz halında olan enerji daşıyıcısıdır və yandırıldıqda əmələ gələn yeganə emissiya sudur. Bu isə ekoloji mühitin qorunması, istixana təsirinin azalması və s. baxımdan çox əlverişlidir.

***PÜNHAN***
***XQ***

## “Sumqayıt Kompressorları” ASC səhmdarlarının nəzərinə!

29 oktyabr 2024-cü il saat 10.00-da cəmiyyətin ümumi yığıncağı (hüquqi ünvanı-Sumqayıt şəhəri, Səməd Vurğun küçəsi1) onlayn qaydada -“ZOOM” proqramı vasitəsilə keçiriləcək və iclasın video qeydiyyatı aparılacaqdır.

Gündəlikdəki məsələlər:

1. Cəmiyyətin idarə heyətinin sədrinin təyin olunması.
2. Cəmiyyətin əsas vəsaitlərinin siyahıya alınması.
3. Digər məsələlər.

Bütün səhmdarlardan xahiş olunur ki, yığıncağın keçirilmə vaxtına 1 gün (24 saat) qalanadək iclasda “ONLİNE” iştirak üçün müvafiq kod alaraq qeydiyyatdan keçmələrini 010-324-69-84 “WhatsApp “ nömrəsi ilə təmin etsinlər. Qeydiyyata düşənlərə proqramdan istifadə üçün iclasa qoşulma linki və müvafiq təlimat göndəriləcəkdir.

***“Sumqayıt Kompressorları ASC-nin idarə heyəti***

Fəlsəfi düşüncələr

**Bu gün dünyanı bürüyən qloballaşma fırtınası qarşısında sivilizasiyalar yenidən öz köklərinə söykənərək performanslar göstərirlər. Multikulturalizm erası başlanır və bu artıq Avropanın assimilyasiya siyasətinin çökməsi deməkdir. Mədəniyyətlərin də qabarıb-çəkilmə dövrləri olur. Bu, təbii ki, tarixi proseslərlə, imperiyaların yüksəlişi və çökməsi ilə birbaşa bağlı olaraq periodik yerdəyişmələrin nəticəsi kimi meydana çıxır. Əsrlər boyu davam edən mübarizələr nəticəsiz qaldı; Qərb Şərqi məğlub edə bilmədi.**

# Qərbi heyran qoyan Şərq hikməti

Şərq fəlsəfəsinin və ədəbiyyatının ən mühüm xüsusiyyətlərindən biri də budur ki, o insanı mənəvi-ruhi rahatlığa qovuşdurur. Bu gün gənclər arasında Qərb fəlsəfəsinə, Qərb ədəbiyyatına həddən ziyadə aludəçilik onlarda ruhi tarazlığın pozulmasına və bir sıra psixoloji problemlərin yaranmasına səbəb olur ki, bu da beyindəki sağlam düşüncəni virus kimi dağıdır. Ekzistensializm xaosunda mənəvi mutasiya yaranır və ağlın gücü müxtəlif hissələrə parçalanaraq zəifləyir. Seneka deyirdi ki, “şərin mənbəyi şeylərdə deyil, ruhdadır”. Qərb fəlsəfəsinin də hədəfi məhz Ruhdur.



Siz dünya ədəbiyyatında elə bir yazıçı tanıyırsınızmı ki, öz xalqının dəyərlərinə arxa çevirsin? Bu, mümkün deyil. İstər klassik, istərsə də müasir dövrün yazıçılarının əsərlərinə nəzər salın. Məsələn, Lermontov haqqında deyirdilər ki, o, təkcə rus xalqının deyil, bəşəriyyətin vicdanıdır. Eyni sözləri Tolstoy haqqında da deyirdilər. Bəşəriyyətin bədii təfəkkür tarixində böyük iz buraxmış bu yazıçılar hər şeydən əvvəl rus xalqının mənəvi dəyərləri üzərində pərvəriş tapmışdılar, rus xalqının, rus insanının taleyini, məişətini, mənəvi inkişaf yolunu öz əsərlərində böyük sənətkarlıqla əks etdirirdilər. Onları güclü edən də bu dəyərlər idi. Əks halda onlar dünya ədəbiyyatının klassikinə çevrilə bilməzdilər. Milli ədəbiyyat olmasa, o bəşəriyyətin tərkib hissəsinə çevrilə bilməz.

Hər bir xalqın böyüklüyü, mənəvi zənginliyi onu başqa xalqlar arasında fərqləndirən başlıca xüsusiyyətdir. Təsəvvür edin ki, dünyada təkcə bir rəng mövcuddur.



Bunu təsəvvür edə bilirsinizmi? Rənglərin çoxluğu, əlvanlığı dünyanı maraqlı edir, nəsnələri, əşyaları seçməkdə bizə yardımçı olur. Hər bir xalqın mənəvi dəyərləri bizə həm də dünyadakı sərhədləri müəyyən etməkdə kömək edir.

Harriyet Biçer Stounun “Tom dayının daxması”, Harper Linin “Bülbülü öldürmək”, Solomon Northupun “12 illik köləlik” romanları qaradərililərin hüquqları uğrunda hərəkatın başlanmasına start verdi. “Tom dayının daxması" əsəri qələmə alınan illərdə ABŞ-da ağasından qaçan kölələr təqib edilərək ələ keçirilir və onlara amansız işgəncələr verilirdi. Məhz bu əsərdən sonra Amerikada köləliyə qarşı savaş başlandı. Martin Lüter Kinqi məhz bu ədəbiyyat yetişdirmişdi. Bu əsərlər qaradərililərin öz dəyərlərinə, gələnəklərinə, kimliklərinə sahib çıxmasına təkan verdi.

Azərbaycan xalqının, ümumiyyətlə, Şərq xalqlarının milli-mənəvi dəyərləri, adət-ənələri, folkloru həmişə dünya üçün cəzbedici olub. Böyük alman şairi və mütəfəkkiri Volfqanq Höte məşhur “Şərq-Qərb divanı”nda özünün Şərqə böyük heyranlığını ifadə edir. Avropanın inqilab və savaş çirkablarında çabaladığı dönəmlərdə üzünü Şərqə tutur. Höte Avropada suallarına cavab tapa bilmir, bu cavabları Nizami poeziyasında tapır. “Şərq-Qərb divanı”nı bizim dilə tərcümə etmiş Xalq şairi Sabir Rüstəmxanlı kitaba yazdığı ön sözdə qeyd edir ki, bu əsərin bir çox parçaları Şərq hikmətindən və Qurani-Kərimdən iqtibas təsiri bağışlayır. Şərqin təsiri məzmunla yanaşı “Divan”dakı bəzi şeirlərin formasında da müşahidə edilir.

Bu yaxınlarda bir maraqlı fakta rast gəldim. Dünya poeziyasında modernizmin yaradıcılarından olmuş Nobelli Amerika yazıçısı Tomas Eliotdan soruşurlar ki, necə oldu şeir yazmağa başladınız? O, belə bir cavab verir: “Mən uşaq vaxtı Fistceraldın tərcüməsində Ömər Xəyyamın rübailərini oxudum və bu rübailər məni heyrətə gətirdi. Bu şeirlər məni sehrlədi və mən şeir yazmağa başladım”.

Bu faktın özü Qərbin tarix boyu Şərq estetikasına, Şərq təfəkkürünə sonsuz marağının sübutudur. Şərq fəlsəfəsinin tarixi çox qədim dövrlərə gedib çıxır. Eramızdan əvvəl I minillikdən başlayaraq qədim Hindistan və Çində bir sıra fəlsəfi məktəblər, cərəyanlar meydana gəlib formalaşmışdır. Bu dövrlərdə Şərqin dini-mifoloji dünyagörüşündən fəlsəfi dünyagörüşünə keçidi prosesi yaşanırdı. Hindistanda Budda, Çində Dao təlimi yarandı və bu da fəlsəfi fikrin formalaşmasına güclü təkan verdi. Qədim misirlilər insanı mifoloji düşüncəyə əsasən öyrənməyə başladılar, dünyaya miflərin prizmasından yanaşaraq çox maraqlı nəticələrə gəlib çıxdılar. Bu gün dünyada ən qədim mədəniyyətlərdən biri də Misir mədəniyyətidir. Babilistdanda günümüzədək gəlib çıxmış gil lövhələr sübut edir ki, hələ o dövrdə burada təbabət, astronomiya inkişaf etməyə başlayıb. “Pifaqor teoremi” şumerlilərin yaratdığı cəbr və həndəsənin əsasında yaradılmışdır.

Hegelin fəlsəfəsi sovet dövründə konyukturaya uyğunlaşdırılmışdı, bir çox qərb filosofları SSRİ məkanında qadağan olunsa da materializmin banisi K. Marksın Hegelə rəğbəti ona qarşı loyal münasibətə səbəb olmuşdu. Marks Hegelin dialektik metodunu qəbul edirdi, amma onun ideyalarla bağlı tezisini maddiyatla əvəz edirdi. Sosializm ideoloqları Hegeli redaktə etməklə kobud şəkildə təhrif edirdilər. Hegel Tanrının varlığına şübhə ilə yanaşırdı və Şərq fəlsəfəsinin istinad nöqtəsi hesab olunan Tanrı ideyasını “mütləq ruh” ideyası ilə əvəz edirdi.

Dövrümüzün yaşayan canlı klassiki Milan Kundera özünün “İtirilmiş Qərb və ya Mərkəzi Avropanın faciəsi” essesində yazır ki, xalqın və ya sivilizasiyanın özünüdərki və şüuru bizim “mədəniyyət” adlandırdığımız məfhumda cəmlənir. Hegelin “insan tərəfindən yaradılmış ikinci təbiət” adlandırdığı mədəniyyət sözünün ilkin mənası “əkib-becərmək” deməkdirsə, digər mənası da Mədinə sözündən yaranıb “şəhər salma” anlamına gəlir. Bu sözün başqa bir mənası da təhsil, maarifçilikdir. Mədəniyyət təkamülün bəhrəsidir və insan ruhunun təzahürüdür.

Belə bir məntiqi sual ortaya çıxır: Allah insana düşünmək qüdrəti verməsəydi, təkamül necə baş verəcəkdi?! Şərq fəlsəfəsi bu suallara cavab verir. X-XI əsrlərin böyük Şərq filosofları Fərabi, İbn Sina, Bəhmənyar, Biruni və bir çox başqaları yunan fəlsəfəsindən qaynaqlanaraq özlərinin fəlsəfi təlimlərini yaradıblar. Bu təlimlər onların teoloji risalələrində öz əksini tapıb. Pifaqorun, Aristotelin, Evklidin, Platonun əsərləri VII əsrin sonlarından başlayaraq ərəb dilinə tərcümə olunmağa başladı və sonralar orta əsr Şərq fəlsəfi fikrinə çox böyük təsir göstərdi . Ərəb dilli filosoflar Aristoteli özlərinin birinci müəllimi hesab edirdilər. XI-XII əsrlərdə isə Şərqdə sufilik nəzəriyyəsi geniş yayılmışdı ki, bu nəzəriyyənin də ən görkəmli nümayəndəsi özünün sufi məktəbini yaratmış Azərbaycan filosofu Əbu Həfs Sührəvərdi olmuşdur ki, onun “Mərifətlərin töhfələri” əsəri sufizm dərsliyi kimi qəbul edilib. Qərb fəlsəfəsi bu gün də bu təlimdən bəhrələnməkdədir.

Deməli, Şərq fəlsəfi fikri bəzilərinin düşündüyü kimi heç də pritça, nağıl səviyyəsində olmayıb. Yuxarıda adlarını sadaladığım filosofların hər biri öz nəzəriyyəsini yaradıb. Əksər hallarda Şərq fəlsəfəsini dərindən bilməyən adamlar Qərb fəlsəfəsinin böyüklüyü haqqında danışırlar. Necə ki, İbn Sinanı, Fərabini, Bəhmənyarı oxumayan, onların fəlsəfi təlimlərindən bixəbər adamlar Volteri, Nitşeni oxuyub ateist olurlar.

Rus ədəbiyyatının nəhəngi L. Tolstoy islam fəlsəfəsini öyrəndikdən sonra “Din nədir?” adlı kitab yazdı. Tolstoy ölümündən bir neçə il əvvəl Məhəmməd peyğəmbərin Qurana daxil olmayan kəlamlarını toplayıb nəşr etdirmişdi. Orda belə bir kəlam yer alır: “Allah insanın qəlbindədir”. Qəzali nə deyirdi? “Qəlb insanın ruhudur”.

Qərb fəlsəfəsi uzun müddət Şərq fəlsəfəsini öyrənib və ondan bəhrələnməklə həm də onu təhrif edib. XVIII yüzilliyin fransız maarifçi-filosofu Volter yazır ki, “ruh bizə özümüzü idarə edə bilmək üçün verilmiş bir saat mexanizmidir, ancaq onu düzəldib bizə verən usta (Tanrı – K.H) bu mexanizmi işlədən yayların nədən düzəldildiyini bizə deməmişdir”. Şərq fəlsəfəsi min il əvvəl bu fikri daha mükəmməl bir formada dilə gətirib. Bədən ruhun örtüyüdür, Nizami deyirdi ki, “biz sözük, bu bədənsə eyvanımızdır bizim”.

***Kənan HACI,***
***yazıçı-publisist***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 198 (30602) 12 sentyabr 2024-cü il, cümə axşamı

# Dünya Formula 1 Azərbaycan Qran-Prisini intizar və maraqla gözləyir




**Bakıda dünyanın ən nüfuzlu idman yarışlarından biri – "Formula 1" Qatar Airways Azərbaycan Qran-Prisinin startına sayılı saatlar qalır. Dünyanın sürət həvəskarları Bakı şəhərində növbəti dəfə keçiriləcək bu mötəbər yarışın startını böyük həyəcanla gözləyirlər. Artıq Azərbaycan Qran-Prisi 2024-ə olan maraq gözləntiləri üstələyib.**

### Bütün tribuna biletləri alınıb

Ölkəmizdə sentyabrın 13-15-də keçiriləcək bu mötəbər yarışın növbəti dəfə möhtəşəm şəkildə təşkil ediləcəyinə heç bir şübhə yoxdur. Bakı Şəhər Halqası (BHŞ) Əməliyyat Şirkətinin məlumatına görə, bütün biletlər satılıb. Azarkeşlərin böyük marağı səbəbindən bu il Bakı yarışının 8 tribunasına "Zəfər" və "Qız Qalası" tribunaları əlavə edilib. Yarış tribunalarının ümumi tutumu ötən ilə nisbətdə 35 faiz artırılıb.

Dördgünlük bilet sahibləri yarışı izləməklə yanaşı, Pit zolağı gəzintisi və dünya ulduzlarının konsert proqramlarında iştirak edəcəklər.

### Pilotlar Bakıya sevinclə qayıdırlar

**Formula 1 Bakı yarışının həyəcanına köklənən pilotlar maraqlı fikirlər səsləndiriblər. Avstraliyalı pilot Oskar Piastri Bakıya qayıtmağı səbirsizliklə gözlədiyini deyib:**

– Artıq bir neçə aydır ki, küçələrdə yarışa çıxmırıq və Bakıda yarış həmişə maraqlı olur. Mənim nikbin proqnozlarım var. Sürətli bolidə malikik, müxtəlif növ yollarda rəqabət aparırıq.

"Alfa Tauri" komandasının pilotu Yuki Tsuno da Bakıdakı yarışın hər zaman gərgin və maraqlı keçdiyini söyləyib:

– Bakı trekini çox sevirəm. Ötən il də bu qədim şəhərin küçələrində yarışırdım. Son sağ küncdəki döngənin şəhərin dar hissəsi ilə kombinasiyasına heyranam. Təbii ki, Bakı treki pilotlardan xüsusi dəqiqlik tələb edir. Yaxşı haldır ki, sürücülərin zəif çıxışına səbəb olan bəzi maneələr aradan qaldırılıb. Avtomobillərə əlavə evakuasiya qapıları əlavə edilib. Bu da pilotların təhlükəsizliyi baxımından müsbət addımdır.

### Bakı Şəhər Halqası cəsarət tələb edir

**Formula 1-in finlandiyalı pilotu Valtteri Bottas deyib:**

– Bakı Şəhər Halqası cəsarət tələb edən traslardan biridir,buna görə də ağıllı hərəkət etmək lazımdır. Keçmişdə dəfələrlə orada yaxşı nəticələr əldə etmişəm və həmişə bu çətin trasa qayıtmaqdan məmnunam. Onun uzun düz yollarında yaxşı sürət lazımdır, lakin bolidin dəqiq sürmə texnikası tələb edən dönmə hissələrinin öhdəsindən yaxşı gəlməsi də eyni dərəcədə vacibdir.

Yarışa hazırlaşan pilot komanda ilə birlikdə zəif tərəfləri təhlil etdiklərini də deyib. "Sauber" komandasında Niko Hülkenberq Bakı küçə trasının bəzi hissələrində, Köhnə şəhərdəki dar hissədə olan maraqlı trasda onları çox mürəkkəb və gərgin dövrə gözlədiyini deyib. "İlk dəfə biz oraya payızda gedəcəyik, adətən, mərhələ yazda olurdu, görək, bu nəyisə dəyişəcəkmi?", – deyə o bildirib.

**Pilotun ortağı, debütant Oliver Berman Formula 1-in sükanı arxasına qayıtmaq və ilk tam həftəsonunu keçirməyə çox şad olduğunu vurğulayıb:**

– Konfiqurasiya stasionar deyil və çox mürəkkəbdir, divarlar bir-birinə yaxın məsafədədir, qalanın yaxınlığındakı dar bir ərazidə isə çox sıxdır. Mən lazımi tempi tapmaq üçün tədricən sürətimi artıracağam.

### Çətin və şərəfli sınaq

**Çinli pilot Quanyuy Çjou mövsümün Avropa hissəsi başa çatdıqdan sonra Bakıda həftəsonu tras yürüşlərinin növbəti seriyasının açıldığını və bunun çox maraqlı olduğunu bildirib:**



– Azərbaycanın paytaxtı unikal yerdir, çünki həm şəhərin, həm də trasın özünəməxsus xarakteri var, eyni zamanda burada yarış həmişə maraqlı olur. Uzun düz yolların sıx və texniki döngələrlə birləşməsi həm sürücü, həm də avtomobil üçün problemdir.

Komandamız problemləri həll etmək üçün çox çalışır və qarşıda hələ çox iş var, bununla belə, mübarizəyə qayıtmaq üçün əlimizdən gələni edəcəyik. Hər yarış təkmilləşmək üçün bir fürsətdir və biz bundan tam istifadə etməyə hazırıq.

***Leyla QURBANOVA***
***XQ***

# Paralimpiyaçıların fəxri ehtiramı

**"Paris-2024" Yay Paralimpiya Oyunlarında iştirak etmiş Azərbaycan nümayəndə heyəti Fəxri xiyabanı və Şəhidlər xiyabanını ziyarət ediblər.**



Onlar əvvəlcə Fəxri xiyabana gələrək ümummilli lider Heydər Əliyevin xatirəsini dərin ehtiramla yad edib, məzarı önünə gül və əklil qoyublar.

Sonra nümayəndə heyəti Şəhidlər xiyabanını ziyarət edib. Onlar Azərbaycanın azadlığı və müstəqilliyi uğrunda mübarizədə canlarını qurban vermiş qəhrəman Vətən övladlarının əziz xatirəsini yad edib, məzarları üzərinə güllər düzüb, "Əbədi məşəl" abidəsinin önünə əklil qoyublar.

Qeyd edək ki, Paris Paralimpiadasında Azərbaycan 11 medal qazanıb.

# Azərbaycanın 4-cü Astana medalı

**Azərbaycanın daha bir idmançısı Qazaxıstanın Astana şəhərində keçirilən V Dünya Köçəri Oyunlarında fəxri kürsüyə qalxıb.**




Gənclər və İdman Nazirliyinin mətbuat xidmətindən "XQ"yə verilən məlumata görə, təmsilçimiz Şəhanə Alməmmədova (75 kq) alış güləşi yarışında bürünc medal alıb. Bundan əvvəl qazaq güləşi yarışlarında Eyvaz Baxşıyev (65 kq) gümüş, Elşən Dünyamalıyev (55 kq) və Ülviyyə Bayramova (52 kq) isə bürünc mükafata sahib çıxıblar.

Sentyabrın 13-dək davam edəcək yarışlarda Azərbaycan 8 növ üzrə 54 idmançı ilə təmsil olunur.

# Karateçimiz Avropa qalibidir

**Rumıniyada keçirilən Avropa çempionatında karateçimiz uğurla çıxış edib.**




Beynəlxalq Kyokuşin-Kan karate təşkilatı tərəfindən Klyuj Napoka şəhərindəki Sala Polivalenta arenasında keçirilən yarışda təmsilçimiz Aygün Əsədli 61 kiloqram çəki dərəcəsində bütün rəqiblərinə qalib gələrək qızıl medala sahib olub.

Qitə miqyaslı turnirdə Azərbaycan Karate Federasiyasının nəzdində fəaliyyət göstərən ənənəvi karate və "KVU-VFKF birliyi"nin üzvləri iştirak ediblər.

***L.AZAD***
***XQ***

# Vitamindir qaragilə – bir ovuc ye gülə-gülə

**Meyvələr sağlam və uzun yaşamaq üçün vacib qida qaynaqlarından biridir. Vitamin və minerallar baxımından meyvə ağlımıza ilk gələn qidadır. Şirin dadı olan giləmeyvələrin isə sağlamlığa faydaları çoxdur.**

Parlaq qırmızı rəngdə və turş dadı olan yemişan sağlamlığa bir çox faydası olan meyvədir. El arasında qaragilə adi ilə tanınan yemişanda ürək sağlamlığını dəstəkləyən antioksidantlar mövcuddur. Tərkibindəki flavonoidlər və fenolik birləşmələr xolesterinin səviyyəsini tənzimləyir, qan damarlarını genişləndirir, qan təzyiqini aşağı salır və infarkt riskini azaldır.

Qaragilə immuniteti gücləndirən və orqanizmi



infeksiyalardan qoruyan C vitamini ilə zəngindir. Tərkibindəki antioksidantlar sərbəst radikallarla mübarizə apararaq orqanizmi xəstəliklərdən qoruyur. Bu giləmeyvənin tərkibində həzm sistemini yaxşılaşdırmağa kömək edən liflər var. Onlar həzm prosesini tənzimləyir, qəbizliyin qarşısını alır və bağırsaq sağlamlığını dəstəkləyir.

Yemişan giləmeyvəsindəki antioksidantlar və fenolik birləşmələr xərçəngə qarşı qoruyucu təsir göstərir. Xüsusilə, antosiyaninlər və katexinlər xərçəng hüceyrələrinin böyüməsinə maneə törədir.

Qaragilə çay, mürəbbə, şərbət və ya quru meyvə kimi istehlak edilə bilər. Mövsümdə hər gün 1 ovuc yemək orqanizmi xeyli möhkəmlədir. Lakin diqqətli olmaq lazımdır, çünki giləmeyvənin bəzi dərmanlarla qarşılıqlı təsiri mədə narahatlığına səbəb ola bilər.

***Z.HÜSEYNLİ***
***XQ***



# Aranda yağmursuz, dağlarda yağış, duman və külək

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən, sentyabrın 12-də Bakıda və Abşeron yarımadasında hava dəyişkən buludlu olacaq. Əsasən yağmursuz keçəcək. Mülayim şimal-qərb küləyi əsəcək, gündüz şimal-şərq küləyi ilə əvəz olunacaq. Gecə 20-24°, gündüz 28-32° isti olacaq.**

Atmosfer təzyiqi 758 civə sütunu,nisbi rütubət gecə 70-75, gündüz 40-45 faiz olacaq. Abşeron çimərliklərində dəniz suyunun temperaturu: Şimal çimərliklərində: (Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəh və Zaqulba) 24-25° isti,Cənub çimərliklərində: (Türkan, Hövsan, Sahil və Şıx) 24-25° isti olacaq. Azərbaycanın rayonlarında əsasən yağmursuz keçəcək. Lakin gündüzdən bəzi dağlıq və dağətəyi rayonlarda arabir yağış yağacağı, şimşək çaxacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli olacağı, dolu düşəcəyi ehtimalı var. Gecə və səhər bəzi yerlərdə zəif duman olacaq. Şərq küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 17-22°, gündüz 29-34°, dağlarda gecə 10-15°, gündüz 20-25° isti olacaq.

***Q. QASIMOV***
***XQ***

# Səyyar "ASAN xidmət" Xaçmazda

**Səyyar "ASAN xidmət" avtobusu bir neçə gündür ki, Xaçmaz şəhərində sakinlərə xidmət göstərir.**

Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyindən verilən məlumata görə, Xaçmaz rayonunda 18 dəfə səyyar xidmət avtobusu, 3 dəfə "ASAN qatar" vasitəsilə, ümumilikdə, 21 dəfə səyyar xidmət gerçəkləşib. Bu dövr ərzində Xaçmaz rayonunda səyyar xidmət avtobusuna 67 min 731, "ASAN qatar"a isə 11 min 502 vətəndaş müraciəti daxil olub.

Səyyar şəkildə göstərilən xidmətlər Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi, Daxili İşlər Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondu, İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti tərəfindən təqdim olunur.

Hazırda Xaçmaz şəhərində fəaliyyət göstərən Səyyar ASAN avtobusun növbəti dayanacağı Siyəzən rayonu olacaq.

***FİDAN***
***XQ***

✓ *Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi tərəfindən nazirliyin Bakı Ağır Cinayətlər Məhkəməsi üzrə İcra şöbəsinin icra məmuru Bayramov Tural Əmir oğlunun adına verilmiş xidməti vəsiqə itdiyi üçün etibarsız sayılır.*

## ALLAH RƏHMƏT ELƏSİN

"Xalq qəzeti"nin baş redaktoru Əflatun Amaşov Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Baş Dövlət Yol Polisi İdarəsinin rəisi Ramiz Zeynalova qardaşı

**TOFİQ ZEYNALOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Asif Əsgərov Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Baş Dövlət Yol Polisi İdarəsinin rəisi Ramiz Zeynalova qardaşı

**TOFİQ ZEYNALOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75 Mühasibatlıq: 498-85-29
Məsul katib: 493-61-02 E-mail: xalqqazeti@gmail.com
Texniki şöbə: 493-59-64 info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3861
SİFARİŞ 2009
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Paşa ƏMİRCANOV

Çapa imzalanmışdır 00:00